Xalqın qəzeti!
# Xalq qəzeti
№ 163 (30567) 3 avqust 2024-cü il, şənbə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycanın uğurlu neft strategiyası iqtisadi inkişafa təminat yaradır



**Müstəqil Azərbaycanın iqtisadi strategiyasının banisi Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olan "Əsrin müqaviləsi"nin imzalanmasından 30 ilə yaxın vaxt ötür. Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünü əhatə edən bu tarixi sazişin uğurla icra olunması istiqamətində həyata keçirilən tədbirlər ölkəmizi iqtisadi tənəzzüldən sürətli inkişaf yoluna çıxarıb.**

Azərbaycanın iqtisadi müstəqilliyi üçün möhkəm təməl, etibarlı baza rolunu oynayan "Əsrin müqaviləsi" çərçivəsində bir sıra iri miqyaslı layihələr həyata keçirilib, neftin hasilatı və nəqli üçün nəhəng infrastruktur yaradılıb. Xəzər regionunu beynəlxalq əməkdaşlıq məkanına çevirən "Əsrin müqaviləsi" gənc Azərbaycan Respublikasını qlobal enerji layihələrinin təşəbbüskarı və əsas iştirakçısı kimi bütün dünyaya tanıdıb, ölkəmizə beynəlxalq nüfuz qazandırıb. Beləliklə, Azərbaycan dünyanın neft ixrac edən ölkələrinin sırasında öz mövqeyini xeyli gücləndirib.

Əvvəlki dövrlərdə olduğu kimi, 2024-cü ilin yanvar-iyun aylarında da "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsi üzrə tikinti-quraşdırma, qazma və hasilatla bağlı əməliyyatlar sahəsində yüksək nəticələr əldə edilib. "BP-Azərbaycan" şirkətinin bu ilin birinci yarısının nəticələrinə dair hesabatına əsasən, yanvar-iyun aylarında konsorsium iştirakçıları tərəfindən "Azəri-Çıraq-Günəşli" layihəsinin əməliyyat tədbirlərinə 243 milyon dollar, əsaslı məsrəflərinə isə 698 milyon dollar xərclənib.

Cari ilin əvvəlindən AÇG yataqlar blokunda yeni 4-ölçülü yüksək dəqiqlikli dənizdibi qovşaqlarla seysmik tədqiqat proqramına başlanıb. Balaxanı və Fasilə lay dəstlərinin tədqiqinə yönəlmiş bu proqram seysmik mənbənin altında 740 kvadratkilometr, qəbuledicilərin altında isə 507 kvadratkilometrlik bir ərazini əhatə edir. Proqramın ümumi dəyərinin, təxminən, 370 milyon ABŞ dolları, icra müddətinin isə beş il (2024-2028) olacağı planlaşdırılır. Tədqiqatın əhatə edəcəyi ərazi, aparılacaq işlərin ümumi dəyəri və müddəti baxımından bu layihə BP-nin dünyada indiyədək həyata keçirdiyi ən böyük seysmik məlumattoplama proqramıdır. Proqram üzrə bu il üçün nəzərdə tutulmuş iş həcmi artıq təhlükəsiz şəkildə və qrafikdən əvvəl tamamlanıb. Hazırda isə əldə olunmuş seysmik məlumatların emalı davam edir.

(ardı 7-ci səhifədə)

## Beynəlxalq Olimpiya Komitəsi Azərbaycandan üzr istəyib




Səhifə ⇨ 12

## Okampolar erası bitib



Səhifə ⇨ 3

## Siranuşun ağ yalanı



Səhifə ⇨ 3

## COP marafonunun 29-cu Bakı finişi




Səhifə ⇨ 8

## ABŞ-nin Gürcüstan QHT-lərinə yardımı: niyyət nədir?



Səhifə ⇨ 11

## Haniyənin qətli vəziyyəti necə dəyişdirəcək?



Səhifə ⇨ 11

## "S&P Global Ratings" ölkəmizin iqtisadi artım proqnozunu açıqlayıb

**Ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər dünyanın əksər dövlətləri, eləcə də bir sıra beynəlxalq təşkilatlar tərəfindən təqdir edilir. Təsadüfi deyil ki, hazırda tanınmış reytinq agentlikləri də ölkəmizin gələcək iqtisadi inkişafı ilə bağlı nikbin, ümidverici fikirlər səsləndirir, əvvəlki proqnozlarını mütəmadi olaraq yeniləyirlər.**

Bugünlərdə "S&P Global Ratings" beynəlxalq kredit reytinq agentliyi Azərbaycanda iqtisadi artımla bağlı gözləntilərini açıqlayıb. Agentliyin Azərbaycanın suveren kredit reytinqlərinin təsdiqi ilə bağlı hesabatına əsasən, 2024-cü ildə ölkəmizdə ümumi daxili məhsulun (ÜDM) artımı 1,5 faiz səviyyəsində proqnozlaşdırılıb. Qurumun ölkəmizlə bağlı son açıqlaması bir qədər maraqlı görünür. Bu ilin iyun ayında "S&P Global Ratings" agentliyi Azərbaycanın real ÜDM-in artımı ilə bağlı proqnozunu 1,5 faizdən 2,5 faizə qədər artırdığını açıqlamışdı.

(ardı 7-ci səhifədə)

S&P Global Ratings

## Milli kinomuzun doğma günü



Səhifə ⇨ 10

# “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1** “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 125 (Cild I); 2024, № 3, maddə 260; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 iyul tarixli 156 nömrəli Fərmanı) 2.7-1-ci bəndinə “ASAN ödəniş” sözlərindən sonra “informasiya” sözü əlavə edilsin.

**2** “ASAN xidmət” mərkəzlərində həyata keçirilən xidmət növlərinin və elektron xidmətlərin genişləndirilməsi və “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 fevral tarixli 110 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 117 (Cild I) 1-ci hissəsinə, 2-ci və 3-cü hissələrinin birinci abzaslarına, 6-cı hissəsinə “ASAN ödəniş” sözlərindən sonra “informasiya” sözü əlavə edilsin.

**3** “ASAN ödəniş” sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 463 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 125 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adına, 1-ci hissəyə, 5.1-ci, 5.2-ci, 7.1-ci və 7.2-ci bəndlərə “ASAN ödəniş” sözlərindən sonra “informasiya” sözü əlavə edilsin;

3.2. 6-cı hissə aşağıdakı redaksiyada verilsin:

“6. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi “ASAN ödəniş” informasiya sisteminin fəaliyyətinin təşkili və ondan səmərəli istifadənin təmin edilməsi üçün zəruri tədbirlər görsün.”;

3.3. həmin Fərmanla təsdiq edilmiş “ASAN ödəniş” sistemi haqqında Əsasnamə” üzrə:

3.3.1. adına, 1.1-ci bəndə və həmin Əsasnaməyə Əlavəyə (hər iki halda) “ASAN ödəniş” sözlərindən sonra “informasiya” sözü əlavə edilsin;

3.3.2. aşağıdakı məzmunda 1.4-1-ci bənd əlavə edilsin:

“1.4-1. Operator bu Əsasnaməyə əsasən ödənişlərin təmin edilməsini qanuna uyğun olaraq lisenziya almış ödəniş xidməti təchizatçıları vasitəsilə həyata keçirir.”;

3.3.3. 3.8-ci bənddə “və avtomatik rejimdə fəaliyyət göstərən proqram-aparat kompleksidir” sözləri “ödəniş terminalıdır” sözləri ilə əvəz edilsin;

3.3.4. 7.18-ci bəndin ikinci cümləsində “banklar” sözü “ödəniş xidməti təchizatçıları” sözləri ilə əvəz edilsin;

3.3.5. 7.18-1-ci bənddə “bank və ya poçt” sözləri “ödəniş xidməti təchizatçısı” sözləri ilə əvəz edilsin.

**4** “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 16 iyul tarixli 147 nömrəli, 23 iyul tarixli 153 nömrəli, 24 iyul tarixli 155 nömrəli və 156 nömrəli fərmanları) 4.14-cü, 4.14-1-ci, 4.16-cı və 4.20-3-cü bəndlərinə “ASAN ödəniş” sözlərindən sonra “informasiya” sözü əlavə edilsin.

**5** “ASAN Kommunal” mərkəzlərinin yaradılması ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 may tarixli 890 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 5, maddə 851 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.8-ci bənddə “sistemi” sözü “informasiya sistemi üzərindən ödəniş xidməti təchizatçıları” sözləri ilə əvəz edilsin;

5.2. 3.3-cü bəndə “ASAN ödəniş” sözlərindən sonra “informasiya” sözü əlavə edilsin.

**6** “Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və “ASAN Viza” sisteminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 923 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1019 (Cild I) 2.6-cı bəndinə “ASAN ödəniş” sözlərindən sonra “informasiya” sözü əlavə edilsin.

**7** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 oktyabr tarixli 1082 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1641 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 22 iyul tarixli 152 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “ASAN Viza” sistemi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

7.1. 6.1-ci bəndin birinci abzasının birinci cümləsinə “ASAN ödəniş” sözlərindən sonra “informasiya” sözü əlavə edilsin;

7.2. 6.1.3-cü yarımbənddə “sistemi” sözü “informasiya sistemindən” sözləri ilə, “məlumatları (ödəmə tarixi, vaxtı və əməliyyat nömrəsi) təqdim edir” sözləri “məlumatlar (ödəmə tarixi, vaxtı və əməliyyat nömrəsi) ötürülür” sözləri ilə əvəz edilsin.

**8** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 yanvar tarixli 1205 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 52 (Cild I) ilə təsdiq edilmiş “Lisenziyalar və icazələr” portalı haqqında Əsasnamə”nin 5.11-ci bəndində və 8.0.4-cü yarımbəndində “sistemi” sözü “informasiya sistemi üzərindən ödəniş xidməti təchizatçıları” sözləri ilə əvəz edilsin.

**9** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1645 (Cild I) ilə təsdiq edilmiş “www.azexport.az” internet portalı haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

9.1. 4.2.8-ci yarımbəndin birinci abzasına “ASAN ödəniş” sözlərindən sonra “informasiya” sözü əlavə edilsin;

9.2. 6.0.6-cı yarımbənddə “sistemi” sözü “informasiya sistemi üzərindən ödəniş xidməti təchizatçıları” sözləri ilə əvəz edilsin.

**10.** “Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza verilməsi prosedurunun təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 yanvar tarixli 1803 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 59 (Cild I) 2-ci hissəsində “sistemi” sözü “informasiya sistemi üzərindən ödəniş xidməti təchizatçıları” sözləri ilə əvəz edilsin.

**11.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1940 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli və 25 iyun tarixli 113 nömrəli fərmanları) ilə təsdiq edilmiş “Elektron kənd təsərrüfatı” informasiya sistemi haqqında Əsasnamə”nin 4.5-ci bəndinə “ASAN ödəniş” sözlərindən sonra “informasiya” sözü əlavə edilsin.

**12.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 685 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Elektron məhkəmə” informasiya sistemi haqqında Əsasnamə”nin 13.4-cü bəndində birinci halda “və digər” sözləri “informasiya sistemi üzərindən ödəniş xidməti təchizatçıları və” sözləri ilə, ikinci halda “və digər” sözləri “informasiya sisteminə və” sözləri ilə əvəz edilsin.

**13.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 3 mart tarixli 1621 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 209 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Elektron prokurorluq” informasiya sistemi haqqında Əsasnamə”nin 13.4-cü bəndində birinci halda “və digər” sözləri “informasiya sistemi üzərindən ödəniş xidməti təchizatçıları və” sözləri ilə, ikinci halda “və digər” sözləri “informasiya sisteminə və” sözləri ilə əvəz edilsin.

**14.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 sentyabr tarixli 1845 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1034 (Cild I), № 2, maddələr 147, 158; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli, 24 iyul tarixli 155 nömrəli və 156 nömrəli fərmanları) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi haqqında Əsasnamə”nin 6.1.15-ci (hər iki halda) və 7.4.5-ci yarımbəndlərinə “ASAN ödəniş” sözlərindən sonra “informasiya” sözü əlavə edilsin.

**15.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 26 sentyabr tarixli 1846 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1035 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Media Reyestrinin aparılması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

15.1. 4.2.9-cu yarımbəndə “ASAN ödəniş” sözlərindən sonra “informasiya” sözü əlavə edilsin;

15.2. 12.7-ci bənddə “sistemi” sözü “informasiya sistemi üzərindən ödəniş xidməti təchizatçıları” sözləri ilə əvəz edilsin.

**16.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1466 (Cild I) ilə təsdiq edilmiş “AYNA” informasiya sistemi haqqında Əsasnamə”nin 9.5-ci bəndində birinci halda “və digər” sözləri “informasiya sistemi üzərindən ödəniş xidməti təchizatçıları və” sözləri ilə, ikinci halda “və digər” sözləri “informasiya sisteminə və” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 2 avqust 2024-cü il**

# “Turizm və rekreasiya zonalarının Nümunəvi Əsasnaməsi”nin təsdiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Turizm haqqında” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 448-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 fevral tarixli 1601 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1** “Turizm və rekreasiya zonalarının Nümunəvi Əsasnaməsi” (bundan sonra – Nümunəvi Əsasnamə) təsdiq edilsin (əlavə olunur).

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Nümunəvi Əsasnamənin 12.1-ci bəndinə uyğun olaraq turizm mərkəzlərində dövlətə məxsus daşınmaz əmlakın icarəyə və istifadəyə verilməsi və investisiya layihələrinin icra edilməsi qaydalarını altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3** Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi:

3.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Nümunəvi Əsasnamənin 5.2-ci, 5.4-cü bəndlərində, 7.2.5-ci və 7.2.6-cı yarımbəndlərində, eləcə də 10.2-ci, 12.3-cü və 12.10-cu bəndlərində nəzərdə tutulmuş normativ hüquqi aktları altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**4** “İcarəyə verilmiş dövlət əmlakından səmərəli istifadə olunması tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 6 sentyabr tarixli 629 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 236 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 12 iyun tarixli 99 nömrəli Fərmanı) 1-ci hissəsinin birinci abzasının birinci cümləsinə “aqroparklar” sözündən sonra “, həmçinin turizm və rekreasiya zonalarının sərhədləri daxilindəki turizm mərkəzləri” sözləri əlavə edilsin.

**5** “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 116 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 168 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 12 iyun tarixli 99 nömrəli Fərmanı) 2.4-cü bəndinə “aqroparklar” sözündən sonra “, habelə turizm və rekreasiya zonalarının sərhədləri daxilindəki turizm mərkəzləri” sözləri əlavə edilsin.

**6** “Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 291 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 158 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 12 iyun tarixli 99 nömrəli Fərmanı) 1-ci hissəsinin dördüncü, on üçüncü və on beşinci abzaslarına “aqroparklar” sözündən sonra “, habelə turizm və rekreasiya zonalarının sərhədləri daxilindəki turizm mərkəzləri” sözləri əlavə edilsin.

**7** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 972 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 577 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 30 may tarixli 77 nömrəli və 12 iyun tarixli 99 nömrəli fərmanları) ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların mülkiyyətə və ya icarəyə verilməsi ilə bağlı torpaq müsabiqələrinin və hərraclarının keçirilməsi Qaydaları”nın 1-ci hissəsinə “aqroparklar” sözündən sonra “, habelə turizm və rekreasiya zonalarının sərhədləri daxilindəki turizm mərkəzləri” sözləri əlavə edilsin.

**8** “Turizm və rekreasiya zonaları haqqında nümunəvi Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 20 iyun tarixli 773 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 491 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

**9** Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 22 iyun tarixli 284 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 499 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 12 iyun tarixli 99 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Daşınmaz dövlət əmlakı obyektlərinin müsabiqə əsasında icarəyə verilməsi Qaydaları”nın 1.1-ci bəndinə “aqroparklar” sözündən sonra “, habelə turizm və rekreasiya zonalarının sərhədləri daxilindəki turizm mərkəzləri” sözləri əlavə edilsin.

**10** “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 847 (Cild I) 4.7-1.2-ci yarımbəndinə “ərazilərində” sözündən sonra “və turizm və rekreasiya zonalarının sərhədləri daxilindəki turizm mərkəzlərində” sözləri əlavə edilsin.

**11.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli 745 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 67 (Cild I) ilə təsdiq edilmiş “İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası”nın 5-1-ci hissəsindən “turizm və rekreasiya zonalarının baş inkişaf planlarına,” sözləri çıxarılsın və həmin hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Həmin iqtisadi fəaliyyət turizm və rekreasiya zonalarının sərhədləri daxilindəki turizm mərkəzlərində həyata keçirildiyi halda, belə rəyin alınması tələb olunmur.”.

**12** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1841 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi haqqında Əsasnamə”nin 1.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“1.1. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi (bundan sonra – Agentlik) turizm, o cümlədən turizm və rekreasiya zonalarının fəaliyyəti və tabeliyindəki dövlət qoruqlarının (bundan sonra – Qoruqlar) ərazilərində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması sahələrində (bundan sonra – müvafiq sahə) dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.”.

**13** . Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 542 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 30 may tarixli 77 nömrəli, 12 iyun tarixli 99 nömrəli, 16 iyul tarixli 147 nömrəli fərmanları) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi”nin 3.0.48-ci yarımbəndinə “aqroparklar” sözündən sonra “, habelə turizm və rekreasiya zonalarının sərhədləri daxilindəki turizm mərkəzləri” sözləri əlavə edilsin.

**14** “Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 9, maddə 1492 (Cild I) 4.6-cı bəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 2 avqust 2024-cü il**

# Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin tabeliyində Turizm və Rekreasiya Zonalarının İdarə Edilməsi və İnkişafı Mərkəzinin yaradılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, turizm və rekreasiya zonaları sahəsində idarəetməni təkmilləşdirmək məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin (bundan sonra – Agentlik) tabeliyində “Turizm və Rekreasiya Zonalarının İdarə Edilməsi və İnkişafı Mərkəzi” publik hüquqi şəxs (bundan sonra – Mərkəz) yaradılsın.

**2** Müəyyən edilsin ki:

2.1. Mərkəz Azərbaycan Respublikasında turizm və rekreasiya zonalarının fəaliyyətinin təşkilini, onların idarə olunmasını və inkişaf etdirilməsini həyata keçirən publik hüquqi şəxsdir;

2.2. Mərkəzin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr və onun iki müavini daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

2.3. Mərkəzin fəaliyyətinə cari rəhbərliyi icraçı direktor həyata keçirir;

2.4. Mərkəzin saxlanılması və fəaliyyətinin təmin edilməsi onun fəaliyyətindən əldə edilən gəlir, ianələr, qrantlar və qanunla qadağan edilməyən digər mənbələr hesabına həyata keçirilir.

**3** Mərkəzin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. Mərkəzin idarəetmə orqanlarının yaradılması;

3.1.2. Mərkəzin yenidən təşkili və ləğvi;

3.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

3.2.1. Mərkəzin nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi;

3.3. Agentliyə:

3.3.1. bu Fərmanın 3.1-ci və 3.2-ci bəndlərində qeyd edilənlər istisna olmaqla, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Mərkəzin nizamnaməsini iki ay müddətində təsdiq etsin;

4.2. Mərkəzin fəaliyyətinin təşkili üçün maddi-texniki təminat məsələlərinin həlli ilə bağlı üç ay müddətində zəruri tədbirlər görsün;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5** Agentlik:

5.1. Mərkəzin dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

5.2. Mərkəz dövlət qeydiyyatına alındıqdan sonra onun strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və əməkhaqlarının (vəzifə maaşı, vəzifə maaşına əlavələr, mükafatlar və digər ödənişlərin) məbləğini bir ay müddətində təsdiq etsin;

5.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 2 avqust 2024-cü il**

# Azərbaycan Respublikası Prezidentinin “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”ın təsdiq edilməsi haqqında” 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli və “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini (xidməti vəzifələrini) yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət (yaralanma, travma, kontuziya) alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının, habelə onların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında” 2021-ci il 23 dekabr tarixli 1513 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin və “Azərsığorta” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 iyul tarixli 1751 nömrəli Fərmanının ləğv edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 31 yanvar tarixli 2459 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 486 (Cild I); 2024, № 5 (I kitab), maddə 516) ilə təsdiq edilmiş “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”ın 39-cu bəndində “Sığorta Kommersiya Şirkətinin” sözləri “Turizm Agentliyinin” sözləri ilə əvəz edilsin.

**2** “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini (xidməti vəzifələrini) yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət (yaralanma, travma, kontuziya) alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının, habelə onların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli 1513 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1378 (Cild I) 3-cü hissəsindən “Azərsığorta” Açıq Səhmdar Cəmiyyətinin sədri” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 2 avqust 2024-cü il**

# Okampolar erası bitib

## İndi Azərbaycanı sabiq haypərəstlərin faydasız fəaliyyəti deyil, qlobal məsələlər düşündürür

**Belə məlum olur ki, Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş və reputasiyası ləkələnmiş prokuroru Luis Moreno Okampo pensiyaya göndəriləndən sonra erməni diasporunun ianələri hesabına yaşamaqda davam edir. Dünənə qədər "Dağlıq Qarabağ ermənilərinin hüquqlarının fəal müdafiəçisi", beynəlxalq ekspert qismində çıxış edən, "fırıldaqçı biznesmen" kimi də ad çıxarmış Okampo Azərbaycana qarşı növbəti hay kampaniyasına rəhbərlik edir. Xatırladaq ki, onun Qarabağda "humanitar fəlakət"lə bağlı avantürist açıqlaması hətta Qərb mediası tərəfindən təkzib olunmuşdu. Okampo iki-üç il bundan əvvəl Beynəlxalq Cinayət Məhkəməsinin ona kəsdiyi pensiyanın azlığından şikayətlənmiş, "özəl xidmətlər" göstərmək məcburiyyətində qaldığını demişdi.**

Xaricdəki erməni lobbisi və onların yemlədiyi anti-Azərbaycan qüvvələr rahat dura bilmirlər. Avropa İttifaqında Ermənistanla vizasız gediş-gəliş rejiminin tətbiqi barədə müzakirələrin ardınca növbəti qərəzli və çirkin bir kampaniyaya start verilib. Erməni lobbisindən yemlənən şəxslər yenə öndədir. Ölkəmizə qarşı qərəzli və çirkin kampaniyada liderlik edən Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Moreno Okampo yenidən fəallaşıb. O, aldığı rüşvət müqabilində dünya ermənilərinə Azərbaycanda keçiriləcək COP29-a qarşı kampaniyaya başlamağa çağırış edib.

* * *

Beləliklə, beynəlxalq anti-Azərbaycan şəbəkə ölkəmizə qarşı növbəti ideoloji hücuma başlayıb. Amma bu dəfə işlər rəsmi İrəvanın birbaşa iştirakı olmadan "düzülüb-qoşulub". "Artsax"ın keçmiş dövlət naziri Artak Beqlaryan Okamponun ermənilərə ünvanladığı məktubu dərc edib. Məktubda deyilir ki, Azərbaycanda keçirilməsi planlaşdırılan COP29-dan yararlanmaq üçün əlimizə görünməmiş bir fürsət keçib.

İftira və qərəzlə dolu bu məktub, bundan əvvəl isə Qərbin Ermənistanla viza rejiminin liberallaşdırılması barədə dialoqa başlanılması barədə açıqlamaları ikili standartların bariz nümunəsi sayılmalıdır. Luis Okampo artıq neçənci dəfədir ki, oxşar təşəbbüslə çıxış edir. Fəqət onun səyləri nəticəsiz qalıb. Onun çağırışlarına nə Ermənistan rəhbərliyi, nə də beynəlxalq güclər reaksiya verirlər.

Məktubda daha sonra yazılıb: "Erməni əsirlər və digər siyasi məhbuslar azad olunmayınca Azərbaycanın COP29-a qədər sülh sazişini imzalamaq təklifi mənasızdır. Mən riyakarlığı rədd edən və həqiqətən, dinc COP29 tələb edən vətəndaş hərəkatı ideyasını dəstəkləyirəm. İlk addımımız COP29 "Stop Greenwash Genocide" heşteqi ilə media kampaniyasına başlamaqdır. Bu heşteqlərlə məqalələr sosial mediada yayılaraq hamının diqqətini cəlb edəcək. Bu səylər COP29-da iştirak edəcək jurnalistləri, nümayəndə heyətlərini və QHT nümayəndələrini erməni dustaqlar, siyasi məhbuslarla bağlı Azərbaycandan cavab istəməyə məcbur edəcək".

Bədnam keçmişi olan Luis Moreno Okampo dəfələrlə korrupsiyada, hətta cinsi təcavüzdə ittiham olunub. Pensiyaya çıxmış keçmiş prokurorun hazırda hayların dezin-



formasiya fəaliyyətinin önündə yer alması təəccüblü deyil. Yuxarıda yazdığımız kimi, vaxtilə "dqr" lideri Araik Arutyunyan məhz Okampodan Qarabağdakı vəziyyətə münasibət bildirməyi xahiş etmişdi. Beynəlxalq "statuslu" prokuror tapşırığı can-başla yerinə yetirib, bölgədəki real deyil, psevdovəziyyət barədə qərəzli hesabat hazırlamışdı. Keçmiş prokurorun Qarabağda "humanitar fəlakət" yaşanması ilə bağlı yersiz iddiası, hətta, Qərb mediası tərəfindən təkzib olunmuşdu. Okamponun fırıldağını ilk anlayan və onun məqaləsinə cavab verənlərdən biri beynəlxalq hüquq üzrə ekspert Rodni Diksondur.

* * *

Oxucuların nəzərinə onu da çatdıraq ki, bu dələduz eks-prokuror işğaldan azad etdiyimiz Qarabağda "etnik təmizləməyə" yol verildiyi barədə fərziyyə irəli sürmüşdü. Rüşvətxor Okamponun adı MDB məkanında bir çox qalmaqallı məhkəmə proseslərində də hallanıb. Əlbəttə, muzdlu vəkil kimi. Məsələn, o, "Centros Commerciales Antei" şirkəti vasitəsilə çirkli pulların yuyulmasında ittiham olunan Vladislav Rezniki uzun müddət müdafiə edib.

Mövzuya dolayısı ilə dəxli olan bir məqamı da qeyd etməyimiz yerinə düşər. Bəzən xaricdəki erməni lobbisi ilə İrəvan hakimiyyəti arasında onlara qulluq göstərən muzdlu "züytutanların" siyahısı ilə bağlı fikir ayrılıqları müşahidə olunub. Aydın məsələdir ki, "böyük güc"ün mənafeyinə oynayan lobbi hər vəchlə Azərbaycanla sülh sazişinin imzalanmasına qarşı çıxır, daxildəki separatçı-revanşist qüvvələri dəstəkləyir. Sərhədin delimitasiyası barədə Ermənistanla Azərbaycan arasında əldə olunan son razılaşmalara qarşı çıxan lobbinin bugünədək həmin müqaviləyə reaksiya bildirməməsi də bundan xəbər verir. İki ölkə arasında münasibətlərin gərginləşməsi, şərti sərhəddə baş verən insidentlər də İrəvan iqtidarına kənardan edilən təzyiqlərin təzahürləridir. Biz xaricdəki həmin qaragüruhun Birinci və İkinci Qarabağ müharibələri zamanı bölgəyə muzdlu terrorçuların göndərilməsi, onlar üçün maliyyə vəsaitinin toplanması, "xeyriyyə kampaniyaları" adı altında marafonlar keçirilməsini unutmamışıq. Həmin kampaniyalar yerlərdəki təşkilatçılara milyardlarla dollar gəlir gətirsə də, Qarabağ ermənilərinin darvazasına gəlib çatmayıb. Daha zaman və reallıq dəyişib. İrəvanın Bakı ilə vasitəçilərsiz, birbaşa sülh dialoquna getməsi erməni lobbisinin Qarabağla bağlı planlarının üstündən qara xətt çəkib.

### Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

– Okampo, deyəsən, ağlını tamam itirib. Ələyi ələnib, xəlbiri göydə fırlanan bu keçmiş qoca prokurorun nə bir vəzifəsi var, nə də sözünün çəkisi qalıb. Adına prokuror, hüquqşünas deyilən, Beynəlxalq Ədalət Məhkəməsinin keçmiş əməkdaşı anlamır ki, COP29 təkcə Azərbaycanın keçirdiyi tədbir deyil. Bu, BMT-nin qlobal ekoloji problemlərə həsr olunmuş beynəlxalq miqyaslı bir tədbiridir. Həm də dünyanın bütün dövlətlərinin mənafeyinin ifadə olunduğu ən nüfuzlu tədbirlərindən biridir. Erməni diasporun pulları ilə hərəkətə gətirilən Okampo haylara ünvanladığı feyk-müraciəti ilə, faktiki olaraq, BMT-ni boykot etməyə çağırır.

Onun bundan əvvəl də ermənilərin maraqlarına xidmət edən hesabatları, ekspert rəyləri olub. Hətta separatçı "Dağlıq Qarabağ Respublikasının" rəhbərliyinin sorğusu, Kaliforniya ermənilərinin maliyyə dəstəyi müqabilində Azərbaycanın bölgədə, guya, humanitar böhran yaratdığına, etnik ermənilərin insan hüquqlarını pozduğuna dair bədnam ekspert rəyi də hazırlamışdı. Nəticəsi nə oldu? İndi də Azərbaycana qarşı anti-COP kampaniyasına başlayıb. Boş və səmərəsiz bir fəaliyyətlə məşğuldur. Amma, yəqin ki, bu "xidmətinə" görə haylardan yaxşı pul qoparacaq...

Bu məqamda törətdikləri cinayətlərə görə həbs olunan və barələrində məhkəmə qərarlarını gözləyən terrorçuların azad olunması barədə çağırışlar ölkəmizə qarşı növbəti, amma heç bir fayda verməyəcək təzyiq kampaniyasıdır.

* * *

Okamponun haylara məktub-müraciətindən daha bir sitat: "Sizin təkcə xalqınızın və ölkənizin deyil, həm də ədalətin və ətraf mühitin daha geniş şəkildə qorunmasında müstəsna rolunuz var. Siz iki aktual problemi həll etmək üçün qlobal hərəkata rəhbərlik edə bilərsiniz: iqlim dəyişikliyi və soyqırımı".

Hüquqi taftologiya və diplomatik nonsens adlandırılmağa layiq bu sifarişli məktubun müəllifinin beş il bundan əvvəl çirkli maliyyə əməliyyatlarını gizlətmək və vergilərdən yayınmaq üçün məkan olaraq Panama, Beliz və Britaniya Virciniya adalarını seçməsi heç də təsadüfi deyildi. Bunu hamıdan yaxşı Okampo bilirdi. Axı, o, bir vaxtlar "Transparency International" təşkilatının Latın Amerikası və Karib hövzəsi üzrə prezidenti vəzifəsində çalışıb.

Bu, peşəkar fırıldaqçı Luis Okamponun səlahiyyət müddətində ofşor şirkətlərlə əlaqədə olmasını sübuta yetirən çoxsaylı faktlardan biridir. Üzə çıxarılmış sənədlərə görə, keçmiş prokuror və onun həyat yoldaşı BVF-da qeydiyyatdan keçmiş "Yemana Trading" şirkətinin səhmdarları olublar. O zaman şirkəti ofşor biznesləri "Panama sənədləri" ilə ifşa olunmuş "Mossack Fonseca" hüquq firması idarə edirdi. İdarəçilərdən biri də erməni əsilli amerikalı imiş.

İnsan hüquqlarından, dəyərlərdən dəm vuran və bizim dabbaqda gönlərinə bələd olduğumuz həmin separatçı-revanşist qüvvələr, onların arxasında duran dairələr əvvəlcə Ermənistan hakimiyyətindən 30 il ərzində Azərbaycan ərazilərini nə üçün işğal altında saxladıqlarının səbəbini soruşsunlar. Sonra da, haqqında bar-bar bağırdıqları insan haqları, etnik təmizləmə, işğaldakı torpaqlarımıza vurduqları ziyana görə Ermənistandan üzr istəməyini tələb etsinlər. Əgər beynəlxalq ədalət varsa, onda Birinci Qarabağ savaşında əsir götürülmüş 4000-ə qədər soydaşımızın bugünədək naməlum qalmış taleyini müəyyənləşdirsinlər. Mülki azərbaycanlılara qarşı faşistlərin belə özlərinə rəva bilmədiyi davranışlara yol verən erməni cəlladlarının üzə çıxarılıb cəzalandırılmalarını təmin etsinlər. Bunu hamıdan əvvəl erməni cəmiyyəti öz hakimiyyətindən tələb etməlidir.

Əgər bunları etmək istəmirlərsə, "Bakıda saxlanılan ermənilərin azad edilməsi" çağırışlarını da unutsunlar. Üç aydan sonra BMT-nin COP29 kimi mötəbər tədbirinə evsahibliyi edəcək Azərbaycan indi daha ciddi məsələlərlə məşğuldur.

*İmran BƏDİRXANLI*
*XQ*

---

# Siranuşun ağ yalanı

## Hərbi caniləri "əsir" adlandıran hüquq müdafiəçisinə zəruri xatırlatma



**Azərbaycan 2020-ci ildə Vətən müharibəsi apararaq 30 ilə yaxın erməni işğalında qalan əzəli torpaqlarını azad etdi. 2023-cü ilin sentyabrında baş tutan bir günlük lokal xarakterli antiterror tədbirləri isə Qarabağ iqtisadi rayonunun bütün ərazisi üzərində suverenliyimizin tam bərpası ilə nəticələndi. Bu iki hadisə, yəni Vətən müharibəsi və antiterror tədbirləri təkcə torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün və dövlət suverenliyimizin təmin edilməsi ilə əlamətdar olmadı, həm də uzun illər narahat dolaşan şəhid ruhlarının rahatlıq tapması ilə nəticələndi.**

Prezident İlham Əliyevin hələ 2021-ci il fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında dediyi kimi, biz qisasımızı, o cümlədən Xocalı soyqırımı qurbanlarının qisasını döyüş meydanında aldıq. Dövlətimizin başçısı Xocalı soyqırımını törədənlərin bəzilərinin Vətən müharibəsində məhv edildiyini də bildirdi.

Bu hadisələr döyüş əməliyyatlarının planlaşdırılmasına, həyata keçirilməsinə, bizim üçün əlverişsiz relyefdə düşmənə sarsıdıcı zərbələr endirilməsinin baş tutmasına və bütövlükdə, qarşıya qoyulan hədəflərə operativ qaydada çatılmasına görə dünya hərb tarixinə düşdü. Eyni zamanda, məlum hadisələr beynəlxalq humanitar hüquqa uyğunluğuna görə, yaddaşlara əbədi yazıldı. Ordumuz ali komandanlıqdan aldığı əmrə uyğun olaraq heç bir mülki obyekti hədəfə çevirmədi. Döyüş əməliyyatları elə hazırlanıb keçirildi ki, ərazidə yaşayan erməni əsilli vətəndaşlar arasında itkilər minimum olsun. Buna da nail olundu. Döyüşlər zamanı məhv edilənlər yalnız ölkəmizə qarşı silah qaldıranlar oldu. Könüllü şəkildə təslim olanlara, "ağ bayraq" qaldıranlara mərhəmətlə yanaşıldı. Bu, bir həqiqətdir ki, ölkəmiz 1949-cu il 12 avqust tarixli "Döyüşən silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında", habelə "Hərbi əsirlərlə rəftar haqqında", "Müharibə zamanı mülki əhalinin qorunması haqqında" Cenevrə konvensiyalarının tələblərinə tam əməl etdi. Azərbaycan tərəfi müharibədən dərhal sonra aparılan danışıqlarla saxlanılmış bütün erməni hərbi əsirləri qarşı tərəfə qaytardı.

Buna baxmayaraq, Ermənistan tərəfi Azərbaycanda hansısa hərbi əsirlərin olmasından vaxtaşırı dəm vurur. Doğrudur, rəsmi şəxslərin dilindən bununla bağlı hər hansı fikirlər səsləndirilmir. Lakin qeyri-hökumət təşkilatlarının rəhbərləri, partiya sədrləri, deputatlar, müstəqil siyasətçilər zaman-zaman "hərbi əsirlər" məsələsini gündəmə gətirirlər. Hayastanın media subyektləri də bu mövzunu gündəmdən düşməyə qoymurlar. Belə şəxslərdən biri "Beynəlxalq və Müqayisəli Hüquq Mərkəzi" adlı qeyri-hökumət təşkilatının rəhbəri Siranuş Saakyandır. O, bugünlərdə İrəvanda keçirlən müzakirələr zamanı bildirib ki, indiyədək 210-a yaxın erməni əsir qaytarılıb, 23 nəfər isə hələ də "əsirlikdədir", onlardan beş nəfəri 2020-ci il müharibəsi zamanı əsir götürülüb. Saakyanın iddiasına görə, 23 nəfərin 16-sı (?) 2023-cü ilin sentyabrında saxlanlılıb ki, onların da 8-i "Artsax"ın hərbi-siyasi rəhbərliyidir. Guya, onlar ifadə etdikləri fikirlərə və "Artsax"ın öz müqəddəratını təyinetmə hüququnu həyata keçirdiklərinə görə siyasi sifarişlə həbs ediliblər. "Məhbusların problemi bununla məhdudlaşmır. Əsir düşənlər var, lakin Azərbaycan onların əsir götürülməsi faktını inkar edir" – deyən hüquq müdafiəçisi hay xislətinə sadiq qalaraq ağ yalan danışmağı özünə rəva görüb.

Əslində isə hazırda ölkəmizdə erməni millətindən olan heç bir hərbi əsir yoxdur! Bu gün Azərbaycanda Qarabağ iqtisadi rayonunun müxtəlif yaşayış məntəqələrində yerli azərbaycanlı əhaliyə qarşı sülh və insanlıq əleyhinə (soyqırımı, deportasiya, işgəncə vermə, müharibə qanunlarını pozma və digər maddələrlə) cinayətlər törətdiyi məhkəmələr tərəfindən sübuta yetirilmiş bir neçə erməni əsilli şəxs var. Bunlar Arsen Baqdasaryan, Karen Qazaryan, Alyoşa Xosrovyan, Lüdvik Mkrtıçyan, Vaqif Xaçatryan və Raşid Beqlaryandır. Adları çəkilən şəxslər barəsində hökm çıxarılıb və onlar cəzaçəkmə müəssisələrində cəzalarını çəkməkdədirlər.

Separatçı rejimin "qlavarları" – 2023-cü il sentyabrın 27-də saxlanılmış Ruben Vardanyan və Davit Manukyan, sentyabrın 29-da saxlanılmış Davit Babayan və Lyova Mnasakanyan, oktyabrın 3-də saxlanılmış Arkadi Qukasyan, Bako Saakyan, Arayik Arutyunyan və Davit İşxanyan üzərində isə hələ məhkəmə prosesi başlamayıb. Ancaq, baş prokuror Kamran Əliyev iyunun 24-də bildirmişdi ki, keçmiş qondarma qurumun separatçı rəhbərlərinin barəsində olan cinayət işləri yaxın vaxtlarda məhkəməyə göndəriləcək. Baş prokuror onu da qeyd etmişdi ki, ölkədaxili qanunlar və beynəlxalq konvensiyaların tələblərinə uyğun bütün hüquqları təmin olunub, onlara vəkil və tərcüməçilər ayrılıb. Hazırda təqsirləndirilən şəxslər, vəkillər və zərərçəkmişlər cinayət işinin materialları ilə tanış olurlar. Bu mərhələ də başa çatandan sonra, ittiham aktı məhkəməyə göndəriləcək. Bundan sonra isə həmin şəxslər barəsində məhkəmələr tərəfindən hökm çıxarılacaq.

**Politoloq İlyas Hüseynov "XQ"yə açıqlamasında** bildirdi ki, Ermənistan tərəfi uzun müddətdir müxtəlif səviyyələrdə saxlanılan şəxslərlə bağlı təbliğat kampaniyası aparır. Onun sözlərinə görə, dünya erməniləri, müxtəlif qeyri-hökumət təşkilatları həmin şəxslərin müdafiəsinə qalxıblar: "Onların hərbi cani olmalarına, Azərbaycan xalqına qarşı müxtəlif cinayətlərdə



iştirak etmələrinə, əllərinin xalqımızın qanına batmasına baxmayaraq, belə şəxsləri siyasi məhbus, yaxud siyasi səbəblərdən saxlanılan şəxs kimi təqdim etməklə müəyyən üstünlük qazanmağa çalışırlar. Onlar bunu fərqli şəkildə təqdim etmək istəyirlər. Qeyd edirlər ki, Azərbaycan və Ermənistan arasında normallaşma prosesi gedir, sülh danışıqları aparılır, lakin bu şəxslərin Bakıda saxlanılması, guya, ümumi sülh prosesinə əngəl törədir. Eyni zamanda, bu düşərgəyə mənsub olan şəxslər Azərbaycanı sülhdə maraqlı olmayan tərəf kimi qələmə verməyə çalışırlar. Amma, əslində, mahiyyətə baxdıqda, demək olar ki, həmin şəxslər 30 illik işğal dövründə Azərbaycan xalqına qarşı müxtəlif cinayətlərdə iştirak ediblər. Onlar əsir götürülmüş azərbaycanlılara işgəncələr verib, zorakılıq əməlləri törədiblər. Beynəlxalq hüququn fundamental norma və prinsiplərini pozublar. Cenevrə Konvensiyasının tələblərini, onun əlavə protokollarını pozaraq, çoxsaylı cinayətlərə imza atıblar".

İ.Hüseynov qeyd etdi ki, 44 günlük Vətən müharibəsindən sonra həmin şəxslər ədalət və hüquq qarşısında cavab verirlər. Hazırda onların bəzilərinə hökm oxunub. Bəziləri isə məhkəmə prosesini və ədalət mühakiməsinin barələrində çıxaracağı hökmü gözləyir. Azərbaycan tərəfi dəfələrlə Beynəlxalq Qırmızı Xaç Komitəsinin əməkdaşlarının onlara baş çəkməsini təmin edib. Görüşlər baş tutub, onlar ailə üzvləri ilə əlaqə saxlayıblar. Digər tərəfdən, onların saxlanılma şəraitləri kifayət qədər yaxşıdır. Bununla bağlı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) dəfələrlə açıqlama yayıb. Bütün bunlar göstərir ki, Azərbaycanda həmin şəxslərə münasibət də məhz beynəlxalq hüququn norma və tələbləri çərçivəsindədir.

Bununla belə, onlar törətdikləri əməllərə görə cavab verməlidirlər və bu, Azərbaycan qanunvericiliyinə uyğun həyata keçirilir. Ölkəmizin prokurorluq orqanlarında saxlanılan şəxslərlə bağlı cinayət işləri açılıb. Məhkəmə-prosessual qaydalarına uyğun olaraq bütün fəaliyyətlər icra edilməkdədir.

Müsahibimiz onu da bildirdi ki, Ermənistan tərəfi siyasi baxımdan bu cür cılız addımlarla heç nəyə nail ola bilməyəcəyini, ölkəmizin imicini, nüfuzunu ləkələməyə müyəssər olmayacağını anlamalıdır: "Ermənistanın bu cür müxtəlif hərəkatlar vasitəsilə cinayətkarlara haqq qazandırması dəfələrlə olub. Həmin proses bu gün də davam etdirilir. Digər tərəfdən, ölkəmizdə Qarabağdakı keçmiş separatçı-xunta rejimini təmsil edən şəxslərin, onların "qlavar"larının saxlanılması kifayət qədər obyektiv səbəblərdən baş verib. Məhkəmə prosesi zamanı törətdikləri digər cinayətlər də aşkara çıxacaq. Onlar bütün əməllərinə görə, cavab verəcəklər".

*Səxavət HƏMİD*
*XQ*

**Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# Turizm və rekreasiya zonalarının Nümunəvi Əsasnaməsi

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə “Turizm haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 19.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq hazırlanmışdır və turizm və rekreasiya zonalarının yaradılması, idarə edilməsi, turizm mərkəzlərinin formalaşdırılması, eləcə də turizm mərkəzlərində sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyir.

1.2. Bu Əsasnamədə istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **turizm və rekreasiya zonaları** (bundan sonra – Zona) – xüsusi ekoloji, tarixi və mədəni əhəmiyyət kəsb edən, təbiəti mühafizə, tarixi və mədəni irsi qoruma, turizmin dayanıqlı təşkili və davamlı inkişafı, investisiya qoyuluşunun təşviqi məqsədilə ayrılan, habelə sahibkarlıq subyektlərinin inkişafına kömək edən, sərhədləri dəqiq müəyyən edilmiş turizm əhəmiyyətli ərazilər;

1.2.2. **turizm mərkəzi** – Zonanın sərhədləri daxilində yerləşən, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura malik olan və kompleks turizm xidmətlərinin göstərilməsi üçün istifadə edilən turizm mərkəzinin baş inkişaf planının tətbiq olunduğu ərazi;

1.2.3. **idarəedici təşkilat** – Zonanın fəaliyyətinin təşkilini, idarə olunmasını və inkişaf etdirilməsini həyata keçirən Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin (bundan sonra – səlahiyyətli orqan) tabeliyində fəaliyyət göstərən hüquqi şəxs;

1.2.4. **Zonanın operatoru** (bundan sonra – operator) – müsabiqə əsasında seçilən və idarəedici təşkilatla bağlanılan idarəetmə sazişinə uyğun olaraq Zonanın idarə olunmasını təmin edən hüquqi şəxs;

1.2.5. **Zonanın rezidenti** – turizm mərkəzində torpaq sahəsi icarəyə götürmüş, həmin torpaq sahəsində investisiya qoyuluşu layihəsini icra edən və idarəedici təşkilatla, yaxud Zonanın operatoru ilə bağlanılmış sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair müqavilə əsasında sahibkarlıq fəaliyyəti göstərən hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs;

1.2.6. **Zonanın qeyri-rezidenti** – bu Əsasnamə ilə müəyyən edilmiş qaydada idarəedici təşkilatla və ya Zonanın operatoru ilə bağlanılmış müqavilə əsasında turizm mərkəzində səlahiyyətli orqanın müəyyən etdiyi sahibkarlıq fəaliyyəti növlərini həyata keçirən hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs;

1.2.7. **turizm mərkəzinin infrastrukturu** – sosial, mədəni, inzibati, mühəndis-kommunikasiya təminatı sistemi (qaz, istilik, rabitə, elektrik, su, kanalizasiya təminatı və tullantı sularının axıdılması vasitələri və qurğuları), dövlət mülkiyyətində olan avtomobil yolları və yol-nəqliyyat infrastrukturu, həmçinin turizm mərkəzinin fəaliyyət göstərməsini təmin edən digər obyektlər kompleksi;

1.2.8. **turizm mərkəzinin ümumi istifadədə olan əraziləri** – turizm mərkəzinin sərhədləri daxilində mərkəzin infrastrukturunun, küçələrin, meydanların, dayanacaqların və yaşıllıqların yerləşdiyi, habelə ümumi istifadə üçün nəzərdə tutulan digər ərazilər;

1.2.9. **Zonanın inkişaf konsepsiyası** – Zonanın uzunmüddətli inkişaf istiqamətlərini, ərazinin sosial, iqtisadi və ekoloji şəraitinin təhlilini, yaradılması planlaşdırılan mərkəzlər barədə ilkin məlumatları, Zonada inkişafı mümkün olan turizm növlərini özündə ehtiva edən sənəd;

1.2.10. **turizm mərkəzinin baş inkişaf planı** – ərazinin mövcud potensialına uyğun olaraq, turizm mərkəzinin planlı inkişafı məqsədilə tikililərin və qurğuların inşasını, yerləşdirilməsini, avtomobil və digər bərk örtüklü yolların çəkilməsini, turizm mərkəzində əsaslı dəyişikliklərə səbəb ola bilən digər mühüm işlərin görülməsini nəzərdə tutan səlahiyyətli orqan tərəfindən təsdiq olunan sənəd.

1.3. Bu Əsasnamədə istifadə olunan digər anlayışlar Qanunla və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

1.4. Zona bir və ya bir neçə turizm forma və növü üzrə ixtisaslaşa bilər.

**2. Zonanın yaradılmasının məqsədləri**

2.1. Zonanın yaradılmasının məqsədləri aşağıdakılardır:

2.1.1. turizm ehtiyatlarının qorunub saxlanılması və onlardan səmərəli istifadənin təmin edilməsi;

2.1.2. turizmin dayanıqlı təşkili və davamlı inkişafının təmin edilməsi vasitəsilə regionlarda sosial-iqtisadi inkişafa və milli-mədəni irsin qorunub saxlanılmasına nail olunması;

2.1.3. ətraf mühitin qorunması və ekoloji tarazlığın saxlanmasına şərait yaradan müxtəlif turizm forma və növlərinin yaradılması və təbliği;

2.1.4. turizm sahəsində yerli və xarici investisiyalar üçün əlverişli mühit yaradılması və sahibkarlığın dəstəklənməsi;

2.1.5. turizm infrastrukturunun inkişaf etdirilməsi və keyfiyyətli turizm xidmətləri göstərilməsinin təmin edilməsi;

2.1.6. əməkqabiliyyətli əhalinin turizm sahəsində məşğulluğunun artırılması.

**3. Zonanın yaradılması**

3.1. Zonanın yaradılması haqqında qərar səlahiyyətli orqanın təklifi əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul edilir. Zonaya məqsədli təyinatından və hüquqi rejimindən asılı olmayaraq dövlət torpaqları, habelə torpaq sahələri üzərində mövcud olan müvafiq hüquqlara xitam verilmədən bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan torpaq sahələri daxil edilə bilər.

3.2. Zonanın yaradılması haqqında qərarda onun yaradılmasının məqsədi, mərkəzlərin ixtisaslaşma istiqamətindən asılı olaraq turizmin forma və növləri, maliyyələşmə mənbələri, ərazisi, idarə olunması və fəaliyyətinin təşkili ilə bağlı digər məsələlər müəyyən edilir.

3.3. Səlahiyyətli orqanın Zonanın yaradılması haqqında təklifinə aşağıdakı sənədlər əlavə edilir:

3.3.1. Zonanın inkişaf konsepsiyası;

3.3.2. Zonanın yaradılmasının iqtisadi əsaslandırılması (perspektiv inkişaf istiqamətləri göstərilməklə);

3.3.3. Zonanın və turizm mərkəzinin ərazi sərhədlərinin dəqiq təsviri və ərazinin planı, turizm mərkəzində yerləşən torpaqların tərkibi haqqında məlumat, torpaq sahələri mülkiyyətçilərinin və istifadəçilərinin siyahısı, torpaqların əşyaların və (və ya) hüquqların yüklülüyündən azad olması barədə tələb edilən xərc məbləğinə dair məlumat, həmçinin tərtib edilmiş yerquruluşu xəritələri;

3.3.4. Zonanın əsasnaməsinin layihəsi;

3.3.5. Zonanın yaradılması ilə əlaqədar tədbirlər planı.

3.4. Zonanın yaradılması ilə bağlı təklifin hazırlanması məqsədilə bu Əsasnamənin 3.3.3-cü yarımbəndində nəzərdə tutulan sənədlərin (məlumatların) Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadıqda, məlumatlar (sənədlər) səlahiyyətli orqanın müraciəti əsasında “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə uyğun olaraq təmin edilir.

3.5. Zonanın və turizm mərkəzinin sərhədləri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

**4. Turizm mərkəzi**

4.1. Azərbaycan Respublikasının Prezidenti tərəfindən Zonada bir və ya bir neçə turizm mərkəzi müəyyən edilə bilər.

4.2. Turizm mərkəzi üçün ayrılan torpaq aşağıdakı tələblərə cavab verməlidir:

4.2.1. məqsədli təyinatına və hüquqi rejiminə görə yaşayış məntəqələrinin torpaqları, xüsusi qorunan ərazilərin torpaqları, meşə fondu, su fondu və ehtiyat fondu, sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaqlara aid olmalıdır;

4.2.2. respublika əhəmiyyətli, beynəlxalq avtomobil və dəmir yollarına, hava və dəniz limanlarına, habelə mühəndis-kommunikasiya təminatı sistemlərinə çıxış imkanlarına malik olmalıdır;

4.2.3. əşyaların və (və ya) hüquqların yüklülüyündən azad olmalıdır (torpaq sahəsində kommunal, mühəndis, elektrik, rabitə və digər xətt və şəbəkələrin çəkilişinin və istismarının, su təchizatı və meliorasiyanın, habelə servitut qoyulmadan təmin edilə bilməyən digər ehtiyacların təmin edilməsi üçün servitut təyin oluna bilər);

4.2.4. “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş ətraf mühitin keyfiyyət normativlərinin əsas göstəricilərinə uyğun olmalıdır.

4.3. Turizm mərkəzi dövlət mülkiyyətində olan torpaq sahələrində, habelə onların mülkiyyətçiləri ilə bağlanılan icarə və ya alqı-satqı müqavilələri əsasında xüsusi və bələdiyyə mülkiyyətində olan torpaq sahələrində müəyyən edilə bilər.

4.4. Turizm mərkəzi üçün nəzərdə tutulan dövlət mülkiyyətində olan torpaq sahələri, tikinti obyektləri və qeyri-yaşayış sahələri icarəyə vermək hüququ ilə idarəedici təşkilatın daimi istifadəsinə verilir və onlardan yalnız Zonanın fəaliyyəti məqsədilə istifadə edilir.

4.5. Turizm mərkəzinin infrastrukturu dövlət mülkiyyəti hesab olunur.

4.6. Turizm mərkəzində Zonanın rezidenti tərəfindən yaradılan xidmət sahələri (tikinti obyektləri), habelə rezident və qeyri-rezident tərəfindən quraşdırılan avadanlıq və qurğular Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və “Torpaq icarəsi haqqında” Qanununa uyğun olaraq onların mülkiyyəti hesab edilir.

4.7. Turizm mərkəzində tikinti fəaliyyəti Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq həyata keçirilir.

**5. Zonanın fəaliyyətinin təşkili və idarə olunması**

5.1. Zonanın fəaliyyətinin təşkilini, idarə olunmasını və inkişaf etdirilməsini Zonanın əsasnaməsinə və inkişaf konsepsiyasına uyğun olaraq idarəedici təşkilat həyata keçirir.

5.2. Zonanın iqtisadi cəhətdən səmərəli və daha çevik idarə olunmasını təmin etmək məqsədilə səlahiyyətli orqanın qərarı ilə idarəedici təşkilat tərəfindən təşkil edilən müsabiqə əsasında operator cəlb edilə bilər. Operatorun müsabiqə əsasında seçilməsi qaydasını səlahiyyətli orqan müəyyən edir.

5.3. İdarəedici təşkilat və operator Zonanın fəaliyyətinə görə cavabdehdirlər. Operatorun əsas fəaliyyəti Zonanın idarə olunmasına dair idarəetmə sazişi çərçivəsində həvalə edilmiş funksiyaları icra etməkdən ibarətdir. İdarəedici təşkilat və operator Zonanın rezidenti və qeyri-rezidenti kimi fəaliyyət göstərə bilməzlər.

5.4. Zonanın operator tərəfindən idarə olunması onunla idarəedici təşkilat arasında bağlanılan idarəetmə sazişi əsasında həyata keçirilir. İdarəetmə sazişinin nümunəvi formasını səlahiyyətli orqan müəyyən edir.

5.5. Zonanın əsasnaməsi Zonanın yaradılmasına, idarə edilməsinə və fəaliyyətinin həyata keçirilməsinə dair bu Əsasnamə ilə müəyyən olunmuş müddəalar nəzərə alınmaqla, səlahiyyətli orqan tərəfindən təsdiq edilir.

5.6. Səlahiyyətli orqan tərəfindən Zonanın inkişaf konsepsiyasına uyğun olaraq maraqlı tərəflərin prosesdə iştirakının təmin olunması, təbii və mədəni irsin mühafizəsində yerli icmanın və özəl sektorun rolunun artırılması və digər məqsədlərlə idarəedici təşkilatın yanında məşvərətçi orqan olan Şura yaradıla bilər.

**6. Səlahiyyətli orqanın fəaliyyət istiqamətləri**

6.1. Səlahiyyətli orqanın fəaliyyət istiqamətləri aşağıdakılardır:

6.1.1. Zonanın fəaliyyətinin təşkili, idarə olunması və inkişafı ilə bağlı dövlət tənzimləməsini, dövlət nəzarətini və əlaqələndirməni həyata keçirmək;

6.1.2. Zonada inhisarçılığa və haqsız rəqabətə yol verilməməsinə nəzarət etmək;

6.1.3. Zonada turizmin dayanıqlı təşkili və davamlı inkişafı məqsədilə digər dövlət orqanları (qurumları), habelə fiziki və hüquqi şəxslər, o cümlədən beynəlxalq və qeyri-hökumət təşkilatları arasında əlaqəli fəaliyyəti təmin etmək;

6.1.4. Zonaya investisiya qoyuluşunun təşviqi üçün tədbirlər görmək;

6.1.5. turizm mərkəzində göstərilən turizm xidmətləri üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsi ilə bağlı tədbirlər görmək.

**7. Səlahiyyətli orqanın hüquq və vəzifələri**

7.1. Səlahiyyətli orqanın hüquqları aşağıdakılardır:

7.1.1. Zonanın, onun sərhədləri daxilində turizm mərkəzlərinin yaradılması ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək;

7.1.2. Zonanın və onun sərhədləri daxilində yaradılan turizm mərkəzlərinin fəaliyyətinin təşkili ilə bağlı normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

7.1.3. Zonanın fəaliyyətinin təşkili, idarə olunması və inkişafı ilə bağlı idarəedici təşkilata kömək göstərmək;

7.1.4. Zonanın və turizm mərkəzlərinin ləğv edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək;

7.1.5. turizm mərkəzlərində monitorinqlər keçirmək;

7.1.6. turizm mərkəzində göstərilən turizm xidmətləri üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsi ilə bağlı müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin turizm sahəsində təcrübəsini öyrənmək və digər zəruri tədbirləri həyata keçirmək;

7.1.7. turizm mərkəzlərində turizm marşrutlarını təsdiq etmək;

7.1.8. bu Əsasnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

7.2. Səlahiyyətli orqanın vəzifələri aşağıdakılardır:

7.2.1. Zonada inhisarçılığa və haqsız rəqabətə yol verilməməsi üçün zəruri tədbirlər görmək;

7.2.2. Zonanın illik (çoxillik) fəaliyyət planını təsdiq etmək;

7.2.3. Zonanın fəaliyyəti barədə illik hesabat hazırlamaq və növbəti ilin birinci rübündə Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək;

7.2.4. turizm mərkəzinin baş inkişaf planının layihəsini hazırlamaq və onu təsdiq etmək;

7.2.5. Zonanın ixtisaslaşma istiqamətindən asılı olaraq turizmin forma və növlərinə uyğun qaydada qeyri-rezidentlərin turizm mərkəzində həyata keçirdikləri sahibkarlıq fəaliyyəti növlərinin siyahısını təsdiq etmək;

7.2.6. Zonanın rezident və qeyri-rezidentlərinin reyestrinin aparılması qaydasını təsdiq etmək;

7.2.7. bu Əsasnamə ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

**8. İdarəedici təşkilatın fəaliyyət istiqamətləri**

8.1. İdarəedici təşkilatın fəaliyyət istiqamətləri aşağıdakılardır:

8.1.1. Zonanın fəaliyyətinin təşkili, idarə olunması və inkişafı ilə bağlı tədbirlər görmək;

8.1.2. Zonada rezidentlərin və qeyri-rezidentlərin fəaliyyətinin bu Əsasnamənin tələblərinə uyğun təşkili ilə bağlı tədbirlər görmək;

8.1.3. Zonanın inkişafını təmin etmək;

8.1.4. Zonanın fəaliyyətinin təşkili ilə bağlı aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

8.1.5. bu Əsasnamədə müəyyən edilən digər istiqamətlərdə fəaliyyət göstərmək.

**9. İdarəedici təşkilatın hüquq və vəzifələri**

9.1. İdarəedici təşkilatın hüquqları aşağıdakılardır:

9.1.1. turizm mərkəzinin infrastrukturuna xidmət göstərilməsinə, onun fəaliyyətinin təmin edilməsinə, cari və əsaslı təmirinin həyata keçirilməsinə dəstək vermək;

9.1.2. turizm mərkəzində dövlət mülkiyyətində olan torpaq sahələrini Zonanın rezidentlərinə və qeyri-rezidentlərinə icarəyə vermək;

9.1.3. Zonanın idarə olunması və inkişafı məqsədilə səlahiyyətli orqana təkliflər vermək;

9.1.4. Zonanın rezidentləri və qeyri-rezidentləri, habelə dövlət və yerli özünüidarəetmə orqanları ilə əlaqəli şəkildə fəaliyyət göstərmək;

9.1.5. aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən Zonanın rezidentlərinin və qeyri-rezidentlərinin fəaliyyəti ilə bağlı “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aparılan yoxlamalarda rezidentlərin və qeyri-rezidentlərin dəvəti ilə iştirak etmək;

9.1.6. Zonanın rezidentləri və qeyri-rezidentləri, habelə onlarla operator arasında mübahisələrin danışıqlar yolu ilə həllinə kömək etmək;

9.1.7. ofis, konsaltinq, təlim, peşə hazırlığı, marketinq, hüquq, logistika, rabitə, mühafizə, texniki dəstək, təşviqat xidmətlərinin və Zonada səmərəli fəaliyyət üçün digər xidmətlər göstərilməsini təşkil etmək;

9.1.8. sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi və bu Əsasnaməyə əməl edilməsi ilə bağlı Zonanın rezidentlərinə və qeyri-rezidentlərinə kömək göstərmək;

9.1.9. Zonanın fəaliyyətini təşviq etmək, Zonanın inkişafı üçün investorların cəlb edilməsi ilə bağlı tədbirlər görmək;

9.1.10. bu Əsasnamə və idarəetmə sazişi ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

9.2. İdarəedici təşkilatın vəzifələri aşağıdakılardır:

9.2.1. Zonanın rezidentlərinin və qeyri-rezidentlərinin qeydiyyatını (reyestrini) aparmaq;

9.2.2. Zonanın idarə olunmasına operatorun cəlb edilməsi üçün müsabiqəni təşkil etmək, operatoru seçmək, onunla idarəetmə sazişi bağlamaq və operator tərəfindən idarəetmə sazişindən irəli gələn vəzifələrin icrasına nəzarət etmək;

9.2.3. Zonanın illik (çoxillik) fəaliyyət planını hazırlamaq və təsdiq üçün səlahiyyətli orqana təqdim etmək;

9.2.4. Zonanın fəaliyyəti və inkişafı barədə yarımillik hesabatı, o cümlədən özünün illik maliyyə hesabatını auditor rəyi ilə birlikdə səlahiyyətli orqana təqdim etmək;

9.2.5. Zonanın rezidentləri və qeyri-rezidentləri ilə müqavilələr bağlamaq, müqavilələrin şərtlərinə əməl olunmasına nəzarət etmək, həmin müqavilələr üzrə pozuntuların aradan qaldırılması və vurulmuş zərərin ödənilməsi ilə bağlı tədbirlər görmək;

9.2.6. Zonanın rezidentlərinin və qeyri-rezidentlərinin fəaliyyəti haqqında hesabat və statistik məlumatlar almaq, onların fəaliyyətinə nəzarəti həyata keçirmək;

9.2.7. bu Əsasnamə və idarəetmə sazişi ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

9.3. Zonanın idarə edilməsi üçün operator seçildiyi halda, bu Əsasnamənin 9.1.1-ci, 9.1.5-ci 9.1.7–9.1.10-cu və 9.2.6-cı yarımbəndlərində göstərilən hüquq və vəzifələri həmin operator həyata keçirir.

**10. İdarəedici təşkilatın gəlirləri**

10.1. İdarəedici təşkilatın gəlirləri aşağıdakı mənbələrdən formalaşır:

10.1.1. turizm mərkəzlərinin ərazisində dövlət mülkiyyətində olan torpaq sahələrinin, tikinti obyektlərinin və qeyri-yaşayış sahələrinin icarəyə verilməsindən əldə olunan gəlirdən (dövlət əmlakının icarəyə verilməsindən əldə olunan icarə haqqının “İcarə haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hissəsindən);

10.1.2. Zonanın idarə edilməsinə görə alınan haqlardan;

10.1.3. kredit, qrant və ianələrdən;

10.1.4. Zonada səmərəli fəaliyyət üçün bu Əsasnamənin 9.1.7-ci yarımbəndinə uyğun olaraq təşkil edilən xidmətlərdən;

10.1.5. qanunla qadağan olunmayan digər mənbələrdən.

10.2. Zonanın idarə edilməsinə görə haqqa turizm mərkəzinin infrastrukturunun və ümumi istifadədə olan ərazilərinin saxlanılması xərcləri daxildir və bu xərclər Zonanın rezidentləri və qeyri-rezidentləri tərəfindən ödənilir. Zonanın idarə olunmasına görə haqqın məbləğini səlahiyyətli orqan müəyyən edir.

10.3. Bu Əsasnamənin 10.2-ci bəndində nəzərdə tutulan xərclərdə Zonanın rezidentinin və qeyri-rezidentinin payı onun icarəyə götürdüyü torpaq sahəsinin ölçüsünə görə müəyyən edilir.

10.4. Zonanın idarə olunması üçün operator seçildiyi halda, bu Əsasnamənin 10.1-ci bəndində nəzərdə tutulan gəlirlər idarəetmə sazişi ilə müəyyən edilmiş qaydada idarəedici təşkilatla operator arasında bölüşdürülür.

**11. Şuranın fəaliyyəti**

11.1. Şura səlahiyyətli orqan tərəfindən təsdiq edilən əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir.

11.2. Şuranın tərkibinə aşağıdakı şəxslər daxil edilirlər:

11.2.1. səlahiyyətli orqanın nümayəndəsi;

11.2.2. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin nümayəndəsi;

11.2.3. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nümayəndəsi;

11.2.4. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsi;

11.2.5. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin nümayəndəsi;

11.2.6. Zonanın əhatə etdiyi torpaq sahələrinin yerləşdiyi ərazilər üzrə yerli icra hakimiyyəti orqanlarının və bələdiyyələrin hər birinin nümayəndəsi;

11.2.7. turizm mərkəzinə icarə müqaviləsi əsasında xüsusi mülkiyyətdə olan torpaqlar daxil edildikdə, həmin torpaq sahələrinin mülkiyyətçiləri;

11.2.8. Zonanın inkişafına investisiya qoymuş şəxslər;

11.2.9. turizm sənaye assosiasiyalarının hər birinin nümayəndəsi.

11.3. Şuranın funksiyaları aşağıdakılardır:

11.3.1. Zonanın idarə olunması və inkişafı ilə bağlı idarəedici təşkilata təkliflər vermək;

11.3.2. dövlət və bələdiyyə orqanları ilə, digər qurumlarla və ayrı-ayrı maraqlı tərəflərlə birgə layihələrin hazırlanmasını müzakirə etmək;

11.3.3. Zonada həyata keçirilən fəaliyyəti fəaliyyət istiqamətlərinə uyğun olaraq yoxlamaq və təhlil etmək;

11.3.4. Əsasnaməsi ilə müəyyən edilmiş digər funksiyaları yerinə yetirmək.

**12. Zonada sahibkarlıq fəaliyyəti**

12.1. Turizm mərkəzlərində dövlətə məxsus daşınmaz əmlakın icarəyə və istifadəyə verilməsi və investisiya layihələrinin icra edilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydalara (bundan sonra – Qaydalar) əsasən həyata keçirilir.

12.2. Mərkəzdə investisiya fəaliyyəti ilə məşğul olmaq istəyən hüquqi və ya fiziki şəxslər Qaydalara uyğun olaraq turizm mərkəzlərində torpaq sahələrinin icarəyə verilməsi ilə əlaqədar keçirilən müsabiqədə (bundan sonra – müsabiqə) iştirak etməlidirlər.

12.3. Müsabiqədə qalib olmuş şəxs müsabiqənin nəticəsi elan edildiyi tarixdən 1 (bir) ay ərzində idarəedici təşkilatla səlahiyyətli orqanın təsdiq etdiyi nümunəvi formaya uyğun, müddəti 2 (iki) ildən artıq olmayan turizm mərkəzində torpaq sahəsinin icarə müqaviləsi (bundan sonra – icarə müqaviləsi) bağlamalıdır. İcarə müqaviləsinin qüvvədə olduğu müddət ərzində müsabiqənin qalibi aşağıdakı işləri həyata keçirməlidir:

12.3.1. investisiya layihəsinin icra planını hazırlamalı;

12.3.2. investisiya layihəsi çərçivəsində inşa ediləcək tikinti obyektlərinin layihəsini hazırlamalı (tikinti layihəsi müsabiqə çərçivəsində təqdim edilən investisiya layihəsinin konsepsiyasına uyğun olmalıdır);

12.3.3. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq, tikintiyə icazə almalıdır.

12.4. Müsabiqənin qalibi (mikro, kiçik və orta sahibkarlıq subyektləri istisna olmaqla) icarə müqaviləsinin imzalandığı tarixdən 1 (bir) ay ərzində idarəedici təşkilata aşağıdakı məbləğlərdə bank zəmanəti (zəmanətin qüvvədəolma müddəti icarə müqaviləsinin qüvvədəolma müddətindən 6 (altı) ay çox olmalıdır) təqdim etməlidir:

12.4.1. sağlamlıq və dağ turizmi obyektlərinin tikintisini nəzərdə tutan investisiya layihələri üzrə – icarə müqaviləsinin qüvvədə olduğu müddət üzrə hesablanan icarə haqqının 50 faizi;

12.4.2. digər investisiya layihələri üzrə – icarə müqaviləsinin qüvvədə olduğu müddət üzrə hesablanan icarə haqqının 100 faizi.

12.5. Müsabiqənin qalibi bu Əsasnamənin 12.3-cü bəndində nəzərdə tutulmuş işlərin gedişinə dair idarəedici təşkilata rüblük hesabatlar təqdim etməlidir.

12.6. Müsabiqənin qalibi icarə müqaviləsinin qüvvədə olduğu müddət ərzində bu Əsasnamənin 12.3-cü bəndində nəzərdə tutulan işlərə dair təsdiqedici sənədlərlə idarəedici təşkilata müraciət edir.

12.7. Müsabiqənin qalibi tərəfindən bu Əsasnamənin 12.6-cı bəndində qeyd olunan sənədlər təqdim edildiyi tarixdən 15 (on beş) iş günü müddətində idarəedici təşkilat sənədlərin ekspertizasını həyata keçirir. Sənədlərdə aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkarlandıqda, həmin çatışmazlıqların aradan qaldırılması ilə bağlı müsabiqənin qalibinə 3 (üç) iş günü ərzində yazılı məlumat verilir. Müsabiqənin qalibi icarə müqaviləsinin qüvvədə olduğu müddətdə çatışmazlıqları aradan qaldırıb yenidən müraciət edə bilər.

12.8. Müsabiqənin qalibi çatışmazlıqları bu Əsasnamənin 12.7-ci bəndində nəzərdə tutulmuş qaydada aradan qaldırmadığı halda, onun təqdim etdiyi bank zəmanəti idarəedici təşkilatın hesabına keçir.

12.9. Bu Əsasnamənin 12.7-ci bəndində qeyd edilmiş qaydada ekspertizadan keçmiş müsabiqənin qalibi qüvvədəolma müddəti investisiya layihəsinin icra planının əhatə etdiyi dövrdən 1 (bir) il çox olan, aşağıda müəyyən olunmuş məbləğlərdə bank zəmanətini (mikro, kiçik və orta sahibkarlıq subyektlərinə münasibətdə bank zəmanəti tələb olunmur) 30 (otuz) iş günü ərzində idarəedici təşkilata təqdim etməlidir:

12.9.1. sağlamlıq və dağ turizmi obyektlərinin tikintisini nəzərdə tutan investisiya layihələri üzrə – investisiya məbləğinin 2 faizi;

12.9.2. digər investisiya layihələri üzrə – investisiya məbləğinin 4 faizi.

12.10. Bu Əsasnamənin 12.9-cu bəndində nəzərdə tutulan bank zəmanətinin təqdim edildiyi tarixdən (mikro, kiçik və orta sahibkarlıq subyektlərinə münasibətdə ekspertizadan keçdiyi tarixdən) etibarən 10 (on) iş günü ərzində müsabiqə qalibi ilə idarəedici təşkilat arasında səlahiyyətli orqanın təsdiq etdiyi nümunəvi formaya uyğun sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair müqavilə (bundan sonra – sahibkarlıq müqaviləsi) bağlanılır və o, Zonanın rezidenti hesab olunur. Müsabiqə qalibinin qeyd edilən müddət ərzində idarəedici təşkilatla sahibkarlıq müqaviləsi bağlamaması icarə müqaviləsinin ləğvinə səbəb olur.

12.11. Sahibkarlıq müqaviləsi bağlanıldığı müddətdən etibarən bu Əsasnamənin 12.3-cü bəndinə əsasən müsabiqənin qalibi ilə bağlanılmış icarə müqaviləsinin müddəti sahibkarlıq müqaviləsinin qüvvədə olduğu müddətə uzadılır.

12.12. Sahibkarlıq müqaviləsi bağlanıldığı tarixdən 5 (beş) iş günü ərzində rezidentə bu Əsasnamənin 12.4-cü bəndinə əsasən təqdim edilmiş bank zəmanəti geri qaytarılır.

12.13. Sahibkarlıq müqaviləsində aşağıdakılar öz əksini tapmalıdır:

12.13.1. turizm mərkəzində göstəriləcək turizm xidmətləri üzrə həyata keçiriləcək sahibkarlıq fəaliyyəti;

12.13.2. turizm mərkəzinə qoyulacaq investisiyanın həcmi, xidmət sahələrinin və digər obyektlərin inşası, qurulması və yerləşdirilməsi şərtləri, xidmətlərin (işlərin) göstərilməsinə başlama tarixi;

12.13.3. Zonanın idarə edilməsinə görə alınan haqların, habelə idarəedici təşkilat tərəfindən göstərilən xidmətlərə görə haqqın məbləği;

12.13.4. müqavilənin müddəti;

12.13.5. tərəflərin hüquqları, öhdəlikləri və məsuliyyəti;

12.13.6. qarşısıalınmaz qüvvənin təsiri altında tərəflərin münasibətlərinin tənzimlənməsi qaydası;

12.13.7. tərəflər arasında yaranan mübahisələrin həlli qaydası.

12.14. Zonanın rezidenti tərəfindən investisiya həcminin 50 faizinin investisiya kimi qoyulduğunu təsdiq edən sənədlər idarəedici təşkilata təqdim edildikdən sonra bu Əsasnamənin 12.9-cu bəndində nəzərdə tutulmuş bank zəmanəti geri qaytarılır.

12.15. Zonanın rezidenti müqavilədə göstərilən xidmət sahəsinin qurulması, tələb olunan investisiyanın qoyulması və xidmət göstərilməsinə başlanılması ilə bağlı öhdəliklərini müqavilə ilə müəyyən olunmuş müddətdə icra etmədikdə (qarşısıalınmaz qüvvənin təsir etdiyi hallar istisna olmaqla), idarəedici təşkilat Zonanın rezidentinə bildiriş təqdim edir. Bildirişdə Zonanın rezidentinə qeyd olunan işlərin başa çatdırılması üçün əlavə olaraq 1 (bir) ildən çox olmayan müddət təyin edilir.

*(ardı 5-ci səhifədə)*

# Turizm və rekreasiya zonalarının Nümunəvi Əsasnaməsi

(əvvəli 4-cü səhifədə)

12.16. Zonanın rezidenti müqavilədə, yaxud bildirişdə müəyyən olunmuş müddətdə xidmət sahələrinin və digər obyektlərin inşası, qurulması və yerləşdirilməsi ilə bağlı işləri yekunlaşdıraraq tikinti obyektlərinin istismarına icazə sənədini məlumat üçün idarəedici təşkilata təqdim edir.

12.17. Zonanın rezidenti istismara icazə sənədini əldə etdikdən sonra investisiya layihəsi çərçivəsində turizm mərkəzində yaratdığı xidmət sahələrində (tikinti obyektlərində) özü fəaliyyət göstərə, yaxud turizm xidmətləri göstərilməsi ilə bağlı öhdəliklərini idarəedici təşkilatı məlumatlandırmaqla müqavilə əsasında üçüncü şəxslərə ötürə bilər.

12.18. Bu Əsasnamənin 12.17-ci bəndi ilə müəyyən edilmiş halda Zonanın rezidenti idarəedici təşkilatla bağladığı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair müqavilənin şərtlərinə turizm xidmətləri göstərilməsi ilə bağlı öhdəliklərini ötürdüyü üçüncü şəxslər tərəfindən əməl olunmasına görə idarəedici təşkilat qarşısında məsuliyyət daşıyır.

12.19. Sahibkarlıq müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

12.19.1. müqavilənin müddəti başa çatdıqda;

12.19.2. 6 (altı) ay əvvəlcədən idarəedici təşkilatı məlumatlandırmaqla Zonanın rezidentinin tələbi ilə;

12.19.3. Zonanın rezidenti müqavilədə göstərilən xidmət sahəsinin qurulması, tələb olunan investisiyanın qoyulması, xidmətlər göstərilməsinə başlanılması ilə bağlı öhdəliklərini bu Əsasnamənin 12.15-ci bəndinə uyğun olaraq verilən bildirişlə müəyyən olunmuş müddətdə icra etmədikdə, idarəedici təşkilatın təşəbbüsü ilə;

12.19.4. Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulan digər hallarda.

12.20. Bu Əsasnamənin 12.19-cu bəndində göstərilən əsaslarla sahibkarlıq müqaviləsinə xitam verilməsi torpaq sahəsinin icarə müqaviləsinin ləğvinə səbəb olur.

12.21. Sahibkarlıq müqaviləsinə xitam verildikdə, Zonanın rezidenti mülkiyyətində olan xidmət sahələrinin (tikinti obyektlərinin), avadanlıq və qurğuların özgəninkiləşdirilməsi, yaxud özü və ya çəkilən xərcləri ödəmək şərtilə idarəedici təşkilat tərəfindən sökülməsi, daşınması və ya məhv edilməsi (utilizasiyası) barədə qərar qəbul edir.

12.22. Zonanın rezidentinin müqavilə üzrə öhdəlikləri bu Əsasnamənin 12.21-ci bəndinə uyğun olaraq xidmət sahəsini əldə edən hüquqi və ya fiziki şəxslərə keçir. Həmin fiziki və ya hüquqi şəxslər bu Əsasnamənin 12.9-cu bəndində nəzərdə tutulmuş bank zəmanətini təqdim etdikləri tarixdən Zonanın rezidenti hesab olunurlar.

12.23. İdarəedici təşkilat (və ya operator) mərkəz daxilində səlahiyyətli orqan tərəfindən bu Əsasnamənin 7.2.5-ci yarımbəndinə əsasən müəyyən edilən sahibkarlıq fəaliyyəti növlərinin həyata keçirilməsi üçün müqavilə əsasında Zonaya qeyri-rezidentlər cəlb edə bilər.

12.24. İdarəedici təşkilat Zonanın rezidentlərinin və qeyri-rezidentlərinin siyahısının və həmin siyahıda baş verən dəyişikliklər barədə məlumatın Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə təqdim olunmasını təmin edir.

**13.Turizm mərkəzinin baş inkişaf planı**

13.1. Turizm mərkəzinin baş inkişaf planı turizm mərkəzlərinin inkişafı məqsədilə tərtib edilir.

13.2. Aidiyyəti dövlət orqanı razılaşdırılmaq üçün göndərilmiş turizm mərkəzinin baş inkişaf planı layihəsinin alındığı gündən ən geci 30 (otuz) gün müddətində razılığın verilməsi və ya verilməsindən imtina barədə qərar qəbul edir.

13.3. Turizm mərkəzinin baş inkişaf planı onun ərazisini təşkil edən yaşayış məntəqəsinin Baş planı nəzərə alınmaqla hazırlanır. Turizm mərkəzinin yerləşdiyi yaşayış məntəqəsinin Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq Baş planı hazırlanarkən, turizm mərkəzinin baş inkişaf planı nəzərə alınır.

13.4. Turizm mərkəzinin baş inkişaf planında müvafiq turizm mərkəzinin mövcud potensialına uyğun olaraq aşağıdakılar nəzərdə tutula bilər:

13.4.1. turizm xidmətləri göstərilməsini təmin edən obyektlərin tikintisi məqsədilə ərazidən istifadənin növündən və miqyasından asılı olaraq tikinti üçün nəzərdə tutulmuş ərazilər;

13.4.2. sosial və mədəni-məişət ehtiyaclarının təmin edilməsi məqsədilə müvafiq obyekt və müəssisələr, eləcə də idman və oyun meydançaları üçün ərazilər;

13.4.3. parklar və başqa yaşıllıq əraziləri, çimərlik yerləri;

13.4.4. yol-nəqliyyat infrastrukturu üçün ərazilər;

13.4.5. mühəndis-kommunikasiya təminatı, habelə tullantılar üçün ərazilər;

13.4.6. meşələr;

13.4.7. təbii mühitin və landşaftın qorunması, onlara qayğı göstərilməsi və inkişafı məqsədilə tədbirlər görülməsi üçün ərazilər;

13.4.8. Zonanın ixtisaslaşma istiqamətindən asılı olaraq turizmin forma və növlərinə uyğun qaydada planlaşdırılan digər ərazilər.

13.5. Turizm mərkəzinin baş inkişaf planının qüvvədəolma müddəti 20 (iyirmi) ildir.

**14. Zonada tətbiq edilən mühafizə rejimi**

14.1. Zonanın sərhədləri daxilində yerləşən xüsusi mühafizə olunan təbiət ərazilərindən və obyektlərindən, təbii müalicə ehtiyatlarından və müalicə-sağlamlaşdırma yerlərindən, mədəni irs obyektlərindən turizm məqsədləri üçün istifadə “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında”, “Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında”, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” və “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq həyata keçirilir.

14.2. Zonanın ərazisində Qanunla yol verilən fəaliyyət həyata keçirilə bilər.

14.3. Turizm mərkəzlərində yerləşən təbii müalicə ehtiyatlarının rezidentlərə paylanılmasını idarəedici təşkilat həyata keçirir.

**15. Turizm mərkəzində stimullaşdırıcı tədbirlər**

15.1. Turizm mərkəzlərinə münasibətdə aşağıdakı stimullaşdırıcı tədbirlər müəyyən edilə bilər:

15.1.1. turizm mərkəzinin infrastrukturla təmin edilməsi;

15.1.2. dövlət mülkiyyətində olan torpaqlara münasibətdə torpaq sahəsinin icarə haqqının “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş aşağı həddə tətbiq edilməsi;

15.1.3. güzəştli kreditlərin verilməsi;

15.1.4. investisiya qoyuluşunun dəstəklənməsi;

15.1.5. sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün xidmətlərin təşkili.

**16. Turizm mərkəzlərinin torpaq sahələrindən istifadə**

16.1. Turizm mərkəzlərinin torpaq sahələrindən istifadə olunması Zonanın rezidenti, habelə qeyri-rezidenti ilə idarəedici təşkilat arasında bağlanılan turizm mərkəzində torpaq sahəsinin icarə müqaviləsi əsasında həyata keçirilir.

16.2. Turizm mərkəzində torpaq sahələri qeyri-rezidentlərə bağladıqları müqavilə müddətinə uyğun olaraq icarəyə verilir.

16.3. İdarəedici təşkilatın icarəyə verdiyi torpaq sahələrindən icarə müqavilələrində göstərilməyən məqsədlər üçün istifadəyə yol verilmir.

**17. Zonanın yaradılması ilə bağlı işlərin maliyyələşdirilməsi**

Zonanın yaradılması Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti, idarəedici təşkilatın əldə etdiyi gəlirlər və qanunla qadağan edilməyən digər mənbələr, fəaliyyəti isə rezidentlər və Zonanın fəaliyyətindən əldə olunan gəlirlər hesabına maliyyələşdirilir.

**18. Zonalara dövlət nəzarəti**

18.1. Zonalara dövlət nəzarətinin məqsədi həmin ərazilərin mühafizəsi, bərpası və istifadəsi ilə bağlı tədbirlərin yerinə yetirilməsinə nəzarət etmək, normativ hüquqi aktlarla müəyyən edilmiş qaydalara və tələblərə əməl olunmasını təmin etməkdir.

18.2. Zonalarda turizm fəaliyyətinə dövlət nəzarəti Qanuna uyğun olaraq həyata keçirilir.

**19. Zonanın ləğv edilməsi**

19.1. Zonanın ləğv edilməsi barədə qərar Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul edilir.

19.2. Zonanın ləğv edilməsi onun rezidenti, habelə qeyri-rezidenti olmuş hüquqi və fiziki şəxslərin həmin ərazidə fəaliyyəti davam etdirmələrinə mane olmur.

# Laçında Diaspor Gənclərinin V Yay Düşərgəsi





**Laçın şəhərində “Gənclər Yaşıl Dünya Naminə” Diaspor Gənclərinin V Yay Düşərgəsinin açılış mərasimi keçirilib.**

Diasporla İş üzrə Dövlət Komitəsi və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə keçirilən düşərgə avqustun 7-nə qədər davam edəcək.

Yay düşərgəsində dünyanın 60 ölkəsindən gələn 115 gənc iştirak edir. Onlar arasında xaricdə yaşayan azərbaycanlılarla yanaşı Azərbaycana dost münasibət bəsləyən digər xalqların nümayəndələri də yer alır.

Tədbirdə çıxış edən Laçın rayonunda Prezidentin xüsusi nümayəndəsi Məsim Məmmədov qeyd edib ki, növbəti mərhələdə Laçın sakinlərinin Güləbird kəndinə köçürülməsinə başlanılacaq: "Kəndə köç bu ilin ikinci yarısında həyata keçiriləcək. Həmçinin yaxın vaxtlarda rayonun Qorçu, Şəlvə, Ərikli və digər kəndlərinin də tikintisinə başlanılacaq".

Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva isə söyləyib ki, gənclər bütün ölkələrdə aparıcı qüvvədir: "Artıq ən yüksək amallar gənclər tərəfindən həyata keçirilir. Gənclərimiz xarici ölkələrdə yaşayır, təhsil alır. İnsanın ən böyük hüququ yaşamaq hüququdur. Hüququndan keçən əsgərlərimiz torpaq uğrunda ölümə getdilər. Siz bunları bilməli və gələcək nəsillərə ötürməlisiniz".

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov çıxışı zamanı vurğulayıb ki, Azərbaycan əleyhinə təbliğatlar getdikcə artacaq: "Dünyada 300-dən çox diaspor təşkilatımız fəaliyyət göstərir. Ancaq bu o demək deyil ki, hamısının işi səmərəlidir. Ona görə də gəncləri diaspor fəaliyyətinə daha çox diqqət göstərməyə çağırıram".

Heydər Əliyev Fondunun nümayəndəsi Elvin Aslanov isə gənclərin inkişafına xüsusi önəm verdiklərini söyləyib: "Laçında keçirilən bu düşərgə xüsusi əhəmiyyət daşıyır. Bu ərazilər Azərbaycan Ordusunun qəhrəmanlığı hesabına azad edilib. Ümid edirəm ki, düşərgədə qazandığınız təcrübə Azərbaycanın dünyada daha yaxşı tanıdılmasına öz töhfəsini verəcək".

***XQ***




# Gözdə Dizdar: Azərbaycan qarşıdan gələn hər iki kampaniyanı uğurla başa çatdıracaq

**Dəfələrlə Bakıda beynəlxalq tədbirlərdə, humanitar forumlarda iştirak etmişəm. Onu deyə bilərəm ki, Azərbaycan hər gəlişimdə daha fərqli, daha çox inkişaf etmiş formada qarşıma çıxıb. Seçki proseslərini bir neçə dəfə izləmişəm. Bundan əvvəlki seçkilərdə biz beynəlxalq müşahidəçilər qrupu ilə məntəqələrdə olmuş və doğrusu, heç bir nöqsan aşkar etməmişdik. Dövlətiniz də seçki üçün lazım olan hər şəraiti yaratmışdı. Güman ki, qarşıdakı seçkilərdə Bakıda olacağam...**



Bu fikirləri XQ-yə Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (ICAP) Prezident müşaviri, Qlobal İdarəçilik və İnkişaf Təşkilatının baş direktoru Gözdə Dizdar bildirib. O qeyd edib ki, Azərbaycanda sentyabrın 1-də keçiriləcək parlament seçkilərinə hazırlığı yaxından izləyir: “Əlbəttə, Milli Məclis Türkiyədə də, elə qardaş Azərbaycanda da dövlətin idarə olunmasında mühüm yer tutan orqandır. Ona görə də belə bir strateji və mühüm quruma seçkilər də öz ciddiliyi, kütləvi maraqlılığı ilə fərqlənməlidir. Çünki bu, önəmli siyasi prosesdir. Hesab edirəm ki, Azərbaycanda keçiriləcək seçkilər də kütləvilik baxımından maraqlı olacaq və əhalinin əhəmiyyətli hissəsini özünə cəlb edəcək. Görürəm ki, Azərbaycan dövləti seçkilərin demokratik şərt və prinsiplərə uyğun ədalətli keçirilməsi üçün əlindən gələni edir. Tək paytaxt Bakıda deyil, ucqar regionlarda da seçkilər üçün yaxşı şərait yaradılıb”– deyə Dizdar bildirib.

Təşkilat sədri qeyd edib ki, bu il həm də işğaldan azad edilən Qarabağ torpaqlarında da seçkilər keçiriləcək: “Səhv etmirəmsə, bu, müstəqilliyin bərpasından sonra ilk parlament seçkisidir. Bu, çox önəmli siyasi hadisədir. Hətta deyərdim tarixi hadisədir. Parlament seçkilərinin şəffaf və ədalətli keçirilməsi, seçici fəallığının artırılması üçün bütün imkanlar yaradılır. Son illər ölkənizdə keçirilən seçkilərin insidentsiz və seçkinin nəticəsinə təsir edəcək ciddi qanun pozuntusu olmadan başa çatması beynəlxalq aləmdə də etiraf olunur. Budəfəki seçkilərdə də bu ənənənin davam etdiriləcəyinə inanıram”.

G.Dizdar daha sonra əlavə edib ki, bu il Azərbaycan möhtəşəm, dünya səviyyəli bir tədbirə – COP29-a evsahibliyi edəcək. Bu gün bəşəriyyəti ciddi narahat edən iqlim və ekoloji problemlərin həlli yolları məhz Bakıda çözüləcək. 80 minə yaxın insan Bakıya gələcək. Bu çox böyük rəqəmdir. Ard-arda iki böyük siyasi prosesi təşkil etmək, uğurla başa çatdırmaq hər dövlətə müyəssər olan avantaj deyil. Bu, Azərbaycan dövlətinin yüksək təşkilatçılıq ənənələrinin olmasını sübut edir. Azərbaycanın qarşıdan gələn hər iki mötəbər siyasi prosesi uğurla başa çatdıracağına əminik.

***Anar TURAN***
***XQ***

# Fransadan üzr gözləyirik

**XİN-in mətbuat katibi Ayxan Hacızadə Yay Olimpiya Oyunlarının açılış mərasimində "France 2" telekanalının müxbirinin ölkəmizə qarşı səsləndirdiyi qərəzli fikirlər ilə bağlı yerli medianın sualını cavablandırıb.**



O bununla bağlı deyib: “Məlum olduğu kimi, Beynəlxalq Olimpiya Komitəsi tərəfindən Azərbaycanın rəsmi etiraz məktubuna münasibət bildirilib, "France2" telekanalının səsləndirdiyi qəbuledilməz ifadələrlə bağlı ölkəmizdən üzrxahlıq edilib.

Fransanın rəsmi dövlət kanalında səsləndirilmiş və Olimpiya Oyunlarının siyasiləşdirilməsinə xidmət göstərən qərəzli fikirlər Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasının tərkib hissəsi olduğu, buna məqsədyönlü şəkildə yol verildiyi qənaətindəyik.

Bu baxımdan məsuliyyət daşıyan tərəfin, ilk növbədə, Olimpiya Oyunlarının ev sahibi Fransa olması səbəbindən bu ölkənin də üzrxahlıq edəcəyini gözləyir, Azərbaycana qarşı bu kimi addımların gələcəkdə təkrarlanmamasını tələb edirik”.

# Bölgələrdə maarifləndirmə tədbirləri





**Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) Aparatının və Mərkəzi Seçki Komissiyasının (MSK) birgə təşkilatçılığı ilə “Vətəndaşların seçki hüququnun təmin olunması” mövzusunda maarifləndirmə tədbirləri davam etdirilir. Növbəti “dəyirmi masa” Gəncədə təşkil olunub.**

Tədbirdə çıxış edən Ombudsman aparatının rəhbəri Aydın Səfixanlı ölkə Prezidentinin 2024-cü il 28 iyun tarixli sərəncamı ilə cari il sentyabrın 1-nə parlamentə növbədənkənar seçkilərin təyin olunduğunu, vətəndaşların aktiv və passiv seçki hüquqlarının daha səmərəli təminatı istiqamətində kompleks tədbirlərin həyata keçirildiyini deyib. Aparat rəhbəri müşahidəçilik institutunun əhəmiyyətindən, müvəkkilin və təsisatın bu prosesdəki rolundan danışıb. O, ombudsman Səbinə Əliyevanın təşəbbüsü, MSK-nın dəstəyi ilə paytaxtda və regionlarda birgə maarifləndirmə tədbirlərinin keçirildiyini, bu istiqamətdə ilk tədbirin Bakıda, bu gün isə Gəncədə təşkil olunduğunu bildirib.

Sonra Mərkəzi Seçki Komissiyasının üzvləri İlham Məmmədov və Almas Qəhramanlı tərəfindən MSK-nın seçkilər ərəfəsində həyata keçirdiyi işlər barədə məlumat verilib, maarifləndirmə tədbirlərinin davam etdirildiyi diqqətə çatdırılıb.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, mövzu ilə bağlı fikir mübadiləsi aparılıb.

***XQ***



# Liderlər və dünya nizamının arxitekturası

**Yaxın 10 ildə dünyada xaos hökm sürəcək.**

**Bloomberg**

## Həqiqəti gizlədənlər

Əlbəttə, müasir dünyada dəqiq proqnoz vermək çox çətin, bəlkə də mümkün olmayan məsələdir. Lakin hadisələrin ümumi məntiqi baxımından bir sıra maraqlı məqamları adyınlaşdırmaq olar. Bloomberg də hansısa proqnozunda tam obyektiv mövqedə olmur. Buna baxmayaraq, onun 2018-ci ildə verdiyi və 2028-ci ilə qədər dünyada baş verə biləcək proseslərə aid olan proqnozu maraq doğurmuşdur. Orada D.Trampın ikinci dəfə prezident olacağı, Yaponiyanın nüvə silahı əldə edəcəyi və Putinin istefa verəcəyi yazılır. Proqnozda 2024-cü ildə Amerikanı böhran bürüyəcəyi də vurğulanmışdır. Facebook və Twitter-in çökəcəyi və yalan informasiyaların dominant olacağı fikri yer almışdır. Nəticədə insanlar həqiqətin harada olduğunu dərk edə bilməyəcəklər.

Bu proqnozlardan hansının özünü doğruldacağı haqqında bəhs etmək fikrindən uzağıq. Lakin insanların yalan informasiyalar əsasında həqiqəti dərk edə bilməyəcəkləri əsaslı ola bilər. İndi dünya miqyasında baş verən hadisələr göstərir ki, doğrudan da faktla onun izahı arasında məntiqi uyğunsuzluq vardır. Xüsusilə liderlərə qarşı sui-qəsdləri tamam fərqli arqumentlərlə izah etməyə çalışırlar. Hiss olunur ki, həqiqət gizlədilir və bu da çox təhlükəli tendensiyadır. Onun arxasında hansı məqsədlərin dayandığını araşdırmaq aktual məsələdir.

Bu baxımdan "liderliyə sui-qəsdlər" bir qədər müəmmalı səslənir. Lakin son bir neçə, xüsusən son 1 ildə dünyanın müxtəlif qitələri, regionları və ölkələrində liderlərə qarşı törədilən sui-qəsdləri ümumilikdə liderliyə olan qəsdlərin əlaməti kimi qəbul etmək olar. Nəzəri olaraq da elə bir baxış bucağı vardır ki, vurğulanan istiqamətdə baş verən hadisələrin hamısına liderliyə olan sui-qəsdlər kimi baxa bilərik. Yəni həmin yanaşmada liderlərə (kimliyindən və ölkəsindən asılı olmayaraq) olan sui–qəsdlər qlobal miqyasda özünü göstərən bir tendensiyanın – bütövlükdə, liderliyə qarşı hansısa münasibətlərin təzahürü olaraq təsəvvür edilə bilər. Bu tezisin aydın olması üçün fikrimizi bir qədər də konkretləşdirək.

## Faktların işığında

2018-ci ildə eyni gündə Afrikanın iki ölkəsində, Zimbabve və Efiopiyada dövlət başçılarına qarşı sui-qəsd cəhdləri olmuşdur. 2023-cü ildə isə Afrika və Latın Amerikasında liderlərə qarşı bir neçə sui-qəsd və ya dövlət çevrilişlərinə cəhdlər özünü göstərdi. Məsələn, Syerra-Leonada, Liviyada, Venesuelada və başqa dövlətlərdə bu cür hadisələr baş verdi. Xüsusilə Afrikada adəti üzrə silahlı qruplar maskalı halda liderin iqamətgahına hücum edir və sonra bəyanat verirlər. Onların kimliyini araşdıranda məlum olur ki, hansısa inkişaf etmiş ölkədə hərbi hazırlıq keçmiş xüsusi təyinatlılardır.

Bu proses Afrika və Latın Amerikası ilə məhdudlaşmır. 2024-cü ildə Avropada Slovakiyanın Baş naziri Robert Fitsoya və bir neçə gün öncə ABŞ-da prezidentliyə namizəd D.Trampa qarşı sui-qəsd cəhdləri oldu.

Nəhayət, hələlik "sonuncu" deyə biləcəyimiz "Həmas"ın siyasi qanadının lideri İsmayıl Haniyənin öldürülməsi faktı vardır. İ.Haniyə barışıq danışıqlarında təşkilatı təmsil edirdi. Məhz "Həmas" (biz təşkilatın terrorçu kateqoriyasına aid olub-olmadığı məsələsinə baxmırıq, əsas olanı kimliyindən asılı olmayaraq lider sayılan şəxsin öldürülməsi faktıdır) tərəfdən danışıqlara rəhbərlik edən insanın sui-qəsdlə öldürülməsi bir sıra suallar yaratmışdır. Bundan əvvəl onun ailəsinə qarşı da sui-qəsd olmuşdu.

Yaponiyanın keçmiş Baş naziri Abenin terror nəticəsində öldürülməsini, Gürcüstanın Baş naziri İ.Kobaxidzenin Avropa İttifaqı rəsmilərindən birinin "Fitosunun taleyini nəzər al" kimi hədə almasını və müxtəlif dövlət başçılarına qarşı baş tutmayan sui-qəsdləri xatırlaya bilərik. Bunların fonunda İranın keçmiş prezidenti Rəisinin müəmmalı şəkildə həlak olması faktını vurğulamaq olar.

Hər halda, qısa bir müddətdə, cəmi 2-3 il ərzində liderlərə qarşı (kateqoriyasından asılı olmayaraq) sui-qəsdlərin artması hansısa tendensiyadan xəbər verirmi? Və ya bu prosesin səbəbləri mövcuddurmu? Çünki müasir dünyamız o qədər həssas və risklidir ki, hər yerdə hər şeyin baş verə biləcəyinə inananlar az deyil.

## Liderlik və beynəlxalq hüquq

Məsələyə müxtəlif miqyaslardan baxmaq olar. Qlobal miqyasda özünü göstərən bir tendensiyanın prizmasında liderliklə bağlı maraqlı məqamları müəyyən etmək olar. Məsələ ondan ibarətdir ki, hələ keçən əsrin 90-cı illərindən dünyanın tanınmış siyasiləri, alimləri, politoloqları və analitikləri bir geosiyasi xaosun yaranmaqda olduğu barədə danışırdılar. Onlar bu vəziyyəti beynəlxalq miqyasda hüququn tapdanmasına aparıb çıxardığı haqqında xəbərdarlıq edirdilər. Yəni dünyanın qlobal problemlərini qəbul edilmiş hüquq normaları çərçivəsində deyil, başqa üsullarla həll etmək meyli getdikcə artırdı.

Düşündürücüdür ki, bu prosesin kökündə Qərbdə sosial, siyasi, geosiyasi ədalətsiziliyin dayandığı haqqında aparıcı elm adamları fikirlər söyləyirdilər. Məsələn, fransız sosioloq Mişel Turen XX əsrin 60-cı illərində Qərb siyasi düşüncəsində ədalətsizliyin getdikcə daha çox yer aldığını və 70-80-ci illərdə "reyqanizm" və "tetçerizm" xətti ilə bunun sosial ədalətsizliyə transformasiya olunduğunu iddia edir. Sonrakı mərhələdə bu cür ədalətsizliklə beynəlxalq münasibətlərə sirayət etməyə və nəticədə dünya miqyasında geosiyasi maraqların ədalətsizlik əsasında təmin olunması üstünlük təşkil etməyə başladı. Dünyanın müxtəlif regionlarında yaradılan qanlı münaqişələr onun əlamətlərindən biridir.

Bunların fonunda "qeyri-sistem güclər" deyilən və əsasən terror təşkilatlarının fəaliyyəti nəzərdə tutulan bir təhlükəli tendensiya gücləndi. Müxtəlif ölkələrdə sui-qəsdlər, terror aktları və onların bir-birinə zidd məntiqlə izahı cəhdləri göstərirdi ki, dünya, bütövlükdə, daha təhlükəli bir duruma sürüklənir. Bu durumda sui-qəsdlər, terrorlar, liderlər də daxil olmaqla kimlərinsə ölməsi və ya sağ qalması ssenarilərinin qurulması getdikcə bir qaydaya çevrildi. İndi adi insan üçün belə terror və ya sui-qəsd "olan şeydir" kateqoriyasındadır. Bunların fonunda son bir neçə ildə ayrıca liderlərə qarşı terror və ya zorakı üsulla dövlət çevrilişi cəhdləri sanki düşüncələrə bir "normallıq standartı" yeridir. Yəni adi insanlar öyrəşirlər ki, hansısa dövlətin başçısına qarşı sui-qəsd etmək olar. Və bəlkə də özlərindən süni arqumentlər quraşdırırlar ki, inansınlar: "elə belə də lazımdır"!



Lakin daha dərinlərdən və ya qlobal miqyasdan bu prosesə baxanda olduqca təhlükəli bir tendensiyanın əlamətlərini görürük. Konkret olaraq, sanki hansısa təsirli dairələr problem saydıqları məsələləri hüquqla deyil, terrorla, sui-qəsdlərlə həll etməyə can atırlar. Bunun üçün şüurlarda liderlərə qarşı sui-qəsdləri adiləşdirməyə çalışırlar. Afrikanın dünya siyasətində elə də rolu olmayan ölkələrində liderlərə qarşı sui-qəsdlər törədiləndə düşünmək olardı ki, əsas hədəf onlar deyildir – dünya siyasi və geosiyasi düzəninə yeniliklər gətirməyə çalışan, yeni dünya nizamını, çoxqütblü dünyanı qurmağa cəhd edənlərdir. Buradan isə bir nəzəri sual yaranır: Məqsəd nədir?

## Nəzəriyyə nə deyir?

II Dünya müharibəsindən sonra yaradılan beynəlxalq hüquq keçən əsrin 90-cı illərindən daha güclü formada çökməyə başladı. Böyük dövlətlər öz maraqlarını təmin etmək üçün haqsızlığa, süniliyə və güc hesabına məsələləri həll etməyə daha çox cəhdlər göstərdilər. BMT kimi təşkilat da öz vəzifəsinin öhdəsindən tam gələ bilmədi. 1994-cü və 1995-ci illərdə BMT-nin yüksək tribunasından bir sıra uzaqgörən siyasi liderlər bu barədə xəbərdarlıq edir və hüququn gözlənilməsinin təminatını tələb edirdilər. Onlar dünyanın xaosa sürükləndiyini əsaslandırırdılar. Eşitmədilər.

Nəticədə müxtəlif regionlarda münaqişələr və onların haqsız tərəfini dəstəkləyən böyük dövlətlər daha da fəallaşdı. Elə o dövrdən ortaya bir sual çıxdı: beynəlxalq hüquq işləmirsə, dünyanın nizamını necə yeniləmək olar? Bu prosesdə hansı qüvvələr aparıcı rol oynaya bilər? Filosoflar, politoloqlar, beyin mərkəzləri, analitiklər araşdırma sayəsində belə qənaətə gəldilər ki, xaosun artdığı bir dönəmdə liderlik institutu aparıcı rol oynaya bilər. Bu da o demək idi ki, dünya miqyasında proseslərin məzmun və istiqamətində liderlər həlledici rol oynayacaqlar.

Dünya üzrə hadisələrin gedişatı göstərdi ki, elmi araşdırmaların gəldiyi bu qənaət özünü doğruldur. Daha ünsiyyətcil, fəal, ədalətli və uzaqgörən siyasi liderlər dünya nizamının yenilənməsində ciddi rol oynaya bilərlər.

## Liderliyin aparıcılığına fərqli reaksiyalar

Təbii ki, bu gedişata hamı sevinmədi. Xüsusilə XX əsrin ikinci yarısından dünyaya ağalıq edənlər imtiyazlarının əllərindən çıxması ilə barışmadılar. Hüquqla bunun qarşısını ala bilməzdilər, çünki tarix başqa tələbləri ortaya qoyurdu. Nəzəri desək, "dünya inforser sistemi" (dünya nizamını tənzimləyən və idarəedən dövlətlər qrupu) dərin böhran keçirirdi və bunun fonunda uduzanlar radikal müqavimət göstərməyə başladılar. Liderlərə sui-qəsd və terror bu sırada ön plana çıxmağa başladı.

Yəni XXI əsrin başlanğıcından dünya miqyasında faktiki olaraq liderliyə qarşı qanunsuz və hüquqsuz savaşa başladılar. Rəqib saydıqları və yollarına çıxdıqlarını hesab edənlər, sadəcə, tətikçiyə arxalandılar. Afrika məsələsi isə, ümumiyyətlə hərbi düşüncədən "mülki liderliyə" keçidin bu qitədə bərqərar olmasını əngəlləmək və bütövlükdə, liderlərə sui-qəsdi adiləşdirmək, normaya çevirmək cəhdi kimi görünür.

## Daha riskli mərhələ

Belə görünür ki, bir sıra dairələr (açıq və ya gizli) dünyanın yenidən nizama salınmasına qarşı daha kəskin addımlar atmaq mərhələsinə keçmişlər. Bir güclü dövlət hansısa doktrina hazırlayır və yerləşdiyi regionda bütün dövlətləri ona tabe etməyə çalışır. Alınmayanda başlayır terrora. Yaxın Şərqdə bunu müşahidə edirik. Orada proseslərin məntiqi göstərir ki, kimlərsə daha çox sayda dövləti münaqişələrə çəkir. Bu zaman liderlərə qarşı yeni sui-qəsdlərin olması istisna deyildir. Özü də hazırkı mərhələdə kimsənin tam sığortası yoxdur. Atəşin haradan və kim tərəfindən açılacağını öncədən bilmək xeyli çətindir.

Cənubi Qafqazda da buna cəhdlər edirlər. Lakin burada vəziyyəti sabit saxlaya biləcək geosiyasi güc olduğundan hələlik prosesləri müəyyən məcradan kənara çıxara bilmirlər. Mərkəzi Asiya və Uzaq Şərqin qarışması istisna deyildir. Burada hansısa münaqişə ocağı və ya liderə qəsd mümkündür. Qazaxıstan və Qırğızıstanda belə bir cəhd oldu, lakin nəticə vermədi. Prosesin dayandığı haqqında hələ elə bir arqument yoxdur.

ABŞ-da eyni riskin mövcudluğunu demək lazımdır. Orada hansısa məqamda liderlərdən hansınasa, məsələn, D.Trampa qarşı sui-qəsd ola blər. Avropada belə bir təcrübə artıq vardır. Onun Cənubi Qafqaza transformasiyası istisna deyildir (Gürcüstanın baş nazirinin hədələnməsi).

Necə yekun mənzərə alınır? Görünür ki, indi dünyanı qlobal miqyasda qarışıqlığa və qeyri-müəyyənliyə sürükləyənlər daha da fəallaşmışlar. Bu, bir tərəfdən, beynəlxalq hüququn çöküşü deməkdir, digər tərəfdən isə bəzi liderlərin uğurlu olması ilə bağlıdır. Yeni uğurlu liderlər dünya nizamının arxitekturasını formalaşdırırlar. Buna qarşı radikal addımlara üstünlük verənlər də passiv dayanmırlar. Deməli, "pərdəarxası savaş" yeni kəskin səviyyəyə yüksəlməkdədir. Sifarişçilərin kimləri harada və necə aktivləşdirəcəyi aydın deyildir.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Haylar Roma papasına "meydan oxuyurlar"

## Onların cavabını 22 il əvvəl II İoann Pavel özü verib



**Ermənilərin dünyanın "ən ali irqi" olmaları barədə iddialarının üfiqləri o qədər genişlənib ki, indi də Müqəddəs Taxt-Tacın sahibinə dil uzatmağa başlayıblar. Hayların "Le Mouvement Arménien" adlı saytı Roma papasını Vatikanın Azərbaycandakı "erməni kilsələrinin albanlaşdırılması" ilə bağlı yalan mövqeyinə aydınlıq gətirməyə çağırıb.**

Söhbətin hansı "yalan"dan getdiyinə aydınlıq gətirməkdən ötrü əvvəlcə oxucuları ermənilərin qıcığına səbəb olan məqalə ilə tanış edək. Deməli, bu günlərdə Vatikanın yeganə rəsmi mətbu orqanı olan "L'Osservatore Romano" qəzetində "Xristianlığın köklərində. Azərbaycanda Alban Apostol Kilsəsinin izində. Qədim Qafqaz Albaniyasına səyahət" sərlövhəli məqalə dərc edilib. Azərbaycana səfər edən qəzetin əməkdaşı Rozzella Fabiani məqaləsində Azərbaycanda xristianlıq, qədim alban irsi, burada yaşayan müxtəlif dini icmaların vəziyyəti, eləcə də tarixi faktlara və həqiqətlərə söykənən fikirlərə geniş yer ayırıb. Müəllif 1836-cı ildə çar I Nikolayın Alban kilsəsini ləğv edib Erməni Qriqorian kilsəsinə tabe etmək barədə qərarını diqqətə çatdırıb.

Məqalədə Qafqazda Alban Apostol Kilsəsinin yaranmasının eramızın IV əsrinə təsadüf etdiyi bildirilir. Vurğulanır ki, qədim Qafqaz Albaniyası şimalda dağlardan cənubda Araz çayına, şərqdə Xəzər dənizindən qərbdə Gürcüstan (o zaman İberiya) sərhədlərinə qədər uzanırdı. "Bu gün ərazisində udi icması sayəsində hazırda da mövcud olan bu qədim kilsənin izlərini aşkarlamaq üçün üç min kilometrə yaxın məsafə qət etdiyimiz Azərbaycan yerləşir. Qafqaz Albaniyası dünyada həvari Faddeyin şagirdi vaiz Yeliseyin yaydığı xristian dinini qəbul edən ilk ölkələrdən biri olub",– yazan müəllif qeyd edir ki, Qüdsün ilk patriarxı Müqəddəs Yaqub tərəfindən Qafqaza göndərilən Yelisey onun öz sözləri ilə desək, Faddeyin ona nəql etdiyi kimi, İsanın həyatından ilhamlanaraq, Qafqazda Şərq ayinli qədim Alban Apostol Kilsəsinin "toxumlarını" səpib.

Bu məqləyə görə "Le Mouvement Arménien" Roma Papasını Vatikanın Azərbaycandakı erməni kilsələrinin albanlaşdırılması ilə bağlı yalan mövqeyinə aydınlıq gətirməyə çağırıb. Sayt Vatikanın "L'Osservatore Romano" qəzetində dərc olunan "Vatikanın yalançı mövqeyini" qəti şəkildə pisləyib. Məqalə müəllifini ittiham tonunda yazılmış müraciətində Qafqaz Albaniyasının tarixi ilə bağlı hər şeyin qədim erməni mənbələrindən götürüldüyü, Azərbaycanın nəzarəti altında olan ərazilərdə qədim erməni kilsələrinin "albanlaşması" fonunda nəşrin belə bir məqaləni çap etməsi "sinizm" adlandırılır.

Vatikanın hayların eyforiya və riyakarlıqla dolu müraciətinə hansı cavabı verəcəyini bilmirik. Amma "Xalq qəzeti" olaraq biz, öz növbəmizdə, cavab əvəzi olaraq, 22 il bundan əvvəl Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dəvəti ilə ölkəmizə rəsmi səfərə gəlmiş Roma papası II İoann Pavelin məhz bu mövzuya birbaşa aidiyyatı olan çıxışını ermənilərin diqqətinə çatdırırıq:

"Mən bu çox qədim məmləkətə onun mədəniyyətinin zənginliyinə heyranlığımı qəlbimdə hifz edərək gəlmişəm. Rəngarəngliyi və Qafqaza xas xüsusiyyətləri ilə zəngin olan bu ölkə bir çox mədəniyyətlərin, xüsusilə fars və Altay-Turan mədəniyyətlərinin sərvətlərini özündə ehtiva etmişdir. Bu torpaqda böyük dinlər olmuşdur və indi də var: zərdüştilik qədimdə çox mühüm rol oynayan xristian Alban kilsəsi ilə yanaşı mövcud olmuşdur. Sonralar, İslam getdikcə daha böyük rol oynarmışdır və bizim günlərdə o, Azərbaycan xalqının çox böyük əksəriyyətinin dinidir. İndiyədək yüksək dəyərləndirilən iudaizm də çox qədim zamanlardan bəri özünün təkrarolunmaz töhfəsini vermişdir. Xristianlar kilsənin ilkin yüksəlişi zəifləyəndən sonra da başqa dinlərə etiqad edənlərlə yan-yana yaşamaqda davam etmişlər. Bu, ölkənizin haqlı olaraq fəxr edə biləcəyi dini dözümlülük və qarşılıqlı rəğbət ruhu sayəsində mümkün olmuşdur. Allaha üz tutur və Ona yalvarıram ki, qalmaqda olan gərginlik ocaqları mümkün qədər tez sönsün və hamı haqq-ədalət və həqiqət şəraitində sülhə qovuşsun".

Sonda oxuculara onu da xatırladaq ki, II İoann Pavel katolik kilsəsinin mövcud olduğu iki min ilə yaxın müddət ərzində Azərbaycana səfər edən ilk Roma papası olub.

***İ.HƏSƏNQALA***
***XQ***

Əsrin müqaviləsi – 30

# Azərbaycanın uğurlu neft strategiyası iqtisadi inkişafa təminat yaradır

## *AGG – 6 ayda 61 milyon barel neft*

**(əvvəli 1-ci səhifədə)**

BP şirkəti və tərəfdaşları bu ilin ilk yarısında “Yeni əsrin müqaviləsi” adlandırılan neft layihəsi çərçivəsində də bir sıra uğurlara imza atıblar. Belə ki, hesabat dövründə “Azəri-Mərkəzi-Şərqi” (ACE) platformasından hasilatın başlanması istiqamətində mühüm tədbirlər həyata keçirilib. Bunun da nəticəsində Xəzərdə quraşdırılmış sayca yeddinci hasilat platformasından aprelin ortalarında ilk neft çıxarılıb. Xatırladaq ki, ACE platformasından ilk neft ötən ilin sonunda bu qurğudan qazılmağa başlanmış birinci quyudan əldə edilib. Platformada hazırda bir quyudan gündə, təqribən, 8 min barel neft hasil olunur. Cari ilin sonuna kimi isə ACE platformasından daha iki hasilat quyusunun qazılıb istismara verilməsi planlaşdırılır. Bununla da, sözügedən platformadan hasilatın tədricən artaraq ilin sonuna gündə, təxminən, 24 min barelə çatacağı gözlənilir.



ACE platforması texnoloji və rəqəmsal baxımdan BP-nin dünyada idarə etdiyi ən qabaqcıl platformadır. Platformanın innovativ layihələndirilməsi insan əməyi tələb olunan prosesləri avtomatlaşdırmağa imkan verməklə əməliyyatların daha təhlükəsiz və səmərəli aparılmasını təmin edir. Platforma tam avtomatlaşdırılmış ən müasir qazma qurğusu ilə təchiz olunub. Müasir texnologiya və yeni proseslərin tətbiqi əməliyyatlar nəticəsində yaranan emissiyaları azaltmağa da kömək edir. Qeyd edək ki, ACE platformasının təhlükəsiz şəkildə işə salınması 2017-ci ildə “Azəri-Çıraq-Günəşli” yataqlar bloku üzrə hasilatın pay bölgüsü haqqında sazişin müddətinin uzadılmasından sonra BP və tərəfdaşlarının qəbul etdiyi ilk böyük investisiya qərarının reallaşmasıdır.

Cari ilin yanvar-iyun ayları ərzində “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan neft hasilatı sabit, təhlükəsiz və etibarlı şəkildə davam etdirilib. Hesabat dövründə AÇG-də, ümumilikdə, 144 neft hasilatı quyusu, 45 su injektor quyusu və 8 qaz injektor quyusu istismarda olub. Bu ilin ötən dövründə 7 hasilat platforması vasitəsilə gündə orta hesabla 336 min barel və ya ümumilikdə, təxminən, 61 milyon barel neft çıxarılıb. Ümumi hasilatın 22 min bareli “Çıraq”, 96 min bareli “Mərkəzi Azəri”, 77 min bareli “Qərbi Azəri”, 52 min bareli “Şərqi Azəri”, 57 min bareli “Dərinsulu Günəşli” 29 min bareli “Qərbi Çıraq” və 3 min bareli ACE platformalarının payına düşüb.

İlin ikinci rübündə AÇG-nin illik iş proqramının bir hissəsi olaraq “Dərinsulu Günəşli” platformasında planlaşdırılmış profilaktik işlər proqramı uğurla həyata keçirilib. Proqramın icrası zamanı planlaşdırılmış profilaktik tədbirlərin, təftiş və layihə işlərinin səmərəli şəkildə aparılmasını təmin etmək məqsədilə platformadan hasilat 13 gün ərzində dayandırılıb. Platformanın təhlükəsiz, etibarlı və ətraf mühitə ziyan vurmadan uzun müddət istismar qabiliyyətini davam etdirə bilməsi məqsədilə aparılmış bu proqram tam təhlükəsiz şəkildə və vaxtından əvvəl başa çatdırılıb.

AÇG-də neft hasilatının sabit saxlanılması məqsədilə konsorsium iştirakçıları tərəfindən qazma əməliyyatları da nəzərdə tutulmuş qrafikə uyğun davam etdirilib. Belə ki, 6 ay ərzində müqavilə sahəsində 9 neft hasilatı və 1 su injektor quyusu tamamlanaraq istismara daxil edilib.

2024-cü ilin birinci yarısında AÇG və “Şahdəniz” yataqlarından neft və qazın sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına göndərilməsi davam etdirilib. Hesabat dövründə AÇG-dən Azərbaycan dövlətinə, əsasən, Səngəçal terminalından, həmçinin “Neft Daşları”ndakı qurğu vasitəsilə gündə orta hesabla 6,4 milyon kubmetr, ümumilikdə, isə 1,2 milyard kubmetr səmt qazı təhvil verilib. Hasil edilən səmt qazının qalan hissəsi isə təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

Bu ilin ilk yarısında “A22z” qiymətləndirmə quyusundan əldə olunmuş məlumatlar əsasında “Azəri-Çıraq-Günəşli” strukturunda sərbəst təbii qaz ehtiyatlarının gələcək işlənməsi üzrə planlaşdırma işləri də davam etdirilib. Xatırladaq ki, ötən il fevralın 7-də qazma işlərinə başlanmış həmin quyu cəmi iki ay ərzində–aprel ayında tamamlanmışdı. AÇG strukturunun cənub cinahındakı dərin layları hədəfləyən bu quyu “Çıraq” platformasından bir injektor quyusunun yan lüləsi kimi qazılmışdı. Artıq sərbəst qazın işlənməsi üçün aparılan kommersiya müzakirələri yekunlaşıb. İlkin hasilat quyusunun qazılmasına isə bu il ərzində başlanması planlaşdırılır.

2024-cü ilin ilk yarısında Səngəçal terminalından 110 milyon bareldən çox neft və kondensat ixrac olunub. Bu həcmlərin Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri ilə nəql edilib. Xam nefti dünya bazarına çıxaran BTC əvvəlki dövrlərdə olduğu kimi, 2024-cü ilin yanvar-iyun aylarında da fəaliyyətini uğurla davam etdirib. “BP-Azərbaycan” şirkətinin bu ilin birinci yarısının nəticələrinə dair hesabatına əsasən, konsorsium iştirakçıları tərəfindən BTC üzrə əməliyyat tədbirlərinə 70,5 milyon dollar, əsaslı məsrəflərinə isə 17,7 milyon dollar xərclənib.

Hesabat dövründə BTC vasitəsilə ixrac olunmuş, təqribən, 14 milyon ton xam neft və kondensat Ceyhan terminalında 150 tankerə yüklənərək dünya bazarlarına yola salınıb. Bütövlükdə isə, 2006-cı ilin iyun ayında istismara verilmiş 1768 kilometr uzunluğunda olan BTC kəməri vasitəsilə 2024-cü ilin ikinci rübünün sonunadək 576 milyon ton (4,3 milyard bareldən çox) xam neft nəql edilib. Xam neft Ceyhanda 5707 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Hazırda BTC, əsasən, Azərbaycandan AÇG nefti və “Şahdəniz” yatağından çıxarılan kondensatı daşıyır. Bundan əlavə, adı çəkilən kəmər vasitəsilə Qazaxıstan və Türkmənistana məxsus xam neft və kondensat, eləcə də SOCAR-ın AÇG-dən kənar hasilat həcmləri də nəql olunur.



# “S&P Global Ratings” ölkəmizin iqtisadi artım proqnozunu açıqlayıb




**(əvvəli 1-ci səhifədə)**

“S&P Global Ratings” əvvəlki hesabatında Azərbaycanda 2025-ci ildə nominal ÜDM-I 2 faiz real artımla 130 milyard manat (77 milyard ABŞ dolları), 2026-cı ildə 1,5 faiz real artımla 135 milyard manat (79 milyard ABŞ dolları), 2027-ci ildə isə 1,5 faiz real artımla 140 milyard manat (82 milyard ABŞ dolları) səviyyəsində proqnozlaşdırmışdı. Qurumun proqnozuna əsasən, ölkəmizdə 2024-2025-ci illərdə adambaşına ÜDM-in 7,4 min ABŞ dolları (real artım müvafiq olaraq 1,5 faiz və 1 faiz), 2026-cı ildə 7,6 min ABŞ dolları (0,5 faiz), 2027-ci ildə isə 7,8 min ABŞ dolları (0,5 faiz) səviyyəsində olacağı gözlənilir.

Yeri gəlmişkən, Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar-iyun aylarında Azərbaycanda 59 milyard 520,4 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,3 faiz çox ümumi daxili məhsul istehsal olunub. Hesabat dövründə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,6 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 6,9 faiz artıb. İlin birinci yarısında əhalinin hər nəfərinə düşən ÜDM 5 min 840,7 manata bərabər olub.

Azərbaycan hökuməti cari ildə ÜDM istehsalını 121,3 milyard manat, o cümlədən qeyri-neft gəlirlərini 84,7 milyard manat səviyyəsində proqnozlaşdırır. Xatırladaq ki, ötən il ölkədə ÜDM 1,1 faiz artaraq 123 milyard manat (72 milyard ABŞ dolları), adambaşına düşən gəlir isə 0,5 faiz artaraq 7,1 min ABŞ dolları təşkil edib.

“S&P Global Ratings” agentliyinin son hesabatında isə Azərbaycanın 2024-2025-ci illər üçün iqtisadi artım perspektivlərinin bir qədər zəif olduğu bildirilib. S&P analitikləri qeyd ediblər ki, iqtisadi artıma təzyiq, əsasən, neft hasilatının uzunmüddətli tədricən azalması ilə əlaqədardır. Bununla belə, agentlik Azərbaycanda iqtisadi artımla bağlı gözləntilərinin aşağı olmasına baxmayaraq, il ərzində bank sektorunda 10-15 faiz artımın baş verəcəyi qənaətindədir. Qurumun analitikləri ölkəmizin bank sektorununun böyüməsini böyük ölçüdə istehlak kreditləşməsinin artımı ilə əlaqələndirilər.

Beynəlxalq kredit reytinq agentliyinin hesabatında, həmçinin Azərbaycanın bank sisteminin maliyyələşdirmə profilinin gücləndiyi vurğulanıb. “2016-cı ildən bəri biz pərakəndə və ya korporativ depozitlərin əhəmiyyət ölçüdə xaricə getdiyini görməmişik. Düşünürük ki, əsas müştəri depozitləri növbəti bir neçə il ərzində kreditləri maliyyələşdirəcək və xarici maliyyələşdirmə ehtiyacını aradan qaldıracaq”, – deyə hesabatda bildirilib. Azərbaycanda depozitlərin dollarlaşmasının region ölkələri ilə eyni səviyyəyə enməsinə diqqət çəkən analitiklərin fikrincə, qeyri-rezident depozitlərinin həcmi 5 faiz təşkil edir ki, bu da region ölkələrindən aşağıdır.



# SOCAR Sloveniyaya qaz ixracına başlayıb

**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Sloveniyaya qaz tədarükünə başlayıb. Bu barədə qurumun socar.az saytı məlumat yayıb.**

Bildirilib ki, qaz tədarükləri bu il iyulun 17-də SOCAR ilə Sloveniyanın təbii qaz bazarındakı ən böyük şirkət olan “Geoplin” arasında qaz təchizatı sahəsində əməkdaşlığın genişləndirilməsinə dair Anlaşma Memorandumu əsasında həyata keçirilir.

“SOCAR və “Geoplin” uzunmüddətli enerji tərəfdaşlığını daha da inkişaf etdirmək niyyətindədirlər. Beləliklə, Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan və Serbiya ilə birlikdə Sloveniya Azərbaycan qazının nəql olunduğu doqquzuncu ölkə olur”, – deyə məlumatda qeyd edilib.

Yeri gəlmişkən, Sloveniyanın ətraf mühit, iqlim və energetika naziri Boyan Kumer Lyublyanada Azərbaycan qazının tədarükü ilə bağlı SOCAR ilə bağlanmış müqaviləni şərh edərkən deyib ki, ölkəsi qarşıdan gələn qış üçün Azərbaycan qazı hesabına öz təhlükəsizliyini təmin edib. Bu və sonrakı sazişlərin təkcə iki şirkət arasında deyil, həm də iki ölkə arasında uzunmüddətli uğurlu əməkdaşlığa gətirib çıxaracağına əminliyini bildirən nazir qeyd edib ki, Sloveniya təbii qaz təchizatı marşrutlarını şaxələndirməyə davam edir. “Bunun sayəsində biz, sözün həqiqi mənasında, Sloveniyanı qarşıdan gələn qış üçün xilas etdik və təhlükəsiz şəkildə təbii qazla təminatına nail olduq, – deyə o əlavə edib.

Azərbaycanın Avropa İttifaqının daha vacib strateji təchizatçısı kimi Sloveniyaya qaz tədarükünün şaxələndirilməsi üçün əlavə imkan yaratdığını vurğulayan B. Kumer onu da qeyd edib ki, iyulun 17-də Bakıya səfəri zamanı Azərbaycanın energetika naziri Pərviz Şahbazov ilə iki ölkənin şirkətləri arasında digər sahələrdə əməkdaşlıq imkanları üçün səy göstərmək barədə razılıq əldə olunub. Onun sözlərinə görə, görüş zamanı hidrogen, süni intellektdən tutmuş bərpaolunan enerjiyə qədər yeni əməkdaşlıq sahələri müəyyən edilib.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*




## “Yaşıl dünya” naminə həmrəylik



# COP marafonunun 29-cu Bakı finişi




**Planetdə sənayeləşmənin sürətlənməsi, iqtisadi artımın baş verməsi və əhalinin artması istixana qazları emissiyalarının artmasına gətirib çıxarıb ki, bu da iqlim dəyişikliyini şərtləndirib. Belə bir şərait isə təbii ki, qlobal səviyyədə ciddi narahatlıq yaradaraq aktual problemə çevrilib.**

Bəs vəziyyətdən çıxış yolu barədə nə demək olar? Ekspertlərin fikrincə, mövcud təhlükəni inkişaf etməkdə və inkişaf edən ölkələrin birgə səyi ilə aradan qaldırmaq və dövlətlərin bu sahədə öhdəliklərinin icrasına ciddi nəzarət mexanizmləri hazırlayıb hərəkətə gətirməkdir.

Mütəxəssislərin fikrincə, bu məsələdə müəyyən təməl prinsipləri var və həmin prinsiplərə sadiqlik nümayiş etdirilməsi zəruri şərtlərdən biridir. Bu fikri bildirərkən, ilk növbədə, 2015-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası çərçivəsində qəbul edilən Paris sazişi xatırlanır. Paris sazişində qlobal istiləşmənin 2°C-dən aşağı saxlanılması və 1,5°C ilə məhdudlaşdırılması qarşıya mühüm vəzifə kimi qoyulur. Ekspertlərə görə, adıçəkilən saziş çərçivəsində davamlı təşəbbüslər göstərilməsə, emissiyaların azaldılması üzrə hazırlanan planların icrasına səmərəli nəzarət mexanizmi yaradılmasa, məqsədin reallaşması qeyri-mümkündür.

Yeri gəlmişkən, ekspertlər tərəfindən iqlim öhdəliklərinin icrasına nəzarət mexanizmlərinə monitorinq, hesabatlılıq və yoxlama sistemləri, maliyyə- texniki dəstək, eləcə də öhdəliklərin qiymətləndirilməsi, onların diqqətlə nəzərdən keçirilməsi kimi prinsiplər daxidir. Bu sadalanan amillərin yüksək səviyyədə gerçəkləşdirilməsi şəffaflığın, hesabatlılığın mövcudluğunu şərtləndirir, eyni zamanda, ölkələr arasında etimad, inam səviyyəsini artırır.

Onu da qeyd edək ki, 2015-ci ildən ötən müddətdə – Paris sazişi qəbul edildiyi vaxtdan indiyədək adıçəkilən sənəddə qarşıya mühüm vəzifə kimi qoyulan qlobal istiləşmənin 2°C-dən aşağı saxlanılması və 1,5°C ilə məhdudlaşdırılması məqsədinə lazımı səviyyədə yanaşılmayıb. Bu, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) iqlim sahəsində tədbirlərinin monitorinqi Beynəlxalq İqlim Fəaliyyəti Proqramının (IPAC) əhatə etdiyi və 51 ölkəyə yönəlmiş iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinin icmalında diqqətə çatdırılıb.

COP29-un müəyyən olunmuş prezidenti, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin Tərəflərə və Həmfikir Qruplara ünvanladığı məktubda da Paris sazişinin qlobal istiləşmənin 2°C-dən aşağı saxlanılması və 1,5°C ilə məhdudlaşdırılması öhdəliyi ilə bağlı məsələyə xüsusi önəm verilib: “Biz 1,5°C hədəfinə hamılıqla nail olmaq və heç kimi geridə saxlamamaq üçün bir çox kəsişən müstəvilərdə birgə və ahəngdar iş nümayiş etdirməliyik. Həmçinin biz iqlimlə bağlı bütün istiqamətlər üzrə irəliləməklə yanaşı, qlobal, regional, milli və sub-milli qrupları da bu prosesə cəlb etməli, dayanıqlı inkişafı hərtərəfli nəzərdən keçirməli və inklüziv nəticələri təmin edən inklüziv proses çərçivəsində bütün demoqrafik qrupları ehtiva etməliyik. Ambisiyanın artırılması və fəaliyyətə təkan verilməsi ilə bağlı COP29-un perspektiv baxışının əsasında məhz bu məqsəd dayanır”.

Yuxarıda adıçəkilən İƏİT-in həmin hesabatı da göstərir ki, iqlim dəyişmələrinin nəticələrinin azaldılması üzrə öhdəliklər Paris sazişinin məqsədlərini gerçəkləşdirmək üçün lazımi səviyyəyə çatmır. Belə ki, Paris sazişinin yüzilliyin sonuna qədər temperaturu 1,5°C-ə qədər məhdudlaşdırmaq hədəfinə nail olmaq üçün 2030-cu ilə qədər istixana qazlarının emissiyalarını qlobal şəkildə 2019-cu illə müqayisədə 43 faiz azaltmaq nəzərdə tutulur. Lakin İƏİT dövlətləri və bu quruma tərəfdaş ölkələr tərəfindən 2020-ci il emissiyaları ilə müqayisədə tullantıları müvafiq olaraq 28 faiz və 5 faiz azaltmaq öhdəlik kimi qəbul edilir.

Yuxarıda adıçəkilən hesabatda vurğulanır ki, Paris sazişinin hədəfini reallaşdırmaq üçün proqnozlaşdırmaya əsaslanmaqla İƏİT və təşkilatın tərəfdaşı ölkələr emissiyaların azaldılması üzrə çəqsədləri, ümumilikdə, ən azı daha 30 faiz artırmalıdır.

İcmalda, həmçinin bildirilir ki, qəbul olunan və İƏİT-in riayət etdiyi iqlim qərarlarının artım sürəti 2022-ci ildə ləngiyib. Həm adıçəkilan təşkilat, həm də bu qurumla tərəfdaş ölkələrin keçirdikləri milli iqlim tədbirlərinin artım sürəti 2022-ci ildə yalnız 1 faiz artıb. 2000-2021-ci illər ərzində qəbul edilən qərarların orta artım sürəti isə 10 faiz olub.

Ekspertlərin bununla bağlı rəylərində İƏİT-in diqqət mərkəzində saxladığı iqlim qərarlarındakı artım sürətində nəzərə çarpan ləngimənin qarşısını almaq üçün, ilk növbədə, ölkələrin mövcud siyasətlərini sərtləşdirmək və ya hazırda geniş istifadə olunmayan yeni strategiyalar qəbul etmək zəruri sayılır. Eləcə də bu zaman tikinti və nəqliyyat sektorlarında karbon qiymətlərinin müəyyənləşdirilməsi, qadağalar və qazıntı yanacağı hasilatı və ya yaxud qazıntı yanacağına əsaslanan infrastrukturdan mərhələli imtina problemin həllində önəmli amillər hesab edilir.

İƏİT-in iqlim sahəsində tədbirlərin monitorinqi icmalında, eyni zamanda, 14 ölkənin 2010-2020-ci illər ərzində emissiyalarının artması, Braziliya, Çin Xalq Respublikası, İndoneziya və Hindistan kimi ölkələrdə emissiyaların hələ də yüksəldiyi, amma gözlənilən pik həddə çatmadığı vurğulanır. Yeri gəlmişkən, icmalda 2020-ci ildə emissiyaların artımının 2010-cu il səviyyəsi ilə müqayisədə Çində 34 faiz, Hindistanda isə 37 faiz olaraq qiymətləndirilir.

Bu məqamda Ümumdünya Səhiyyə Təşkilatının məlumatına da diqqət yetirmək yerinə düşər. Bildirilir ki, hər il 8 milyon insan ekoloji təsirlər üzündən həyatını itirir. Hazırda atmosferə ən çox karbon emissiyaları buraxan ölkələr dünyanın ən inkişaf edən dövlətləridir. Məsələn, Çin 14 milyard tondan çox, ABŞ 6 milyard ton, Hindistan 3,5 milyard ton, Avropa Birliyi 3,4 milyard ton, Rusiya 2 milyard ton, Yaponiya isə 1,170 milyard ton $CO_2$ emissiyası buraxır.

Mütəxəssislərin məlumatına əsasən, qlobal istixana qazı emissiyalarının 29 faizini təşkil edən 22 İƏİT dövlətində və 8 İƏİT tərəfdaş ölkəsində 2022-ci ildə iqlim dəyişmələri ilə mübarizə tədbirləri aktivləşdirilib. Bu, ilk növbədə, sıfır emissiyalar üzrə yeni və ya gücləndirilən öhdəliklər hesabına reallaşdırılıb.

Bildirilir ki, iqlim öhdəliklərinin icrasına səmərəli nəzarət mexanizmləri Paris sazişinin məqsədlərinə və qlobal iqlim dayanıqlılığına nail olmaq üçün əsasdır. Monitorinq, hesabatlılıq və yoxlama ölkələrə və beynəlxalq ictimaiyyətə irəliləyişi izləmək, problemləri aşkarlamaq və iqlim dəyişikliyi ilə daha səmərəli mübarizə üçün strategiyaları tənzimləmək şəraiti yaradır.

Texniki və maliyyə potensialının inkişafı, eləcə də inkişaf etməkdə olan ölkələrə dəstək iqlim öhdəliklərinin uğurla həyata keçirilməsində əsas rol oynayır. Bundan başqa, qiymətləndirmə və nəzərdən keçirmə mexanizmləri ölkələrin öz planlarını təkmilləşdirməsinə və əldə edilmiş təcrübəyə, habelə yeni elmi sübutlara əsaslanaraq ambisiyalarını yüksəltməyə imkan verir.

Gələcəkdə dəyişən iqlim çağırışlarına adekvat cavab verilməsi üçün nəzarət mexanizmlərinin gücləndirilməsi və təkmilləşdirilməsi davam etdirilməlidir. Beynəlxalq ictimaiyyət iqlim hədəflərinə nail olmağa və ortaq gələcəyi qorumağa kömək edəcək daha ədalətli və dayanıqlı sistemin qurulması üzərində aktiv şəkildə çalışmalıdır.

# İnnovasiyanın təkmilləşdirilməsi prioritet istiqamətdir




**“Azərbaycan bu gün enerji sektorunda transformasiya həyata keçirməyə çalışır”. “The Guardian” nəşrinin ətraf mühit üzrə şöbəsinin redaktoru Fiona Harvinin qəzetdə dərc olunan məqaləsi bu sözlərlə başlayır. Müəllif yazıda ölkəmizin enerji sektorunda, həmçinin neftdən asılı olan digər ölkələrin iqtisadiyyatlarında tezliklə transformasiya həyata keçiriləcəyinə ümid bəslədiyini diqqətə çatdırır.**

“BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) neft hasil edən ölkədə keçirilməsi qeyri-adi deyil. Ötənilki ev sahibi dünyanın yeddinci ən böyük qaz ehtiyatına malik Birləşmiş Ərəb Əmirlikləri idi. Bundan əvvəl isə müxtəlif vaxtlarda bir çox digər qalıq yanacaq istehsal edən ölkələr (Böyük Britaniya, Qətər, Kanada və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının hazırlanması zamanı Braziliya) COP-a evsahibliyi ediblər”,-deyə F.Harvi vurğulayıb.

“The Guardian” nəşrinin əməkdaşı məqalədə bildirib ki,Azərbaycan hökuməti qlobal temperatur artımını 1,5°C səviyyəsində məhdudlaşdırmağa çalışması onun neft və qaz ixracatçısı olması ilə heç bir ziddiyyət təşkil etmir. “Düşünmürəm ki, neft hasilatı və istifadəsi ilə bağlı məzəmmət etmək yaxşı fikirdir. Bəli, biz neft-qaz ölkəsiyik, bu, bizim tariximizdir. Amma biz çox şey edirik. Biz yeni paradiqmaya sadiqik və güclü istəyimiz var”, - müəllif məqalədə COP29-un İqlim üzrə Yüksək Səviyyəli Çempionu Nigar Arpadarainin sözlərini sitat gətirib.

N.Arpadarai vurğulayıb ki, neft və qaz hasil edən ölkələrin iştirakı olmadan iqlim böhranı ilə mübarizədə irəliləyiş mümkün deyil: “Bizə həmrəylik lazımdır. Bütün ölkələr birlikdə iqlim üzrə gündəliyin həyata keçirilməsinə çalışmalıdırlar”.

F.Harvi daha sonra xatırladıb ki, ötən ay Azərbaycan iqlim böhranından əziyyət çəkən inkişaf etməkdə olan ölkələr üçün fond yaratmağı təklif edib və ümid edib ki, digər ölkələr də bu fonda vəsait ayıracaqlar: “COP29-da əsas məsələ tullantıları azaltmaq və s. olacaq. Bunlar üçün ildə trilyonlarla dollar tələb olunacaq. Lakin indiyədək zəngin inkişaf etmiş dünya hər il 100 milyard dollar verməklə bağlı uzunmüddətli öhdəliyini çətinliklə yerinə yetirib”.

**Çinin iqlimə davamlı aqroekosistemlərin yaradılmasındakı uğuru suvarma problemi ilə üzləşən ölkələr, o cümlədən Azərbaycan üçün yaxşı nümunə ola bilər.**

# Müasir suvarma üsullarının tətbiqi bu sahədə itkiləri azaldır

Bu barədə ölkə mediasına müsahibəsində Çinin Lançjou Universitetinin iqlim üçün optimallaşdırılmış kənd təsərrüfatı sahəsi üzrə eksperti Adnan Arşad bildirib. Ekspert Azərbaycanı nümunə göstərərək, suvarma problemi olan ölkələrdə tətbiq



oluna biləcək bir neçə konkret metodun adını çəkib. Onun fikrincə, suya qənaət edən suvarma üsullarının tətbiqi sudan istifadəni optimallaşdırmağa və itkiləri azaltmağa kömək edir: “Bura damcı suvarma sistemi və çiləmə kimi üsulların tətbiqi daxildir. Bu cür üsullar suyu birbaşa bitki köklərinə çatdırır, buxarlanmanı minimuma endirir və istifadənin səmərəliliyini artırır”.

Ekspert, həmçinin suyun yığılması ilə bağlı texnologiyaların inkişaf etdirilməsi, əkinlərin şaxələndirilməsi, bilik mübadiləsi və məhsul təlimi proqramlarının təşviqi zərurətini də vurğulayıb: “İqlim, suyun mövcudluğu, yerli sosial-iqtisadi amillər nəzərə alınmaqla bu üsulların Azərbaycanın konkret şərtlərinə uyğunlaşdırılması vacibdir”.

Bakıda keçiriləcək COP29-dan gözləntiləri barədə danışan A.Arşad qeyd edib ki, optimallaşdırılmış kənd təsərrüfatı sahəsinin maliyyələşdirilməsi ilə bağlı vəsaitlər artırılmalıdır. Qarşıdan gələn BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) təşəbbüsləri üçün artan maliyyə resurslarının prioritetləşdiriləcəyi və reallaşdırılacağı mühüm önəm daşıyır. Bura tədqiqat və inkişaf üçün maliyyə, potensialın artırılması, texnologiya transferi və iqlim dəyişikliyinə uyğunlaşmanı yaxşılaşdıran davamlı kənd təsərrüfatı təcrübələrinə investisiya daxildir.

# Xəzərdə külək potensialının ölçülməsi işlərinə başlanılıb

**“Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda nəzərdə tutulan “Dənizdə külək enerjisi potensialının araşdırılması və potensialdan istifadə istiqamətində hazırlıq tədbirlərinin həyata keçirilməsi” fəaliyyət istiqamətinə uyğun olaraq müəyyənləşdirilən ərazilərdə ölçmələrə başlanılması üzrə işlər yekunlaşmaq üzrədir.**



Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyindən aldığımız məlumata əsasən, bu istiqamətdə ölçü-müşahidə işlərinin aparılması üçün Finlandiyanın “Vaisala” şirkəti tərəfindən ölkəyə 2 ədəd “LiDAR” (Light Detection and Ranging) qurğusu gətirilərək nəzərdə tutulan ərazidə quraşdırılıb. Qurğu lazer şüalarından istifadə edərək 10 kilometr məsafəyədək tələb olunan nöqtələrdə küləyin sürətini və istiqamətini müəyyənləşdirmək üçün istifadə olunur.

Məlumata görə, “LiDAR” qurğusu fərqli nöqtələrdə virtual ölçü-müşahidə dirəyi yaradaraq 75 metr, 150 metr və 225 metr hündürlüklərdə küləyin sürətini ölçəcək.

Sözügedən şirkət tərəfindən “LiDAR” qurğularının öyrənilməsi” üzrə nəzəri və praktiki təlim keçirilib.

# İordaniya səfiri ilə COP29-a hazırlıq müzakirə edilib



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, İordaniya Haşimilər Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ömər Bərəkət əl-Nahar ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevlə görüşüb.**

Bildirilib ki, görüşdə bu ilin noyabr ayında Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq tədbirləri ətrafında fikir mübadiləsi aparılıb. Görüş zamanı, eyni zamanda, iki ölkə arasında ətraf mühitin mühafizəsi sahəsində gələcək əməkdaşlıq imkanları müzakirə edilib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Yerlərdə qadın sahibkarlar: Onlara "yaşıl işıq!"



**Fəaliyyətinin 25 ili tamam olan "Qadın və Müasir Dünya" Sosial Xeyriyyə Mərkəzi İctimai Birliyi Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Kənd yerlərində qadınların sahibkarlıq fəaliyyəti" adlı layihəni başa çatdırıb. Layihə Şamaxı, İsmayıllı, Ağsu və Qobustan rayonlarında yaşayan gənc qızlar və qadınların iştirakı ilə həyata keçirilib. İctimai birliyin sədri S. Şirəliyeva həyata keçirilən layihə ilə bağlı söhbətində dedi:**

– Azərbaycanda qadın sahibkarlığının inkişafının təhlilinə, mövcud problemlərin müəyyənləşdirilməsinə, iqtisadiyyatın bu mühüm sahəsinin gələcək inkişaf perspektivlərinin nəzərdən keçirilməsinə və keçirdiyimiz təlimlərə nəzər saldıqda nələri müşahidə edirik? Müasir çağırışlar və biznes mühitində baş verən dəyişikliklər kontekstində qadın sahibkarlığı təkcə iqtisadi qüvvə olmaqla yanaşı, həm də sosial-mədəni aktuallıq kəsb edir. Təəssüf ki, biz Azərbaycan regionlarında qadınların sahibkarlıq fəaliyyətini məhdudlaşdıran – stereotiplər, maliyyə və bacarıqları artırmaq üçün resurslara çıxışın və şəbəkə dəstəyinin qeyri-kafi olması kimi amillərlə qarşılaşdıq. Bu maneələr araşdırma tələb edir. Bununla belə bu sahədə müsbət irəliləyişləri, o cümlədən qadınlar arasında sahibkarlığa marağın artması, KOBİA-da dəstək proqramlarının hazırlanması, qadınların biznesdə rolu ilə bağlı ictimai rəydə dəyişikliklər də gördük.



Təlimlər zamanı KOBİA-nın Dağlıq Şirvan Regional Mərkəzinin rəhbəri Cavanşir Məhərrəmov, Ağsu rayonu üzrə nümayəndəsi Abas Abasov, Dövlət Vergi Xidmətinin 4 saylı Ərazi Vergilər İdarəsindən Nazim Şirvanov, Qubad Qubadov və Qalib Kərimli iştirak edib, qadın sahibkarları maraqlandıqları məsələlərlə bağlı məlumatlandırdılar. Əminik ki, qadınlarımız bu əməkdaşlıqdan faydalanacaqlar.

**– Bölgələrdə qadınların sahibkarlıq fəaliyyəti üçün əlverişli mühit yaranıbmı?**

– Qadınların sahibkarlıq fəaliyyətinə əngəllərin azaldılmasına və onların inkişafının stimullaşdırılmasına yönəlmiş siyasət və dəstək tədbirlərinin işlənib hazırlanması vacibdir. Gələcəkdə bu sahədə regionlardakı qadınlar üçün daha davamlı təlimlər təşkil olunmalıdır. Qadın sahibkarlar üçün əlverişli mühitin yaradılması təkcə biznes ideyalarının və innovasiyaların müxtəlifliyinə deyil, həm də onların ölkənin iqtisadi inkişafında iştirak etmələri üçün bərabər imkanların yaradılmasına fayda verər. Qadın sahibkarlığın inkişafı ilə bağlı problemlərin və perspektivlərin başa düşülməsi, məhdudiyyətlərin aradan qaldırılması və ölkədə qadın biznesinin inkişafı üçün effektiv siyasətin və dəstək tədbirlərinin hazırlanmasına kömək edər.

İsmayıllı qadınları üçün iyulun 10-da, qobustanlılar üçün 18-də baş tutan təlimlərdə kənd yerlərində yaşayan qadınların iqtisadi həyatda fəal iştirak etmələri, sahibkarlıq və bacarıqların inkişaf etdirilməsi üçün iqtisadi imkanların genişləndirilməsi məsələləri müzakirə edildi. Ümid edirik ki, bu layihə sahibkar qadınlara və onların həmkarları üçün yeni iş yerləri yarada və onlara öz icmalarının üzləşdiyi problemlərin öhdəsindən gəlməyə kömək edəcək. Qadınlar cəmiyyətdə dəyişikliklərin mühüm amilidir. Qadın sahibkarların potensialından istifadə Azərbaycanın dayanıqlı və inklüziv inkişafı üçün mühüm əhəmiyyət kəsb edər. Qadın sahibkarlara daha çox dəstək verilməsi təkcə sosial baxımdan deyil, həm də iqtisadi baxımdan vacibdir. Qadınlar ölkə əhalisinin yarısını təşkil etdiyindən və ümumiyyətlə, kişilərdən daha aşağı gəlirlərə və iqtisadi iştirak səviyyəsinə malik olduğundan onların cüzi qazancı belə ümumi iqtisadi artıma əhəmiyyətli təsir göstərir. Bütün sahələrdə daha çox gender bərabərliyinə nail olmaq əmək bazarında gənc qadınların və kişilərin vəziyyətinin yaxşılaşdırılması üçün xüsusilə vacibdir. Sahibkarlıq həm də qadınların öz iqtisadi müstəqilliklərini təmin etmələri üçün yaxşı imkandır. Öz müəssisələrini idarə etmək, həm də onlara həmfikir qadınlarla ünsiyyət qurmaq, təcrübə mübadiləsi aparmaq və sosial həyata daha çox cəlb olunmaq imkanı verir ki, bu istiqamətdə rayon və ya mühafizəkar icmalarda çətinliklər mövcuddur.

**– Çətinliklərin aradan qaldırılması üçün mövcud imkanlardan istifadə etmək fayda verərmi?**

– Hesab edirik ki, kənd qadınları üçün regional Biznes Resurs Mərkəzlərinin yaradılması vacibliyi dövlət qurumlarının diqqət mərkəzində olmalıdır. Qadınlar üçün mərkəzlərdə "Mühasibat uçotunun əsasları", "Maliyyə bacarıqları və ailə büdcəsinin tənzimlənməsi", "Qadın sahibkarlıq təşkilatlarının potensialının dəstəklənməsi", "Kompüter bacarıqları", "Biznes plan nədir?", "Kənd qadınlarının məlumat və xidmətlərə çıxış imkanlarının artırılması" üzrə təlimlər və kurslar təşkil edilməlidir. Bu mərkəzlər ölkənin bütün kənd yerlərində iqtisadi fəal qadınlar arasında pilot layihəyə başlamalı, onların şəbəkələşməsini dəstəkləməli, biznes və sosial imkanlarını genişləndirməyə kömək etməlidir. Ümumilikdə, bu, çətin prosesdir və çoxlu maliyyə tələb edir. İki aylıq az büdcəli layihə ilə kənd qadınlarının sahibkarlığa başlamaları və inkişaf etmələrini təşkil etmək asan deyil. Bu, ancaq arzuların kiçik bir hissəsini həyata keçirməyə imkan verər və onların arzusu xəyal olaraq qala bilər. Layihəmizin məqsədi informasiyadan kənar qalmış qadınları sahibkarlıq sahəsində böyük imkanlardan istifadə etməyə cəlb etməkdir.

Ağsu rayonunda 20-dən çox qadının iştirak etdiyi təlimdə biznes-planların hazırlanması, biznesin təşkili və idarə edilməsi, layihələrinin hazırlanması, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı, ixrac bazarlarına çıxış imkanları, layihələrin idarə edilməsi və bacarıqların inkişaf etdirilməsi barədə ətraflı məlumatlar verildi. Bu tədbirlər çərçivəsində iştirakçıları maraqlandıran suallar cavablandırıldı. Müşahidə etdik ki, bu gün kənd qadınları çox aktivdirlər. Həmin qadınların yeni iş yerləri tapmaları üçün yalnız bilik və bacarıqları artırılmalıdır.

**– Kənd qadınlarının əsas problemini nədə görürsünüz?**

– Son təlimlərimiz Şamaxıda baş tutdu. Orada daha çox müşahidə etdik ki, kənd yerlərində yaşayan qadınların əsas problemi yoxsulluq və işsizlikdir. Bir də kənd yerlərində şəhərlərə nisbətən məişət zorakılığı daha çoxdur. Qadınlar iqtisadi problemlərdən də əziyyət çəkirlər. Onlar xırda məvaciblə ailələrini dolandırmalı olurlar. Doğrudur, rayonlarda başqa iş yerlərinin sayı da azdır. Az sayda qadın xırda sahibkarlıqla məşğul olur. Onlara dövlət dəstəyi yoxdur. Bu qadınların mikrokreditlərə əlçatanlığı çox aşağıdır. Kəndlərdə kiçik sahibkarlıqla məşğul olmaq üçün çox yaxşı imkanlar var, ancaq maliyyə yoxdur. Qadınların yoxsulluğun aradan qaldırılması proqramlarına cəlb olunması da kampaniya xarakteri daşıyır, mikrokreditlərə əlçatanlıq olsa, onlar yüksək səviyyədə qərarların qəbul edilməsində rol oynaya bilərlər.

Yoxsulluğun aradan qaldırlmasında gender məsələsi nəzərə alınmalıdır. Qadınlar bölgələrdə yüksək vəzifələr tuta bilmir. Onların sahibkarlıq fəaliyyətinin inkişafı, hüquqlarının qorunması və layiqli əməyin təmin olunması, müasir dövrün və əmək bazarının tələblərindən irəli gələn istiqamətlər üzrə maarifləndirici layihələrin həyata keçirilməsi 25 illik təcrübəyə malik QHT – nin iqtisadi sahədə qadınların gücləndirilməsi üçün atdığı addımlardan sadəcə bir hissəsidir.

Sahibkar yenilik və yaradıcılıq anlayışlarını özündə birləşdirən şəxsdir. Sahibkarlıq maliyyə, fiziki və sosial riskləri olan kifayət qədər səy və vaxt sərf edərək yeni dəyər yaratmaqdır. Bu fəaliyyət növündə qadınların aktivliyi artan dinamika ilə inkişaf edir. Qadınların iqtisadiyyatda rolunun artırılması həm də BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin 17 hədəfindən biridir.

*Müsahibəni apardı:*
***Zərifə HÜSEYNOVA***
***XQ***

REPORTAJ

# Həm ahıllar razıdırlar, həm də uşaqlar



**Bakının simasını daha da gözəlləşdirən istirahət guşələrindən biri də Nərimanov adına parkdır. Göz oxşayan dizaynda yenidən qurulmuş park artıq sakinlərin sevimli məkanlarından birinə çevrilib.**

Burada insanların asudə vaxtlarını səmərəli keçirmələri üçün müxtəlif istirahət guşələri, uşaqların doyunca əylənə bilmələri üçün atraksionlar quraşdırılıb, həmçinin uzun müddət yararsız vəziyyətdə olan fəvvarə meydanı yenidən qurularaq istifadəyə verilib.

Sakinlərin park haqqında fikirlərini öyrənmək üçün bura üz tutduq. Ətraf insanlarla dolu idi. Yaşlı insanlar skamyalarda əyləşib söhbət edir, uşaqlar və gənclər isə əylənirdilər.



**Nəvələrini parka gəzməyə gətirən nurani bir kişi diqqətimizi cəlb etdi. Yaxınlaşdıq. Parkla bağlı fikirlərini öyrəndik. 67 yaşlı Rafiq baba hələ institutda oxuduğu illərdə bu parka dincəlməyə gəldiyini dedi:**

– Tələbə vaxtı həftə sonu bir-iki saat dincəlmək üçün bu parka gələrdim. Bu gün isə nəvələrimin əlindən tutub onları gəzdirməyə gətirmişəm. Təmirdən sonra, ilk dəfə bura gəlirik. Buranı çox bəyənirik.

**Başqa bir müsahibim - Arzuman dayı buranın dincəlmək üçün daha sakit bir məkan olduğunu dedi:**

– Əvvəllər parkda o qədər səs-küy olurdu ki, rahat oturub dincələ bilmirdik. İndi isə belə deyil. Sakitlikdir. Mərkəzdə qurulmuş fontanı seyr etmək, saatlarla suyun səsini dinləmək insana böyük zövq verir.

Parkı başdan-başa gəzdikdən sonra, uşaqların və valideynlərin bir yerə yığışdığı məkana getdik. Buradakı atraksionlar, idman qurğuları elə gözəl və cəlbedici idi ki, lap uşaq olmaq istədim...

**Balacaların üzündəki təbəssüm, yaşadıqları sevinc hissi nəyə desən dəyərdi. Dostları ilə bolluca əylənən balaca qızcığaz qaça-qaça yanıma gələrək ingilis dilində dedi:**

– Adım Nasdır. Amerikada yaşayıram. Hər il bura baba və nənəmi görməyə gəlirəm. Bu gün nənəm məni parka gətirdi. Bura çox gözəldir.

**Nas sonra dedi ki, onun artıq burada çoxlu dostları var. Sonra rəfiqələri Mədinə və Reyhanı təqdim etdi:**

– Biz birlikdə oyun qurğularında əylənirik. Birinci dəfədir gəlirəm. Çox xoşuma gəldi.



Sonda onu da qeyd edək ki, ərazisi 4,1 hektar olan park ötən əsrin 50-ci illərində salınıb. 1960-cı illərdə parkın yaxınlığında N. Nərimanov adına metro stansiyası inşa edilib.

...Düşünürük ki, COP29-a evsahibliyi edəcək ölkəmizin paytaxtına təşrif buyuracaq çoxsaylı qonaqlar da bu parkı görəndə məmnun qalacaqlar.

***Fidan SALMANOVA,***
***Elşən AĞALAR (fotolar)***
***XQ***



# Qazaxın Qızılhacılı kəndində mina partlayışı

## *ANAMA-nın əməkdaşları və DSX-nin hərbi qulluqçusu xəsarət alıb*



**Qazax rayonunun Qızılhacılı kəndində mina partlayışı hadisəsi baş verib. Bu barədə Baş Prokurorluq, Dövlət Sərhəd Xidməti və Minatəmizləmə Agentliyi birgə məlumat yayıb.**

Bildirilib ki, avqust ayının 2-də Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası ilə bağlı bu il aprelin 19-da əldə olunmuş razılaşma əsasında ölkəmizə geri qaytarılmış Qazax rayonunun Qızılhacılı kəndində Ermənistan tərəfindən basdırılmış minalar partlayıb.

Hadisə nəticəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu gizir Əhədli Xəyal Ədinəqulu oğlu və Minatəmizləmə Agentliyinin əməkdaşı Mehdizadə Afiq Müşviq oğlu minatəmizləmə işləri zamanı xidməti vəzifələrini icra edərkən piyada əleyhinə mina partlayışı nəticəsində ayaq nahiyələrindən xəsarət alıblar.

Agentliyin əməkdaşları Ələkbərov Elçin İlham oğlu və Mirzəyev Yavər Gəray oğlu isə qəlpə yaraları alıblar.

Xəsarət alan şəxslər ilkin tibbi yardım göstərilməklə dərhal xəstəxanaya çatdırılıblar. Həyatları üçün təhlükə yoxdur.

Hazırda Şəmkir Hərbi Prokurorluğunun və Qazax Rayon Prokurorluğunun əməkdaşları tərəfindən prokuror-kriminalistin iştirakı ilə hadisə yeri müayinə olunur və digər zəruri prosessual hərəkətlər icra edilir.

Faktla bağlı prokurorluq orqanlarında araşdırma aparılır.

***XQ***

# Teatrları daha da dirçəltmək amalı

## Müsahibimiz yazıçı-dramaturq, rejissor, Əməkdar incəsənət xadimi Ağalar İdrisoğludur

**Azərbaycan peşəkar milli teatrı mövcud olduğu əsr yarımlıq müddətdə çətinliklərdən və sınaqlardan keçərək ayaqda qala bilib və mənəvi dünyamızı zənginləşdirib. 1896-cı ildə Milli Teatrımızın yaradıcısı Həsən bəy Zərdabinin "Birinci müsəlman dram truppası", "Artistlər İttifaqı", "Müsəlman Artistlər İttifaqı, 1920-ci ildən "Türk Aktyorlar İttifaqı", 1945-ci ildən "Azərbaycan Teatr Cəmiyyəti" kimi tanınmış təşkilatlar nəhayət, 1987-ci ilin 27 fevral tarixli təsis Konfransının qərarı ilə "Azərbaycan Teatr Xadimləri İttifaqı" (ATXİ) adlandırılıb. Bu gün qurumun fəal üzvlərindən biri də Ağalar İdrisoğludur.**

Onunla bu yaxınlarda ATXİ-nin 15-ci konfransında görüşdük. Öyrəndik ki, Ağalar İdrisoğlu Masallı şəhər 2 nömrəli orta məktəbi bitirib. 1975-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) dram və kino aktyorluğu fakültəsinin məzunu olub. 1986-cı ildə isə Moskvada Anatoli Lunaçarski adına Dövlət Teatr Sənəti İnstitutunun (indiki Beynəlxalq Teatr Akademiyası) rejissorluq fakültəsini bitirib. Peşəkar teatrda 40-dan artıq tamaşada rollar oynayıb, 140-dan çox səhnə əsərinə quruluş verib. Ağalar İdrisoğlu 16 pyesin, 20-dən çox teatrlaşdırılmış tamaşalar üçün ssenarinin, 150-dən artıq hekayə, esse, elegiya, pritçanın, 1500-dən çox məqalənin, müsahibənin, publisist yazıların, oçerklərin, ressenziyaların, elmi, tarixi məqalələrin müəllifidir. Onun 20-yə qədər kitabı çap olunub. Dünya xalqlarının 10 pyesini dilimizə tərcümə edib.



Söhbətimizdə onun teatra sonsuz can yanğısının, bu sehirli aləmə möhkəm bağlılığının bir daha şahidi olduq. Beləliklə, teatr fədaisi ilə müsahibəni təqdim edirik:



**– Ağalar müəllim, keçən il ölkəmizdə ilk teatr forumu keçirildi. Ötən ay isə ATXİ-nin növbəti konfransı baş tutdu və siz də orada maraqlı çıxış etdiniz. Sevimli aktyorumuz, gözəl teatr təşkilatçısı, Xalq artisti Hacı İsmayılov yekdilliklə sədr seçildi. Forumdan və konfransdan sonrakı gözləntiləriniz, ümidləriniz nədən ibarətdir?**

– Əvvəla vurğulayım ki, Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin belə bir maraqlı kəlamı var: "Yüksək səhnə mədəniyyəti ilə seçilən Azərbaycan teatrının zəngin repertuarı sayəsində xalqımız milli ədəbiyyatın parlaq nümunələri ilə yanaşı, dünya ədəbi fikrinin inciləri ilə daha yaxından tanış olmaq imkanı əldə etmişdir. Beləliklə, Azərbaycan dövlət müstəqilliyinin bərpa edilməsi ilə qarşısında geniş üfüqlər açılan milli teatr bu gün dövlətçilik naminə mədəniyyətimizin inkişafına töhfələr vermək iqtidarındadır".

Bu fikirlər hər bir sənətçidə ruh yüksəkliyi yaradır. Qeyd etdiyiniz tədbirlərlə bağlı isə deyim ki, bunlarla fəaliyyətimizin yol xəritəsi cızılır. Uğurlar xatırlanır və qarşıda duran vəzifələr, əsas hədəflər müəyyənləşdirilir. Nəzəri düşüncələrin təcrübədə reallaşması gərgin çalışmalar tələb edir. Bu gün məndə belə bir nikbinlik var ki, dövlətin, cəmiyyətin və bizim özümüzün birgə səylərimizlə milli teatrımızın yüksək dünya səviyyəsinə çatmasını təmin edə biləcəyik. Elə Məryəm Əlizadə, Sabir Məmmədov, Əli Əmirli, Ağalar İdrisoğlu, Şövqi Hüseynov, Larisa Tarusova, İntiqam Soltan, Rəhman Rəhmanov və başqaları da çıxışlarında teatrların bəzi problemlərinə toxunsalar da, əsasən müsbət tonda danışdılar. İttifaqın idarə heyətinə də tanınmış və işgüzar şəxsiyyətlər seçildilər. Bunlar İlham Namiq Kamal, Cənnət Səlimova, Siyavuş Kərimi, Mərahim Fərzəlibəyov, Azər Zeynalov, Azad Şükürov və İlham Əsgərov oldu. Əminəm ki, əvvəlki illərdə olduğu kimi, bundan sonra da Teatr Xadimləri İttifaqında maraqlı işlər görüləcək. Təkcə biz sənət insanları yox, tamaşaçılar da çox razı qalacaqlar.

**– Siz çıxışınızda bir sıra konkret təkliflər səsləndirdiniz...**

– Bəli. Dedim ki, istedadlı gənclərin Bakıda və xaricdə qiyabi ali aktyorluq və ya rejissorluq təhsilinə cəlb edilməsi, tanınmış pedaqoqlardan aktyor sənətinin, səhnə danışığının, plastikanın sirlərini mükəmməl səviyyədə öyrənməsinə şərait yaradılması vacibdir.

Bu gün Tiflisdə və Dərbənddə iki Azərbaycan Dövlət Dram Teatrı fəaliyyət göstərir. Həmin teatrlarda ali təhsilli rejissor, aktyor və aktrisalar, demək olar ki, yoxdur. Bu məsələ də həllini tapmalıdır. Dərbənddə teatr üçün bina da tikilib. Əgər teatr orada mütəmadi tamaşalar oynamasa, həmin binanı onların əlindən ala bilərlər... Biz hökmən bu teatrlara sahib çıxmalıyıq. Bundan başqa, sənətçilərimiz üçün istirahət evinin tikilməsi, teatr binalarının kommunal xərclərinin ödənilməsi gərəkdir. Biletlərdən gələn cüzi pulla işıq pulunu, su pulunu ödəmək olmur. Yaradıcı heyətin mənzil-məişət qayğısı da həllini tapmalıdır. Bir də teatrdan cüzi vergi tutulmalı, ya da onlar vergidən azad olmalıdırlar ki, özlərini dolandıra bilsinlər.

**– Teatrın inkişafı naminə daha hansı addımlar atmaq olar?**

– Bu gün Bakı, Gəncə, Masallı, Şabran və başqa bölgələrdə həvəslə işləyən, yaxşı tamaşalar hazırlayan Xalq teatrları və Özəl teatrlar var. Amma Mədəniyyət Nazirliyi Xalq teatrlarına cəmi iki ştat ayırıb: bir rejissor, bir də rəssam ştatı. Xalq teatrlarında rollar oynayan həvəskar aktyorların isə bəziləri başqa sahələrdə işləyirlər və ya heç harada işləmirlər. Əlbəttə, belə adamların marağı olmayacaq ki, güzəranlarının belə çətin durumunda gəlib Xalq teatrında mütəmadi rollar oynasınlar. Amma Azərbaycanda inkişaf etmiş təxminən 10 Xalq teatrına və Özəl teatrlara Dövlət Teatr-Studiyası adı verilsə və yaradıcı, inzibati heyyət üçün əlavə 20-30 ştat ayrılsa, qısa vaxtda bölgələrimizdə teatrların inkişafı sürətlənər və həm də teatra maraq çox artar. Ən əsası isə çoxlu istedadlı gənc yetişə bilər.

Belə Teatr-Studiyaları Bakıda, Gəncə, Sumqayıt, Mingəçevir, Şamaxı, Zaqatala, Qəbələ, Masallı, Şabran və başqa bölgələrdə yaratmaq olar. Binaya gəlincə isə çoxlu mədəniyyət evlərimiz var ki, orada heç bir iş görülmür. Həmin Teatr-Studiyalar və Özəl teatrlar o mədəniyyət evlərində yerləşdirilə bilər. Elə yaşayış massivlərindəki istifadəyə yararlı zirzəmiləri də təmizləyib Teatr-Studiyalara vermək olar. Bununla da ərazilərdə teatra maraq artar və gənclər də zərərli vərdişlərdən uzaqlaşarlar.

Əgər teatrın binası yoxdursa, ondan şedevr tamaşalar gözləmək absurddur. Təsəvvür edin ki, 86 yaşlı Qazax Dövlət Dram Teatrının, 32 yaşlı Qusar Dövlət Ləzgi Dram Teatrının, 31 yaşlı Bakı Bələdiyyə Teatrının və 25 yaşlı Bakı Uşaq və Gənclər Teatrlarının binaları yoxdur.

Daha bir məsələ. Bəzi regional təhsil idarələrinin rəhbərləri məktəblərdə teatra bilet satılmasının və beləliklə də şagirdlərin tamaşalara getməsinin qarşısını alırlar. Bəzi rayon rəhbərlərinin teatra laqeydliyi də təəssüf doğurur. Bu, həm uşaqların, gənclərin teatrdan uzaq düşməsinə səbəb olur, həm də teatrların işini çətinə salır. Görünür, maarifçilik işini bir qədər də gücləndirməliyik.

**– Teatr Xadimlər İttifaqının maliyyə dəstəyilə "Qonaq Teatr" layihəsi çərçivəsində bölgə teatrlarının ən yaxşı tamaşalarını gətirib Bakıda, Aktyor evində göstərmələri təqdirəlayiq haldır...**

– Doğrudur. Amma Azərbaycan televiziyaları gəlib həmin tamaşaları çəkməmələri təəssüf doğurur. Bu, ən azı tarix üçün edilməlidir. Axı illər keçəndən sonra həmin tamaşalarda oynayan aktyorlar, aktrisalar və tamaşaya quruluş verən rejissorlar dünyalarını dəyişəcəklər. Biz onları gələcək nəsillərə daha yaxından tanıtmaq üçün nə göstərəcəyik? Heç olmasa, bundan sonrakı bölgə tamaşaları çəkilsə, yaxşı olar.

**– Çıxışınızda "yaş senzi" barədə də danışdınız...**

– Bəli. Teatrlardan bu, götürülsə, ümumən sənətin xeyrinə olar. Bu gün dünya teatrlarında yaşı 90-ı keçən çoxlu aktyorlar, aktrisalar, rejissorlar çalışır. Çünki təcrübəli mütəxəssilərin olması hər yerdə vacibdir. ATXİ də bu barədə düşünməli, optimal variantlar təklif etməlidir. Axı, səhnəmizin müqtədir sənətkarlara – ağsaqqal və ağbirçəklərə böyük ehtiyacı var.

Mənim konfransda toxunduğum bir məsələ də sənətçilərin 700 nəfərdən çox üzvü olan İttifaqa simvolik olaraq üzvlük haqqı ödəməsi ilə bağlı idi. Təklif etdim ki, hər birimiz ATXİ-yə ayda cəmi 5 manat üzvlük haqqı ödəyək. Bu, bir ildə çox böyük pul eləyər və bəzi cari xərclərə sərf edilər.

Teatr millətin ülvi sənət məbədidir, burada çalışanlara da dəyərli insanlardır. Onları sevmək, qayğı ilə əhatə etmək hamımızın borcudur. Münbit və yaradıcı şərait isə hər zaman uğura vəsilə olur.

**– Müsahibəyə görə sağ olun!**

*Əli NƏCƏFXANLI*
*XQ*

**Milli kinomuzun qət etdiyi 126 illik yol heç də asan keçməyib, böyük sınaqlarla üz-üzə gəlib. Bütün çətinlikləri məharətlə geridə qoyan kinomuz, dirçəliş dövrünə qədəm qoyub.**

Fəxrlə deyə bilərik ki, Azərbaycan mədəniyyətinin 1898-ci ildən başlanan kino intibahı əlamətdar hadisələrlə yadda qalıb, xalqımızın mədəni-mənəvi həyatında unudulmaz anların tarixinə çevrilib. Ölkəmizdə Milli Kino Gününün bayrama çevrilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağıdır.

# Milli kinomuzun doğma günü





Ənənəvi olaraq hər il kino xadimlərinin iştirakı ilə müxtəlif tədbirlər təşkil olunur, filmlər təqdim edilir və kinematoqrafiyanın inkişafına xidmətləri ilə fərqlənən şəxslər mükafatlandırılır. Bu dəfə də Milli Kino Günü münasibətilə Nizami Kino Mərkəzində tanınmış mədəniyyət, incəsənət və kino xadimlərinin iştirakı ilə tədbirlər keçirildi.

Əvvəlcə qonaqlar Azərbaycanın klassik filmlərində istifadə olunmuş geyimlər, rekvizitlər və ralitet kino texnikalarının nümayiş etdirildiyi sərgiyə baxdılar.

Ötən əsrin 40-cı illərdən 90-cı illərə kimi bir çox klassik filmlərimizdə istifadə olunmuş kameralar, dollilər, fayton və arabalar maraqla qarşılandı. Eksponatların sırasında filmlərdə istifadə olunan geyimlərlə bəzədilmiş manekenlər xüsusilə canlı təsir bağışlayırdı. Kino tariximizi yaddaşlarda yeniləyən bu sərgi hər kəsdə xoş ovqat yaratdı, göz-könül oxşadı.

**Tədbirdən öncə Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev "XQ"yə Azərbaycan kinosunun keçdiyi inkişaf yolu barədə məlumat verdi. Kino bayramı ilə bağlı təəssüratlarını bölüşən kinoşünas dedi:**

– Bu gün Azərbaycan kinosu özünün 126-cı yaşını qeyd edir. Kinomuz bu illər ərzində şərəfli yollar keçib. Ötən müddət ərzində film sahəsinin inkişafı üçün zəhmət sərf edən görkəmli şəxsiyyətlərimiz olub. Bu sahədə böyük təsvir rejissorluğu məktəbini də qeyd etmək istərdim. Bu xoş gündə kinematoqrafçı həmkarlarıma xoş arzularımı çatdırır, onlara yaradıcılıq uğurları arzulayıram. Sevinirəm ki, onların arasında Prezidentin fərdi təqaüdünə və "Tərəqqi" medalına layiq görülənlər də var.

Məşhur kinorejissor Akif Rüstəmov budəfəki kino bayramının onun üçün ən gözəl anlarla yadda qaldığını qeyd etdi. O, Prezidentin fərdi tqaüdünə layiq görüldüyünə görə sevincli olduğunu dilə gətirdi.

– Sənətimə göstərdiyi qayğıya görə dövlət başçımıza təşəkkür edirəm. Kinomuza və onu yaşadanlara dəyər verənlər sağ olsunlar. Həmişəki kimi Milli Kino Günü bütün kino xadimlərini bir araya toplayıb. Mən bütün dostları, həmkarları təbrik edir, onlara yeni yaradıcılıq axtarışları arzulayıram. Bundan sonra da kinomuzun inkişafı üçün əmək sərf edəcəyəm.

Tanınmış kinorejissor Rövşən Məmmədov (Rövşən İsax) builki kino bayramında ikiqat sevinc hissi yaşadığını qeyd etdi. O bildirdi ki, dövlət başçısı tərəfindən "Tərəqqi" medalına layiq görülüb.

– Kino incəsənətin ən maraqlı və populyar sahəsi hesab edilir. Kinonun vəzifəsi yalnız əyləncədən ibarət deyil, o insanların mənəviyyatının zənginləşməsinə xidmət etməlidir. Biz hamılıqla əl-ələ verib, kinonuzun daha da inkişaf etməsi üçün bacardığımızı əsirgəməməliyik. Bundan sonra da öz peşəmizlə Azərbaycan mədəniyyətinin çiçəklənməsinə töhfələr verməyə çalışacağıq.

**Tədbirin açılış mərasimində mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxış edərək Azərbaycan kinosunun keçdiyi tarixi mərhələlərdən söz açdı, kinomuzun bugünkü durumu barədə məlumat verdi.**

– Azərbaycan kinosu keşməkeşli yol keçsə də, daim yüksək mədəni dəyərlərə sadiq qalıb. Müasir Azərbaycan kinosunun inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün o ənənə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirir. Ölkəmizdə kinostudiyaların maddi-texniki bazası möhkəmlənir, milli kinomuzun inkişaf istiqamətləri diqqətdə saxlanılır. Filmlərin çəkilişləri üçün kinoya ayrılan maliyyə vəsaitlərin də dövlət ayrıca dəstək olur. Son 20 ildə Azərbaycan kinosunun inkişafı üçün 100 milyon manatdan artıq vəsait ayrılıb, 1763 sənədli film, animasiya və digər filmlər çəkilmişdir.

Azərbaycan Kinemotoqrafçılar İttifaqının İdarə Heyətinin sədri, Xalq artisti Rasim Balayev, Azərbaycan Respublikası Kino Agentliyinin baş direktoru vəzifəsini icra edən Orxan Fikrətoğlu, Xalq artisti Oqtay Mirqasımov və digərləri çıxış edərək təbriklərini çatdırıb, milli kinomuzun inkişaf yolundan, hazırkı vəziyyətindən söz açdılar.

Sonra Mədəniyyət Nazirliyi tərəfindən bir neçə kino xadiminə mükafatlar təqdim edildi.

Bu il də kino işçilərinin peşə bayramı yeni ekran əsərinin premyerası ilə yadda qaldı.

Mərasimdə rejissor Emin Əfəndiyevin "Tənha bir insanın monoloqu" adlı sənədli film nümayiş olundu.

*Ceyhun ALIŞLI*
*XQ*

# Lənkəran okeanın o tayındakı şəhərlə qardaşdır



**Lənkəran şəhəri ilə ABŞ-ın Monterey şəhəri arasında mövcud olan "qardaşlaşmış şəhərlər" əlaqələri çərçivəsində "Cənub mirvarisi"nin İstisu qəsəbəsində salınmış "Dostluq parkı"nda musiqili görüş olub.**

Bu park düz 1 il əvvəl yaradılıb. Görüşdə qarşılıqlı əlaqələrin təcəssümü olan parkın gözəl istirahət və ünsiyyət ünvanına çevrildiyi vurğulanıb. Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ülviyyə Əliyeva, ABŞ-ın Azərbaycandakı səfirliyinin ictimai işlər üzrə attaşesi Melissa Şauqnessi, Lənkəran–Monterey Dostluq Assosiasiyasının həmsədri Nensi Selfric və Azərbaycan Diplomatik Akademiyasının (ADA) müəllimi Şəfəq Mehralıyeva görüşdə iştirak ediblər.

Natiqlər bildiriblər ki, 2011-ci ildən qardaşlaşan Lənkəran-Monterey şəhərləri arasında ötən müddət ərzində qarşılıqlı əlaqələrin hərtərəfli inkişafı daim diqqət mərkəzində olub, münasibətlərin daha da yaxınlaşması üçün mütəmadi ünsiyyət saxlanılıb. Qeyd olunub ki, adət-ənənələrin öyrənilməsi, mədəni münasibətlərin genişlənməsi, habelə Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə dolğun şəkildə çatdırılmasında şəhərlərin qardaşlaşmasının mühüm rolu var. Lənkəranla Monterey şəhərlərinin əlaqələrinin davamlılığı və inkişafı bu baxımdan bir nümunə təşkil edir.

Çıxışlardan sonra Lənkəran şəhər Mədəniyyət Mərkəzinin "Nənələr" xalq folklor kollektivinin və Mərkəzin solistlərinin ifaları təqdim olunub.

*XQ*

# Ana dilinə sevgi ilə

**Salyan Tarix-Diyarşünaslıq Muzeyində "Dahi Azərbaycan şairi Füzulinin söz dünyası" adlı tədbir təşkil olunub.**

Azərbaycan Yazıçılar Birliyinin Muğan bölməsinin sədri yazıçı-publisist Nəbi İbrahimov bildirib ki, Prezident sərəncamı ilə böyük Füzulinin 530 illik yubileyinin qeyd olunduğu bu il Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü xüsusilə fərəhlə keçirilir. Ana dilimiz xalqımızın milli sərvətidir və millətimiz, tarix durduqca bu sərvətin qayğısına qalmalı, dilimiz gələcək nəsillərə ötürülməlidir. Məhəmməd Füzuli isə bu dilə ehya verən mütəfəkkir şairimizdir.

Mərasimdə AMEA Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli maraqlı çıxış edib. O, doğma dilimizin keçdiyi inkişaf mərhələsindən, tarixin müxtəlif dövrlərində ərəb-fars dillərinin təsirinə məruz qalmasından, sovet hakimiyyəti dövründə tariximizə, eləcə də dilimizə qarşı yeridilən yadlaşdırma siyasətindən danışıb.

O, həmçinin Türk dünyasının ən qiymətli kitablarından biri olan Mahmud Kaşğarinin məşhur "Divanü lüğat-it-türk" əsəri haqqında ətraflı məlumat verərək deyib ki, bu əsərin 86 ildən sonra – 2023-cü ildə Dilçilik İnstitutunun arxivindən tapılması böyük hadisədir. Sonra professor Nadir Məmmədli AMEA Rəyasət Heyətinin qərarı ilə 3 cilddə çapdan çıxmış "Divanü lüğat-it-türk" kitabını AMEA prezidenti, akademik İsa Həbibbəylinin adından Salyan Rayon Mərkəzləşdirilmiş Kitabxanasına hədiyyə edib.



Tədbirdə Salyan şəhər 2 saylı tam orta məktəbin dil-ədəbiyyat müəllimi, Dilçilik İnstitutunun dissertantı Günel Orucova, tanınmış şair Zabil Pərviz, tarixçi-tədqiqatçı Sahib Həsənov, rayonda çıxan "Qələbə" qəzetinin əməkdaşı, şair-publisist Əzizağa Məmmədli, Azərbaycan Yazıçılar Birliyinin üzvü şair Oqtay Sarıcalı və Salyan Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Səidə Əliyeva ana dilimizin zənginliyindən, Füzuli lirikasının poetik ifadəliyindən bəhs ediblər.

Çıxışlarda Azərbaycan dilinin xalq danışıq dili kimi keçdiyi zəngin inkişaf tarixinə nəzər salınıb, görkəmli mütəfəkkirlərin ana dilimiz haqqında fikirləri təhlil olunub, dilimizin qorunub saxlanmasında elm adamlarının, xüsusilə gənc nəslin üzərinə düşən vəzifələrdən bəhs edilib. Məhəmməd Füzulinin anadilli əsərləri də nəzərdən keçirilib, nümunələr səsləndirilib.

Tədbirə bədii proqramla yekun vurulub.

*Ə.DOSTƏLİ*
*XQ*

BEYNƏLXALQ HƏYAT

# ABŞ-nin Gürcüstan QHT-lərinə yardımı: niyyət nədir?

**“ABŞ-nin dövlət katibi Antoni Blinkenin bəyanatı təəssüf doğurur, çünki ABŞ-nin Gürcüstana ayırdığı yardım yalnız suverenliyini möhkəmləndirdiyinə görə cəzalandırılan gürcü xalqı üçün istifadə edilib. Bunu hakim “Gürcü Arzusu- Demokratik Gürcüstan” partiyasının deputatı Beka Odişariya deyib. Onun sözlərinə görə, ABŞ Dövlət Departamenti rəhbərinin bəyanatı təəssüf doğurur. “Bu, strateji tərəfdaşlıq və dostluq çərçivəsinə sığan yanaşma deyil. Tərəfdaşların gürcü xalqının xarakterini Gürcüstanın keçmiş ombudsmanı Nino Lomjaria və "Beynəlxalq Şəffaflıq - Gürcüstan" QHT rəhbəri Mak Qiqauridən deyil, gürcü xalqının özündən öyrənməsinin vaxtı çatıb”.**



Deputat ABŞ-nin 6 milyard lari də daxil olmaqla, yardımlarına da toxunub: “Yardıma görə gürcü xalqı son dərəcə minnətdardır, lakin heç kimdən sonra onların qınanmasına səbəb olacaq heç nə istəmir”.

Eyni zamanda deputat ictimaiyyətə xatırladıb ki, Gürcüstana eyni məbləğdə pulu hakim partiyanın qurucusu Bidzina İvanişvili əvəzsiz ayırıb və indiyədək bu şəxs, bu barədə heç vaxt, heç nə deməyib.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze isə bildirib ki, ABŞ hakimiyyətinin Gürcüstana qarşı yeni sanksiyaların mümkün tətbiqi ilə bağlı bəyanatları şantajdır: “ABŞ“ qlobal müharibə partiyası”nın təsirini aradan qaldırmaq üçün öncə öz daxilində deoliqarxizasiya həyata keçirməlidir. Gürcüstanı sanksiyalarla hədələməyə ehtiyac yoxdur. ABŞ-nin bu tonu əks nəticə verir”.

Gürcüstanın baş naziri ölkəsinin ABŞ ilə münasibətləri normallaşdırmağa hazır olduğunu da vurğulayıb: “Biz ABŞ ilə münasibətləri bərpa etməyə tam hazırıq. Bu münasibətlərdə şantaj və təhdidlər əvəzinə, sağlam dialoq aparmalıyıq".

Bundan əvvəl, Antoni Blinken ABŞ “Xarici təsirin şəffaflığı haqqında" qanunun qəbul edilməsi ilə əlaqədar Gürcüstan hökumətinə 95 milyon dollardan çox yardımın dayandırıldığını açıqlamışdı. "Mayın 23-də Gürcüstan hökumətinin antidemokratik hərəkətlərindən sonra ABŞ və Gürcüstan arasında ikitərəfli əməkdaşlığın hərtərəfli nəzərdən keçirildiyini elan etdim. Nəticədə ABŞ Gürcüstan hökumətinə birbaşa dəstəyə yönəldilmiş 95 milyon ABŞ dollarından çox yardımı dayandırır”.

Gürcüstan müxalifəti, qeyri-hökumət təşkilatları və bütün Qərb qanunun qəbuluna görə Gürcüstan hakimiyyətini tənqid edərək, bu qanunun Qərb dəyərlərinə zidd olduğunu bildirib.

“ABŞ-dən Gürcüstan hökumətinə dayandırılmış maliyyə yardımı isə bu ölkənin QHT-ləri və mediasına dəstək üçün ayrılacaq”. Bunu Dövlət Departamentinin mətbuat katibinin müavini Vedant Patel bildirib: "Biz demokratiyanı, qanunun aliliyini, müstəqil medianı və iqtisadi inkişafı gücləndirməklə gürcü xalqının xeyrinə olan proqram və fəaliyyətləri dəstəkləməyə davam edəcəyik. Bəzi hallarda yardım proqramları resursların müəyyən sektorda çalışan QHT-lərə yönləndirilməsi üçün dəyişdirilə bilər”.

Patel, həmçinin Gürcüstan hökumətini “Xarici təsirin şəffaflığı haqqında” qanunu və digər “problemli qanun layihələrini” geri götürərək “demokratik yola qayıtmağa” çağırıb.

Qeyd edək ki, Avropa İttifaqı əvvəllər bəyan etmişdi ki, onlar hökumətə yardımı azaldacaq, vətəndaş sektoru və mediaya isə dəstəyi artıracaqlar.

***PÜNHAN***
***XQ***

# Haniyənin qətli vəziyyəti necə dəyişdirəcək?

**HƏMAS siyasi bürosunun rəhbəri İsmayıl Haniyənin Tehranda qətlə yetirilməsi Yaxın Şərq regionunu böyük müharibənin astanasına yaxınlaşdırır. Fələstin hərəkatının ictimai siması olan və dəfələrlə dünyanın bir çox paytaxtlarına səfər etmiş siyasi liderinin öldürülməsi mürəkkəb olan vəziyyəti daha da qəlizləşdirir. İsrail hücum ilə bağlı rəsmi açıqlama verməsə də, İran və ona sadiq qüvvələr yəhudi dövləti ilə döyüşü “yeni səviyyəyə” qaldıracaqlarını bildirirlər. Belə bir iddia da var ki, İ.Haniyənin ölümü İsrail və HƏMAS arasında razılaşma şansını faktiki olaraq sıfıra endirir.**



Ötən çərşənbə günü səhər Fələstinin HƏMAS hərəkatının siyasi bürosunun rəhbəri İsmayıl Haniyə Tehranın mərkəzində İslam İnqilabı Keşikçiləri Korpusuna (SEPAH) məxsus binada öldürüldü. Məsud Pezeşkianın 80-dən çox ölkədən yüksək rütbəli qonaqların iştirakı ilə keçirilən andiçmə mərasimində iştirak edən Haniyə yeni seçilmiş prezidenti və ölkənin ali dini lideri Ayətullah Əli Xamenei ilə də görüşmüşdü. “Əl-Hadas” telekanalının verdiyi məlumata görə, İ.Haniyə son gecəni keçirdiyi evə birbaşa raket zərbəsi nəticəsində qətlə yetirildi. Mütəxəssislər qeyd edirlər ki, İ.Haniyyənin qətli adətən hava hücumları zamanı baş verən güclü partlayışlar olmadan həyata keçirildi. HƏMAS liderinin iqamətgahına hansı silahın - hava bombası, idarə olunan raket və ya pilotsuz təyyarənin vurulması hələ də qeyri-müəyyən olaraq qalır. İran torpaqlarında səs-küylü qətl hadisəsi “Hizbullah”ın hərbi-strateji rəhbəri Fuad Şükrün öldürülməsindən 24 saat sonra baş verdi.

İranın əsas təhlükəsizlik qüvvəsi olan SEPAH-dan verilən ilk qısa şərhdə cinayətkarların adları çəkilmədi və yalnız İsmayıl Haniyə və onun mühafizəsinin ölüm xəbəri verildi. Həmçinin qeyd edildi ki, “insidentin səbəbi araşdırılır və nəticə yaxın vaxtlarda elan olunacaq”. Lakin bundan az sonra Tehran İsmayıl Haniyənin qətlində İsraili günahlandırdı. İsmayıl Haniyəni “Fələstin mücahidlərinin cəsur lideri” adlandıran Ayətullah Əli Xamenei onun ölümünə görə “ağır cəza” vəd etdi. Prezident Pezeşkian da oxşar bəyanat səsləndirdi. O, İsraili birbaşa qeyd etməsə də, HƏMAS liderinin qatillərinə münasibətdə “terrorçu işğalçılar” ifadəsini işlətdi: “İran İslam Respublikası öz ərazi bütövlüyünü qoruyacaq və terrorçu işğalçıları qorxaq əməllərinə görə peşman edəcək”.

Bəs İsmayıl Haniyənin ölümü Yaxın Şərq regionuna, xüsusilə də İsrail-Fələstin münasibətlərinin gələcəyinə necə təsir göstərəcək? Hadisələrin sonrakı inkişafı ilə bağlı müxtəlif bəyanatlar səsləndirilir. Məsələn, Vaşinqtonun reaksiyası çox təmkinli oldu. ABŞ-nin müdafiə naziri Lloyd Ostinin fikrincə, müharibənin qaçılmaz olduğunu düşünmür: “Mən bu nöqteyi-nəzərdən razıyam. Düşünürəm ki, diplomatiya üçün hər zaman yer və imkan var”. Ancaq Avropa İttifaqının xarici siyasət sözçüsü Piter Stano İRNA-ya bildirdi ki, Aİ “prinsipial mövqe tutur: o, qeyri-qanuni qətlləri rədd edir və beynəlxalq cinayət ədaləti sahəsində qanunun aliliyini dəstəkləyir”. Rusiya da, həmçinin İsmayıl Haniyənin qətlini qətiyyətlə pislədi və bütün tərəfləri təmkinli olmağa çağırdı.

Siyasi mütəxəssislərin sözlərinə görə, Yaxın Şərqdə böyük müharibənin başlanması təhlükəsi var. Ancaq nə ABŞ, nə də Avropa İttifaqı regionda böyük silahlı münaqişənin baş verməsində maraqlıdır. Qərb mətbuatı yazır ki, Qərb ölkələri regionda eskalasiyanın müharibə səviyyəsinə qalxmaması üçün diplomatik səylərini artırırlar. Amma İsmayıl Haniyənin İran ərazisində öldürülməsi Tehranı bu qətl hadisəsinə reaksiya verməyə vadar edir. Artıq Tehrandan qisas xəbərləri yayılır. Hadisələrin inkişafını təxmin etmək getdikcə çətinləşir. Lakin istənilən halda HƏMAS liderinin öldürülməsi İsrail-Fəlsətin qarşıdurmasındakı son vəziyyətə öz mənfi təsirini göstərəcək.

***SE LAY***
***XQ***

# Uşaqlar cizgi filmlərindəki mənfi obrazların təsirinə düşməsinlər deyə...

**“Bəzi müasir cizgi filmləri uşaqlarda stereotip düşüncənin formalaşmasına səbəb olur”. Bu fikri Moskva Dövlət Psixologiya və Təhsil Universitetinin baş elmi işçisi Elena Şepeleva “Gazeta.Ru” saytına bildirib.**



Alimin sözlərinə görə, balaca tamaşaçılar müasir cizgi seriallarındakı personajları əksər epizodlarda gördükləri üçün onları özlərinə yaxın dost, hətta ailə üzvləri kimi qəbul etməyə başlayırlar. Bunun həm müsbət, həm də mənfi tərəfi var. Belə ki, uşaqlar müxtəlif vəziyyətlərdə fərqli insanların necə davrana biləcəyini başa düşürlər. Lakin onlarda bəzi stereotiplər də yaranır.

Məsələn, “Maşa və Ayı” cizgi serialında Maşa hər zaman tərslik edir və səbrli valideyn rolunu canlandıran Mişka isə yersiz inadkarlığının nəticələrini aradan qaldırır. Uşaqlar sevdikləri bu obrazı mənimsəyir və Maşanı təkrarlamağa çalışırlar. Belə hallarda, valideynlər Maşanın hərəkətlərinin nəticələrini uşaqları ilə müzakirə etməlidirlər.

Rusiyalı psixoloqun fikrincə, əgər valideynlər, övladlarınının cizgi filmlərinə baxdıqdan sonra davranışlarında yaranan dəyişiklikləri görüb multfilmlərdəki süjet və obrazları övladları ilə müzakirə edib onlara nəyin yaxşı, nəyin pis olduğunu başa salsalar, yeni cizgi filmləri uşaqlar üçün daha faydalı ola bilər.

***Zülfiyyə ZİYA***
***XQ***

# *Bir korona nağılı…*

## (yaşantı)

**Koronanın tüğyan elədiyi vaxtlar idı. Şəhərdə əhalini bəzən blokdan çıxmağa belə qoymurdular. Həkimlər də camaatı elə qorxudurdular ki…**



Nə gizlədim, mən də yaman qorxurdum. Qorxurdum yox, ee, üyüdürdüm... Marketdən aldığım ərzağı, demək olar ki, spirtlə yuyurdum.

Həm də darıxırdım. Dünyaya nigaran-nigaran baxırdım. Elə bilirdim ki, bir də dönməyəcək o dəmlər. Bir də dostlarla yığışıb çay içməyəcəyik. Bir də ürəyimiz istəyəndə doğmalarımıza, dostlarımıza sarılmayacağıq, harasa üz tutub getməyəcəyik....

Nigarançılıq, doğrudan da çox pis şeymiş. Günlər də acı bağırsaq kimi uzanırdı. Biri yazırdı ki, dünya düzəni dəyişəcək, əhalinin çoxu qırılacaq. O biri yazırdı ki, koronaya qarşı dərman ən tezi 2026-ci ilin axırında hazır olacaq. Bir ara da yazdılar ki, artıq Avropa ölkələrində, ABŞ-da insanlara cip yerləşdirirlər.

Medianın yazdığına görə, koronaya qarşı ən effektiv mübarizə işi Azərbaycanda aparılırdı. Ümumdünya Səhiyyə Təşkilatı da bizləri tərifləyir, təşəkkür edirdi. Çünki biz bu işdə bəzi ölkələrə yardım edir, maska da göndərirdik. Halbuki, o boyda Amerikada bu virusdan ölənlərin sayını eşidəndə adam az qalırdı dəli ola.

Amma Avropa öz kefində-damağında idi. Karantini gah yumşaldırdı, bir neçə gün keçməmiş yenidən ağırlaşdırırdı. Üstəlik, koronaya görə xalqa pulsuz maska və çoxlu pul verirdi. Bizdə isə maska apteklərdə 20-30 qəpiyə satılırdı. Halbuki dəyəri heç 10 qəpik deyildi. Özü də deyirdilər ki, maskanı gərək tez-tez dəyişəsən. Daha hansı pulla alınacağını deyən, bildirən yox idi. Ailələr vardı, heç çörəyinin, suyunun pulunu tapa bilmirdi. İşləməyən ailə üzvlərinə 2 ayda verilən pul da 15 günə bəs eyləyə-eyləməyə...

TƏBİB isə deyirdi, yaşamaq istəyirsinizsə, dözün! Xumar Qədimova da oxuyurdu ki, bir azca da döz, döz... Bax, elə çətini bu dözmək məsələsi idi.

Nə isə, gəlin belə xırda məsələlərə görə başımızı ağrıtmayaq. Olan oldu, keçdi...

Hə, o günlərdə gündüzlər çox vaxt balkonda oturub, bu gözəlim dünyanı dönə-dönə seyr edirdim. Sonra qıyıqgöz “kitay”ların atabaatasına o ki, var söyürdüm. Qardaşım da arabir zəng edib deyirdi ki, istidə nə oturmusan o şəhərdə, çıx gəl kəndə. Burada korona-morona nə gəzir, hərə öz işində-gücündədi...

Mən onda ürəyimdə kəndimizin adamlarını dünyanın ən bəxtəvər insanları sanırdım: “İlahi, gör dünyada necə xoşbəxt yerlər var, e, orada korona yoxdu, insanlar istədikləri ilə əl tuturlar, öpüşürlər, hara istəsələr gedirlər...”

Balkonda bir çiçək vardı. Bekarçılıqdan tez-tez torpağını yumşaldır, su verirdim.

Söhbətləşməyə adam olmadığından bəzən o ətirşah gülü ilə danışırdım. Deyirdim ki, sənə nə var, ee, Günəş hər gün çıxır, suyunu da mən verirəm. Korona da sənə heç-zad eyləyə bilməz. Darıxmağın da yoxdu. Mən binəva isə...

Üçüncü mərtəbədə yaşayan bir qonşum vardı, adı Rahim idi. Sakit, dolu bədənli bir gənc idi. Necə olmuşdusa, əməliyyatdan sonra qıçları tutulmuşdu. Həkim ona tapşırmışdı ki, hər gün bir-iki saat gəzməyə çalışsın…

Amma Rahim nə illah eləyirdi, ayağını torpağa düz basa bilmirdi. Həyat yoldaşı Ceyran da daim yanında idi. Rahimin yeriyə bilməməsi Ceyranı çox üzürdü. İçin-için ağlayırdı. Mənə elə gəlirdi ki, Rahimin ayaqları açılmasa, Ceyran bu dərdə dözə bilməyəcək...

Axşamlar mən də həyətə düşür, şəkildəki gözəl kötüyün ətrafında gəzişirdim. Bu dəqiqələrdə Ceyran yenə Rahimin qolundan tuta-tuta onun addımlamasına kömək olmağa çalışırdı. Mən qonşularıma ürək-dirək vermək üçün deyirdim:

- Rahim, qardaşım, darıxma, səbirli ol. Hər şey düzələcək. İnşallah, yeriyəcəksən də, yüyürəcəksən də...

Bu sözlərdən sonra Ceyran bacı gülümsəməyə çalışırdı...

Bir çoxları kimi mən də “yol” tapıb şəhərdən çıxdım. Yolda öz-özümə deyirdim: “İlahi, şükür Sənin kərəminə, koronasız dünya nə gözəlmiş…”

Kənddə məni xeyli adam qarşıladı və mənimlə görüşmək, qucaqlaşmaq istədi. Mən isə onları yaxın buraxmadım. Əvvəlcə əllərimi spirtlədım, paltarlarımı dəyişib atdım. Onlar isə mən baxıb xeyli güldülər...

Dedilər ki, burada da bir-iki nəfər qızdırmışdı, iki-üç gün dərman atdılar, keçib getdi....

O zaman qərara gəldim ki, gərək kənddə bir koma qaralayım....

Şəhərə gediş-gəliş açılandan sonra getdim Bakıya. Hələ insanların ürəyində korona qorxusu, xofu yaşayırdı. Buna görə də xeyli adam maskadan istifadə edirdi.

Bloka girib mərtəbələri qalxanda hiss elədim ki, qonşularda nəsə olub. Cavanlardan biri qarşıma çıxdı. Öyrəndim ki, Ceyran xanım ürək tutmasından dünyasını dəyişib....

Bir müddət sonra yenə kəndə qayıtdım. Payızın sakit çağlarını kənddə gəzib-dolandım. Yağışlar başlayanda şəhərə getdim. Bu dəfə isə eşitdim ki, Rahim dünyasını dəyişib..

İndi hər dəfə blokdan çıxıb həyəti gəzmək istəyəndə, o başı kəsik gözəl kötük koronalı günlərimizi və Rahimlə Ceyranı yadıma salır...

**P.S.** Beş-on gün olar ki, xəbər saytları yalan-gerçək tez-tez dəhşətli virusun yayılması haqqında xəbəri tez- tez paylaşır, insanlarda şok effekti yaratmağa çalışırlar. Həkimlərimiz isə susurlar.

***Səməd MƏLİKZADƏ***

**“İpək Yolu Sığorta” ASC (VÖEN 9900002671) öz daimi fəaliyyət ünvanının dəyişdiyini elan edir. Cəmiyyətin yeni ünvanı– Bakı şəhəri, AZ 1044, Xəzər rayonu, Binə qəsəbəsi, Heydər Əliyev prospekti 573, “ASG Business Aviation” MMC-nin inzibatı binası, 4-cü mərtəbə.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 163 (30567) 3 avqust 2024-cü il, şənbə

# Olimpiya yığmamızın Parisdə uğurlu çıxışları davam edir

## *Cüdoçularımız 2 qızılla 2-ci yeri tutub*





**Azərbaycan Olimpiya komandası "Paris-2024"ün ilk həftəsində möhtəşəm qələbəyə imza ataraq 3 medal qazandı. Eyni idman növündə – ardıcıl olaraq 2 təmsilçimizin qızıl medal qazanması isə olimpiadalar tarixində ilk idi.**

Bununla da, Azərbaycan cüdoçuları Paris Yay Olimpiya Oyunlarında tarix yazdılar. Bu, xalqımız üçün əsl cüdo bayramı oldu. Əvvəl Hidayət Heydərov (73 kq), daha sonra Zelim Katsoyevin (+100 kq) böyük ustalıq nümayiş etdirərək qızıl medal qazanmaları ölkəmizdə bu idman növünün inkişafının bariz nümunəsi idi. Kişilərdən ibarət komandanın digər üzvlərinin də medal qazanmaq üçün yetərincə potensialı var idi. Amma bu mötəbər turnir dörd ildən bir keçirilən ən nüfuzlu idman yarışlarıdır. Dünyanın 122 ölkəsindən ən güclü atletlərin iştirak etdikləri bu yarışda medal qazanmaq, nəinki hər idmançıya, ümumilikdə götürdükdə hər ölkəyə nəsib olmur. Azərbaycanı yalnız – cüdonun vətəni olan Yaponiya (3 qızıl, 1 gümüş, 3 bürünc) qabaqlaya bildi. İkinci yerdə 1 qızıl, 2 gümüş, 6 bürünc medalla ev sahibi Fransa qərarlaşdı. Eyni idman növündə 2 qızıl medala sahib olmaq isə idmançılarımızın xüsusi istedadı ilə bağlıdır.

Bəli, bu gün müstəqil Azərbaycan güclü cüdo məktəbi ilə fəxr edə, qürur duya bilər.



### Boksda uğurlu Olimpiada seriyası davam edir

Azərbaycan boks yığması da uğurlu Olimpiada seriyasını davam etdirir. Yığmamızın üzvü Alfonso Dominqes (92 kq) 1/4 final çərçivəsində Aybek Oralbayı (Qazaxıstan) məğlub etməklə yarımfinala yüksəlib. O, bu nəticə ilə azı bürünc medalı təmin edib. Boksçumuz finala vəsiqə uğrunda Enmanuel Reyes Pla (İspaniya) ilə üz-üzə gələcək. Bu döyüş avqustun 4-də olacaq. Bununla da, rinq ustalarımız ardıcıl 7-ci Olimpiya Oyunlarında medal qazanacaqlar. Komandamız "Sidney-2000"dən başlayaraq bütün Olimpiadalarda medal əldə edib.

Onu da qeyd edək ki, kişilərdən ibarət boks yığmamız ardıcıl 7 Olimpiya Oyunlarında medal qazanan yeganə komandadır. Düzdür, kişi pəhlivanlarımız bütün olimpiadalarda mükafat qazanmağa nail olublar. Lakin Atlanta Olimpiadasında və Sidney Oyunlarında yunan-Roma, "Afina-2004"də sərbəst güləşçilərimiz fəxri kürsüyə yüksələ bilməyiblər. Bu yığmaların heç biri ardıcıl 7 Olimpiadada mükafat qazanmayıb.

Ötən olimpiadalarda boksçularımız 1-i gümüş, 8-i bürünc olmaqla 9 medal qazanıblar. İndiyədək qızıl medal əldə edə bilməyən komandamızın budəfəki hədəfi qızıl medaldır. Özü də, növbəti mükafat sayca 10-cu, yəni yubiley medalı olacaq.

## "Qələbəmi Azərbaycana həsr edirəm"

**"Paris-2024"də komandamıza 2-ci qızıl medalı qazandıran Zelim Kotsoyev qələbəsini şərh edib. O, Azərbaycan Bayrağını ucaltmaqdan və Himnimizi səsləndirməkdən qürur hissi keçirdiyini deyib:**

–Çox sevinirəm ki, çəkdiyimiz əziyyət hədər getmədi. Ailəmi və Azərbaycanı sevindirdiyim üçün şadam. Bilirdim ki, Azərbaycanda hamı məni dəstəkləyir. Qələbəmi Azərbaycana həsr edirəm. Yeni qələbələr qazanmaq üçün bundan sonra da səylərimi əsirgəməyəcəyəm.

Cüdoçu Olimpiya çempionu Hidayət Heydərovun qələbəsinin ona yarışöncəsi motivasiya verdiyini vurğulayıb:

–Hidayətin qələbəsi məni ruhlandırdı. O mənə dəstək oldu. Bütün günü məşq zalında mənimlə idi. Mənə olduqca kömək edirdi. Ona görə də Hidayətə minnətdaram.



## Transgender qalmaqalına reaksiya böyüyür

**Paris Olimpiadasında transgenderlərin qadın yarışlarında iştirakı ilə bağlı ilk səs-küylü qalmaqal yaranıb. Cümə axşamı qadın boksçular arasında Əlcəzair təmsilçisi İman Həliflə italiyalı Angela Karini arasında keçirilən görüş 46 saniyəyə başa çatıb. Karini cəmi iki zərbə alaraq mübarizəni davam etdirməkdən imtina edib. Onun sözlərinə görə, o, həyatında heç vaxt bu qədər döyülməyib. Fakt budur ki, İman Həlif tam olaraq qadın deyil, amma ona kişi də demək olmaz. O, ötən il dünya çempionatından kənarlaşdırılıb. Daha sonra Beynəlxalq Boks Assosiasiyası (IBA) idmançının gender testini aparıb və nəticədə onda həm qadın, həm də kişi xromosomunun olduğu müəyyən edilib.**



Maraqlıdır ki, qarşılaşmada Həlif rəqibinə cəmi iki nəzərəçarpan zərbə vura bilib. Birinci zərbə ilə italyan xanımın dəbilqəsini yerindən oynadıb, ikinci zərbə ilə rəqibin burnunu sındırıb. Döyüşdən sonra italyan boksçu bildirib ki, əvvəllər ona heç vaxt belə ağır zərbə vurulmayıb: "Bəsdir, istəmirəm!"

İstənilən halda boksçunun burnu qırıldığına görə belə erkən mərhələdə döyüşü davam etdirməkdən könüllü imtina etməsi nadir hadisə kimi qiymətləndirilir. İman Həlif isə hadisəni sakitliklə qarşılayıb, Parisə qızıl üçün gəldiyini və bunun üçün yalnız ilk addımı atdığını qeyd edib.

Bununla belə qalmaqal dünya miqyasında da geniş əks-səda doğurub. Məsələn, İtaliyanın baş naziri Giorgia Meloni deyib ki, idmançılara bərabər imkanlar yaradılmalıdır: "Hesab edirəm ki, genetik kişi xüsusiyyətlərinə malik idmançılar qadın kateqoriyalarına qəbul edilməməlidir. Bu, heç kimə qarşı ayrı-seçkilikdən deyil, bərabər şərtlərlə yarışmaq imkanı əldə etməli olan qadın idmançıların hüquqlarının qorunmasından gedir. Bu, həm də təhlükəsizlik məsələsidir. Düşünürəm ki, ayrı-seçkiliyə yol verməmək, nəticələri nəzərə almaq lazımdır. Bu, ədalətli mübarizə deyildi".

"Harri Potter" kitablarının müəllifi Coan Rouling də hadisəyə münasibət bildirib. O, X sosial şəbəkəsindəki səhifəsində yazıb: "Gənc qadın boksçunun üzərində işlədiyi və məşq etdiyi hər şeyi əlindən alındı. Hamısı ona görədir ki, kişinin onunla rinqə çıxmasına icazə verdiniz. Siz-biabırçısınız, sizin müdafiəniz gülüncdür, Paris Olimpiadası həmişəlik amansız haqsızlıqla ləkələnəcək... Niyə kişinin camaat qarşısında qadını döyməsinə razılıq verirsiniz? Bu, idman deyil".

Əlavə edək ki, BOK cinsiyyəti şübhəli olan iki idmançının qadın boks turnirində iştirakına icazə verib. İman Həlifdən başqa, Beynəlxalq Boks Assosiasiyası tərəfindən aparılan testlərdə kişi xromosom dəsti aşkar etdiyi Lin Yu-Tinqdirdə (Tayvan). O, 57 kq çəki dərəcəsində mübarizə aparır.

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 3-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq.**

## Aranda yağmursuz, dağlarda yağıntı və duman



Əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, səhər şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 21-26°, gündüz 29-34° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 754 mm civə sütunu , nisbi rütubət gecə 60-70, gündüz 40-50 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın əksər rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlarda duman olacaq. Havanın temperaturu gecə 20-24°, gündüz 31-36°, dağlarda gecə 10-15°, gündüz 17-22° isti olacaq.

**Q.QASIMOV**
**XQ**

## Beynəlxalq Olimpiya Komitəsi Azərbaycandan üzr istəyib

**Beynəlxalq Olimpiya Komitəsi (BOK) "Paris-2024" Yay Olimpiya Oyunlarının açılış mərasiminin şərhi zamanı "France 2" telekanalının müxbirinin işlətdiyi ifadələrə görə Azərbaycandan üzr istəyib.**






Azərbaycan Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən XQ-yə verilən məlumata görə, məktubda qeyd edilib ki, bu cür sözlər Beynəlxalq Olimpiya Komitəsinin idman və Olimpiya Oyunları vasitəsilə təbliğ etdiyi prinsip və dəyərlərə ziddir. Buna görə də bu məsələyə cavabdeh qurum və şəxslərlə əlaqə saxlanılıb və gələcəkdə belə hallara yol verilməməsi üçün BOK-un iş prinsipi və protokolları xatırladılıb.

Gənclər və İdman Nazirliyi "Paris-2024" Yay Olimpiya Oyunlarının yayımçısı olan "France 2" telekanalının ölkəmizə qarşı tutduğu qərəzli mövqeyə və bu hadisədən Beynəlxalq Olimpiya Komitəsinin Azərbaycana üzrxahlıq məktubunu nəzərə alaraq, Fransa hökumətinin də Azərbaycandan rəsmi üzr istəməsini gözlədiyini bildirib.

## Güləşçilərimiz Parisdə

**Azərbaycanın güləş üzrə olimpiya komandasının yarısı artıq Fransanın paytaxtı Paris şəhərindədir.**



Dünən Yunan-Roma güləşçiləri – Murad Məmmədov (60 kq), Həsrət Cəfərov (67 kq), Sənan Süleymanov (77 kq), Rafiq Hüseynov (87 kq) və Sabah Şəriəti (130 kq), eləcə də qadın güləşçimiz Mariya Stadnik (50 kq) Yay Olimpiya Oyunlarında iştirak etmək üçün Parisə yola düşüblər.

Heydər Əliyev Beynəlxalq Hava Limanında keçirilən yolasalma mərasimində Gənclər və İdman Nazirliyinin, Azərbaycan Güləş Federasiyasının rəsmiləri, məşqçilər, digər güləşçilərimiz və olimpiyaçıların yaxınları iştirak ediblər.

Avqustun 5-də Murad Məmmədov ilə Sabah Şəriəti, növbəti gün Sənan Süleymanov və Mariya Stadnik, Həsrət Cəfərovla Rafiq Hüseynov isə avqustun 7-də mübarizəyə başlayacaqlar.

Qeyd edək ki, olimpiadanın son günlərində çıxış edəcək sərbəst güləşçilərimiz avqustun 6-da Parisə yollanacaqlar.

## "Paris-2024"də uğurlu çıxışımız Fransa mətbuatında

**"Franceinfo" portalı "Paris-2024" Olimpiya Oyunlarında cüdo üzrə ilk çempionumuzdan yazıb. Hidayət Heydərov (78 kq) fransız mətbuatında "dünyada nömrə 1" kimi təqdim edilib.**

"Ouest-France" portalı isə Azərbaycanın cüdo üzrə ikinci qızıl medalçısı Zelim Kotsoyevdən bəhs edib. Qeyd edilib ki, Azərbaycan Olimpya Oyunlarında cüdo yarışlarında ilk dəfə 2 qızıl medal qazanıb.

Fransanın "20 minutes" portalı isə Azərbaycanın qadınlardan ibarət 3x3 basketbol yığmasının yarışlarda beynəlxalq idman ictimaiyyətini təəccübləndirməsindən yazıb. Ümumiyyətlə, fransız mətbuatında Azərbaycan qadınlarından ibarət 3x3 basketbol komandasından daha çox danışılıb. "Azərbaycan dünyada necə 3x3 basketbol qalasına çevrildi?" başlıqlı məqalədə vurğulanıb ki, basketbol komandamızın yeni yaranmasına baxmayaraq, Azərbaycan dünya basketbolunda önəmli ölkəyə çevrilib.

*Səhifəni hazırladılar:*
*Səbuhi MƏMMƏDOV,*
*Leyla QURBANOVA*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 3401 |
| SİFARİŞ | 1687 |
| QİYMƏTİ | 60 qəpik |

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00